www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet 27 noyabr 2014-cü il  Cümə axşamı  № 290 (5999)  Qiymətı  40 qəpik

**Xəbər**

## Bakıda zibillikdən yeni doğulmuş uşaq tapıldı

yazısı səh.14-də

**Gündəm**

### Qaraçuxurdakı "vəhhabi məscidi" yandırıldı



Son bir neçə gündə iki Allah evində təxribat baş verib; Azərbaycanda dini zəmində toqquşma hazırlanır?

yazısı səh.3-də

### "People in Need"in "SOS Karabakh" əməliyyatı - yeni sübutlar

yazısı səh.4-də

### Müsavat rəhbərliyini İŞİD-lə müqayisə edən şəxs partiyadan çıxdı

yazısı səh.5-də

### Sürücülərə şad xəbər - benzin ucuzlaşa bilər

yazısı səh.12-də

### Zamin Hacıdan "Azadlıq" qəzeti barədə ilginc xatirə

yazısı səh.2-də

### Müsavat mitinqlə bağlı BŞİH-ə müraciət etdi

yazısı səh.7-də

### Sülhəddin Əkbərin partiyasını qeydə almırlar

yazısı səh.6-də

### Rusiyadan gələcək işsizlər ordusu sabitliyi poza bilər

yazısı səh.12-də

### Ermənistan Qarabağdakı vertolyotlarını havaya qaldıra bilmir

yazısı səh.11-də

### İkram İsrafilin oğluna təzyiq edilir

yazısı səh.7-də

### Rusiya çöllərində "yol əhvalatı"....

yazısı səh.13-də

### Rusiya şirkətləri çökməyə başlayıb

yazısı səh.8-də

### QAT-ın əsirlərlə bağlı aksiyasına imkan verilmədi

yazısı səh.3-də

## Polkovnikin həbsi ilə bağlı sensasion iddia

# SƏFƏR ƏBİYEV MİLLİ ŞURANIN GÜDAZINA GEDİB? - ŞOK

Sabiq nazir müavininin Milli Şuranın rəhbərlərindən biri ilə təmaslarından sonra barəsində istintaq başlayıbmış və onun ölkədən çıxmasına qadağa qoyulubmuş; Mehman Səlimovun cəlb edildiyi istintaq birbaşa Müdafiə Nazirliyinə aid deyilsə, polkovnikin suçu nə?



yazısı səh.5-də

# Bakı və Moskva üçün kritik gün

Bu gün Vyanada OPEC-in son 15 il üçün ən həlledici sammiti olacaq; qurumun hasilatla bağlı çıxaracağı qərar neftin qiymətini 60 dollara sala bilər...

yazısı səh.8-də



*Əli Əkbər:*

### "Qancıq ulaşması"

yazısı səh.10-da



Fikrət Yusifov

### Qalmaqallı sabiq nazir yeni təşkilatını ictimaiyyətə təqdim etdi

yazısı səh.10-da



### İşçi Qrupu İntiqam Əliyevin ev dustaqlığına buraxılması üçün müraciət edib

yazısı səh.2-də

27 noyabr 2014



# İlahiyyatçılar Qobustana köçürülür

## Mövsüm Səmədovun ardınca indi də Taleh Bağırovun Qobustana köçürülməsi məsələsi qaldırılıb; gələn həftə isə Abgül Süleymanovun işi məhkəməyə göndəriləcək

**Noyabrın 28-də Qaradağ Rayon Məhkəməsində ilahiyyatçı Taleh Bağırovun Qobustan həbsxanasına köçürülməsi ilə bağlı işə baxılacaq. Bu barədə "Yeni Müsavat"a ilahiyyatçının vəkili Cavad Cavadov məlumat verib. Onun sözlərinə görə, Taleh Bağırovun Qobustan həbsxanasına göndərilməsi ilə bağlı iddianı məhbusun hazırda saxlanıldığı 12 saylı cəzaçəkmə müəssisəsinin rəhbərliyi qaldırıb.**

Vəkil facebook şəbəkəsində isə yazıb ki, noyabrın 25-də 12 saylı həbsxanada ilahiyyatçı məhbus Taleh Bağırov və 13 saylı müəssisədə ilahiyyatçı Abgül Süleymanovla görüşüb. Vəkil yazıb ki, 12 saylı cəzaçəkmə müəssisəsində karserə salınan Taleh Bağırov artıq oradan çıxarılıb. Amma ciddi nəzarət altındadır: "Məncə, onun yaxınları ilə telefon əlaqəsi saxlaması və görüşməsində problem olmamalıdır. Həm də ümid edirəm ki, bundan sonra ona qarşı intizam tədbirləri olmayacaq".

Vəkil yazıb ki, 13 saylı cəzaçəkmə müəssisəsində saxlanan Abgül Süleymanov karserə salınıb. Bizimlə söhbətində C.Cavadov T.Bağırovun məhkəmə qaydasında saxlanıldığı müəssisədən Qobustan ciddi rejimli həbsxanasına köçürülməsi iddiasının hazırda saxlanıldığı 12 saylı həbsxananın rəhbərliyi tərəfindən verildiyini bildirdi. Eyni zamanda vəkil, gələn həftə analoji addımın ilahiyyatçı Abgül Süleymanov üçün də atılacağını gözlədiklərini dedi.

Qeyd edək ki, bir qədər əvvəl İslam Partiyasının sədri Mövsüm Səmədov barəsində həbsxana rəhbərliyinin müraciəti əsasında Qobustan xüsusi rejimli həbsxanasına köçürülməklə bağlı qərar çıxarılıb. İndi isə daha bir ilahiyyatçı məhbus barəsində iddia qaldırılıb və görünən odur ki, bu iddia da qəbul olunacaq. İlahiyyatçı ruhanilərin xüsusi rejimli həbsxanaya göndərilməsinin dəqiq səbəbi bilinməsə də, vəkillər bu addımı din adamlarına qarşı təzyiq vasitəsi hesab edirlər.

T.Bağırov ötən il martın 31-də tutulub, narkotik vasitə saxlamada təqsirli bilərək 2 il müddətinə azadlıqdan məhrum edilib. Bu il avqustun 13-də Taleh Bağırovdan mobil telefon tapıldığına görə məhkəmə cəza müddətinə 4 ay da əlavə edib.

❑ KƏNAN



# AXCP fəalı həbs edildi

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Rəyasət Heyətinin üzvü, 2-ci qrup Qarabağ əlili Asif Yusifli noyabrın 25-də axşam saat 22 radələrində yoxa çıxıb. Bu barədə "Amerikanın Səsi"nə AXCP-dən bildiriblər.**

Məlumatda deyilir ki, A.Yusifli bir neçə gün öncə ayağından ağır əməliyyat keçirib. O, axşam saatlarında digər partiya yoldaşının avtomobilində olduğu zaman saxlanılıb. Partiya yoldaşı avtomobilini "Nərimanov" metrostansiyası yaxınlığında ərzaq mağazasının qarşısında əyləyib mağazaya daxil olub. Bir neçə dəqiqədən sonra mağazadan çıxarkən Yusiflini avtomobildə görməyib. AXCP Asif Yusiflinin yoxa çıxması ilə bağlı Daxili İşlər Nazirliyinin "102" xidmətinə müraciət edib.

Dünən günün ikinci yarısında A.Yusiflinin yeri məlum olub. AXCP sədrinin müşaviri Məmməd İbrahim "Media forum" saytına deyib ki, Asif Yusiflini Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi həbs edib və Nərimanov Rayon Məhkəməsinin qərarı ilə barəsində dörd aylıq həbs qərarı çıxarılıb: "Noyabrın 26-sı günorta saatlarında Nərimanov Rayon Məhkəməsindən bir vəkil mənə zəng vuraraq bildirdi ki, Asif Yusiflini Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi həbs edib və barəsində həbs qərarı seçilməsi üçün Nərimanov Rayon Məhkəməsinə gətiriblər. Məhkəmə Asif bəy barəsində dörd ay həbs-qətimkan tədbiri seçib".

A.Yusifli dələduzluqda və sənədlərin saxtalaşdırılmasında ittiham olunur.

❑ ELŞƏN

# İşçi Qrupu İntiqam Əliyevin ev dustaqlığına buraxılması üçün müraciət edib

## Novella Cəfəroğlu: "Təcili tədbir görülməlidir"



**Ölkədəki insan haqları pozuntuları və siyasi məhbuslarla bağlı fəaliyyətini bərpa edən İşçi Qrupu dekabrda yenidən toplaşacaq. Bu barədə musavat.com-a hüquq müdafiəçiləri məlumat veriblər. Hazırda isə onlarla məhbusla bağlı siyahılar, materiallar yığılır. İşçi Qrupun üzvü Novella Cəfəroğlunun sözlərinə görə, əsasən xəstə məhbusların sənədləri, xəstəlik kağızları toplanır: "Pərviz Həşimlinin həyat yoldaşı gəlmişdi, sənədləri gətirdi. Həmçinin NİDA-çı gənclərin xəstəlikləri barədə sənədləri yığırıq".**

**İQ-nin üzvləri Baş Prokurorluğa hüquqşünas İntiqam Əliyevlə bağlı da müraciət ünvanlayıblar:** "Onun xəstəliyi ilə bağlı müraciət etdik ki, ev dustaqlığına buraxılsın və müalicəsinə şərait yaradılsın. Onun problemi ciddidir və təcili tədbir görülməlidir". Hüquq müdafiəçiləri Leyla Yunusla bağlı da müraciət etməyi düşünürlər. "Onun səhhəti ağırdır, istəyirik ki, xaricə müalicəyə gedə bilsin. Bununla bağlı İşçi Qrupun özündə yığışıb danışacağıq. Təcili tədbir görülməsinə ehtiyac var".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı isə qeyd edir ki, hazırda İşçi Qrupu ciddi şəkildə işləyir:** "Müraciətlərə baxılır. Sonuncu iclasda qaldırılan məsələlər haqqında arayışlar hazırlanır, sənədlər yığırıq, onları aidiyyəti orqanlara təqdim edirik. Ümid edirik ki, ilin sonuna kimi irəliləyişlərin, nəticələrin şahidi olacağıq". S.Bənəniyarlı ilin sonunda əfv sərəncamının veriləcəyini və həmin siyahıya müraciətlərinə baxdıqları şəxslərin düşəcəyini də inamla bildirib: "Biz əfv siyahısında müraciət etdiyimiz insanların adlarını görməyi istəyirik".

**İQ üzvü olan deputat Çingiz Qənizadə isə bildirib ki, onlar uzun müddət həbsi, həbs olunduğu maddələr müzakirə predmeti olan ayrı-ayrı şəxslərdən daxil olan müraciətlərə baxa biləcəklər:** "Həm istintaq, həm də məhkəmə zamanı hüquqlarının pozulduğunu iddia edən şəxslərin işinə yenidən baxılması zəruridir. İşçi Qrupu həmin müraciətləri araşdırıb aidiyyəti qurumlardan, həmçinin dövlət başçısından kömək istəyəcək. Həmçinin ölkənin siyasi həyatında aktiv olan insanlar var ki, müxtəlif maddələrlə həbs olunublar, onların cəzasının yüngülləşdirilməsi, vaxtından əvvəl azad olunması kimi məsələlər ümumi işimizin tərkib hissəsi kimi olacaq. Bu və digər işlərin aidiyyəti nazirlik və prokurorluq tərəfindən nəzarətdə saxlanmasına çalışacağıq. Bizim, hüquq müdafiəçilərinin qaldırdığı məsələlər sırf tövsiyə xarakterlidir, ancaq əfv fərmanları zamanı nəzərə alınıb və prezident tərəfindən dəyərləndirilib. Bundan sonra da belə olacağını güman edirəm. Dekabrın sonlarında növbəti toplantı olacaq. biz siyahı hazırlayıb Əfv Komissiyasına göndərəcəyik. Ümid edirəm ki, ilin sonunda, dünya azərbaycanlılarının həmrəylik günü ilə bağlı veriləcək əfv fərmanında bizim siyahımızda olan şəxslər də əfvə düşəcək".

❑ Röya RƏFİYEVA



# Asim Mollazadə Tiflisə gedib

**Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə Azərbaycan-Türkiyə-Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin 2-ci görüşündə iştirak etmək üçün Gürcüstana gedib. Partiyanın mətbuat xidmətinin məlumatına görə, Tiflisdə keçiriləcək toplantıda sözügedən komitələrin fəaliyyətləri, qəbul edilən qanun və sənədlər, qanunvericilik sahəsində əldə olunan nailiyyətlər, gələcək əməkdaşlıq perspektivləri müzakirə ediləcək.**

❑ Vüqar MURAD

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Zamin Hacıdan "Azadlıq" qəzeti barədə ilginc xatirə

**Tanınmış köşə yazarı Zamin Hacı vaxtilə "Azadlıq" qəzetində işləyərkən başına gəlmiş bir hadisəni özünün facebook profilində oxucularıyla bölüşüb. Zamin Hacının əsgərliyə aparılmasının əsl səbəblərindən danışılan həmin ilginc statusu olduğu kimi diqqətinizə çatdırırıq:**

"1998-ci ildə "Azadlıq" qəzetində sırf faktlar və sənədlər əsasında orduda vəziyyəti tənqid edən yazılar yazırdım. Bir yazım "Ac əsgərlər və kök generallar ordusu" adlanırdı, Murovda alimentar distrofiyadan - aclıqdan ölən əsgərlərə həsr olunmuşdu. Bu faktları və yazıları təkzib etməyim üçün MN rəhbərliyindən dəfələrlə rüşvət təklifləri, hədələr aldım.

Ancaq əksini - yalanı yazmadım. Axırda hədələdilər ki, səni Murova - həmin aclıqdan ölən əsgərlərin yerinə xidmətə apararıq. Dedim, buyurun aparın. Apardılar.

1999-cu ilin 6 yanvarında əsgər getdim, fevralda artıq Murovun zirvələrindən birində it zülmü çəkirdim. Ancaq mənə ən ağır zərbə bu deyildi. Bir gün postdan aşağı düşürüldüm, dedilər müdafiə nazirinin müavini Mehman Səlimov gəlib, səni görmək istəyir.

Martın əvvəli idi. Səlimov "Azadlıq" qəzetinin... mənim yazılarımın təkzib edildiyi nüsxəsini gətirmişdi. Heç bir faktsız, sübutsuz, eləcə yazmışdılar təkzib edirik.

Səlimov gülə-gülə mənə dedi ki, sən ağıllı oğlan olsaydın bunu özün də edərdin, indi burda olmazdın.

"Azadlıq" üstəlik, Səlimovdan yalan dolu intervü də almışdı. Sonra mobil telefonu verdi, dedi istəsən "Azadlıq"la danış. Mən də danışdım, dedim, sağ olun, uşaqlar, hər şey yaxşıdır.

O vaxt "Azadlıq"ın baş redaktoru olmuş şəxs sonralar MN üçün tikinti işləri aparan şirkət açdı, açılış lentini İlham Əliyevlə kəsirdi. Səlimovdan intervü alan isə İbrahim Məmmədov idi - indi AzTV-də goplarını davam etdirir".

❑ Musavat.com

**"Elm" tədris mərkəzi**

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




# Azərbaycanda şəhid məzarına hörmətsizlik

**İmişli şəhərindəki Şəhidlər Xiyabanında Qarabağ döyüşlərində həyatını itirmiş şəhid məzarının barelyefi yoxa çıxıb.**

Avropa. info-nun bölgə müxbirinin verdiyi məlumata görə, həmin məzarın kimə aid olması belə bilinmir.

"Amma dəqiqdir ki, məzar Qarabağ döyüşlərində dünyasını dəyişmiş şəhidə aiddir. Çünki burada ancaq Qarabağ döyüşlərində həyatını itirmiş şəhidlərin məzarı yerləşir".

Əməkdaşımız qeyd edir ki, İmişli şəhər sakinlərinin verdiyi məlumata görə, artıq məzarın barelyefi bir ildən artıqdır ki, yoxa çıxıb. Amma yerli icra strukturları hələ də bununla bağlı bir tədbir görməyib.

# Müxalif siyasi partiyalar toplandı

**26 noyabr 2014-cü ildə Demokratiya və İnsan Haqları Mərkəzində əməkdaşlıq edən siyasi partiyaların KAXCP, Müsavat, Ümid, ADP, BAP, Azadlıq, VİP, , ALDP, AXP sədrlərinin iştirakı ilə növbəti toplantısı olub. Toplantıda aşağıdakı məsələlər müzakirə edilib:**

**1.** Siyasi məhbuslar - Leyla Yunus, İntiqam Əliyev, İlqar Məmədov, Tofiq Yaqublunun səhhətində yaranmış problemlər barədəki informasiyalardan narahatlıq ifadə edilib və son günlərdə bir sıra müxalifət nümayəndələrinə və xüsusilə ailə üzvlərinə, övladlarına qarşı (R. Daşdəmirovun oğlu, E. Namazov, A. Yusifli) həbs və digər formalarda repressiya aktlarına məruz qalmaları qətiyyətlə pislənib.

**2.** 2014- cü il noyabr ayının 10-u tarixində siyasi partiyaların "Azərbaycanda demokratiyanın vəziyyəti " mövzusunda II konfransının keçirilməsi qərara alınıb.

**3.** Digər aktual ictimai - siyasi məsələlərlə bağlı müzakirələr aparılıb

❑ Musavat.com

# Vəkil Elçin Namazov həbs edildi

**Vəkil Elçin Namazov həbs edilib. APA-nın məlumatına görə, vəkil noyabrın 25-də Xətai Rayon Məhkəməsinin qərarı ilə 15 sutka müddətinə inzibati qaydada azadlıqdan məhrum edilib. O, polisin tələbini yerinə yetirməməkdə təqsirləndirilir.**

Qeyd edək ki, 2011-ci ildə Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə E. Namazovun vəkillik fəaliyyətinə xitam verilib. Bundan sonra E. Namazov məhkəmələrdə nümayəndə kimi iştirak edir.

# Günün içindən

YENİ MÜSAVAT
N 290 (5999) 27 noyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



**Noyabrın 26-da Qarabağ Azadlıq Təşkilatı (QAT) BMT-nin Bakı nümayəndəliyinin qarşısında piket keçirməyə cəhd göstərib. Aksiya Kəlbəcərdə əsir götürülən azərbaycanlıların vəziyyətinə BMT-nin nümayiş etdirdiyi susqun mövqeyə etiraz olaraq təşkil olunub. Polis piketin qarşısını alıb.**

# QAT-ın əsirlərlə bağlı aksiyasına imkan verilmədi

## Əsirlərin yaxınlarının da qatıldığı piketin qarşısı alındı; BMT nümayəndəliyi etirazçıların qarşısına çıxmadı

Aksiyada QAT üzvləri ilə yanaşı, əsirlərin yaxınları da iştirak ediblər. İlk olaraq etirazçılar Şəhidlər Xiyabanının önündən nümayəndəliyin qarşısına yürüş ediblər. Aksiyada "BMT-yə ar olsun!", "Rədd olsun Minsk Qrupu", "Beynəlxalq təşkilatları ədalətə çağırırıq!" kimi şüarlar səsləndirilib. Piketçilər əllərində Azərbaycan və ingilis dillərində şüar yazılmış, üzərində əsirlərin şəkilləri olan plakatlar tutublar. Ofisin önündə onların qarşısını polislər kəsib. Bu zaman asayiş keşikçiləri ilə aksiya iştirakçıları arasında qarşıdurma yaranıb. Polislər iştirakçılara zor tətbiq edərək, əsirlərin yaxınlarının qolundan tutaraq onları ərazidən uzaqlaşdırmağa və əllərindəki plakatları cırmağa cəhd ediblər. Bu isə etirazçıların ciddi narazılığına səbəb olub.

QAT sədri Akif Nağı baş verənlərlə bağlı polislərə etirazına görə təzyiqə məruz qalıb. Daha sonra polislər qətnaməni nümayəndəliyə təqdim etmək üçün 5 nəfər aksiya iştirakçısının ofisin önünə getməsinə icazə veriblər. Lakin onların nümayəndəliyə daxil olmalarına icazə verilməyib. Nümayəndəliyin əməkdaşının onlarla görüşəcəyi deyilsə də, 1 saat gözləmələrinə baxmayaraq, aksiya iştirakçılarını qəbul edən olmayıb.

**A.Nağı jurnalistlərə açıqlamasında bunları deyib:** "BMT indiyə qədər bir dəfə olsun, belə əsirlərimizlə bağlı qərar qəbul etməyib. Bu məsələni həll edə biləcək güc BMT-dir. Əgər bunlar susurlarsa, onda nə işləri var? Çıxıb getsinlər ölkəmizdən. Növbəti dəfə zəncir gətirib bu ofisi bağlayacağıq. Tələb edirik ki, ermənilərə qarşı sanksiyalar tətbiq olunsun. Sözləri varsa, desinlər. Bir saata yaxındır gözləyirik".



**Erməni əsirliyində olan Şahbaz Quliyevin qardaşı İlham Quliyev polisləri onların tərəfinə keçməyə çağırıb:** "Burada mən güllə atıram? Gəlmişəm ki, qardaşımın hüququnu müdafiə etsinlər. Gör nə günlərə qalmışıq ki, erməniləri bəsləməklə məşğuluq. 3 aydan sonra o əsirlərin heç biri həyatda olmayacaq. Ondan sonra nə tədbirlər görülsə, mənası yoxdur. Qardaşımın haqqını tələb edirəm. Sizlər bizə zorakılıq edirsiniz. Biz bu ölkənin vətəndaşlarıyıq. Bizə qarşı olmamalısınız. Əksinə, müdafiə etməlisiniz. Təəssüf ki, bu addımı atmırsınız. Dilqəm və Şahbaz torpaqlarımız uğrunda əsir düşüblər. Gəlin siz də biz tərəfə keçin".

BMT-nin Bakı nümayəndəliyindən heç kim aksiya iştirakçılarının qarşısına çıxmayıb. Polis piketçilərdən qətnaməni onlara təqdim edib, ərazidən uzaqlaşmağı tələb edib. Onların bu tələbi narazılıqla qarşılanıb. Sonda aksiyanın qətnaməsi nümayəndəliyə çatdırılması üçün polislərə təqdim olunub. Əsirlərin yaxınları üç gündən sonra yenidən nümayəndəliyə gələcəklərini bildiriblər.

**Aksiyanın sonunda A. Nağı jurnalistlərə açıqlama verib:** "Ermənilər hazırda əsirlərimizə işgəncə verirlər. Biz sona qədər mübarizə aparacağıq. Bu gün bura gələnlərin əksəriyyəti onların yaxınlarıdır. Dəstək verən hər kəsə təşəkkürümü bildirirəm. Ola bilsin ki, aksiyaya narazıların bir hissəsi gəlsin. Amma bizlə hesablaşmağa məcburdurlar. Onlar hər birimizin yaxınıdır".

**Dilqəm Əsgərovun qardaşı Sahib Əsgərov musavat.com-a açıqlamasında bu tipli aksiyaları yüksək dəyərləndirdiyini söylədi:** "Biz nə qədər sakit otursaq, beynəlxalq təşkilatlar bir o qədər bizi saymayacaq, hörmət etməyəcək. Onların girov götürülməsindən 4 ay 17 gün keçir. Bu müddət ərzində hələ beynəlxalq təşkilatlar heç bir reaksiya verməyiblər. Bu aksiya üçüncüdür. Bundan əvvəl aclıq aksiyası keçirdik. BMT-dən nümayəndə gəlməsini tələb etdik. Amma gələn olmadı. İndi də qarşımıza çıxmadılar. Nə qədər sözümüzü eşitməyiblər, belə aksiyaları davam etdirməliyik".

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# Azərbaycanda dini zəmində toqquşma hazırlanır?

## Son bir neçə gündə iki məsciddə təxribat baş verdi; Qaraçuxurdakı vəhhabi məscidi yandırıldı



**Azərbaycanda dini camedə daha bir təxribat xarakterli hadisə baş verib. Noyabrın 26-da səhər saat 01:55 radələrində Qaraçuxur məscidi yandırılıb. İlkin məlumatda bildirilirdi ki, naməlum şəxslər məscidə içərisində yanacaq olan şüşə qab atıblar. Nəticədə məsciddə yanğın başlayıb.**

Məscidin axundu Mirfəttah Fəttayev isə deyib ki, Allah evinə 6-7 min manat məbləğində ziyan dəyib.

Onun sözlərinə görə, ibadətgahı kimlərin yandırdığı bəlli deyil: "Məscidi yandıranlar bəlli deyil. Hətta gözətçiyə güc də tətbiq edilib və o yıxılıb. Hadisə şahidlərinin bildirdiyinə görə, həmin adamlar iki nəfər olub. Məscidin içərisinə daxil olaraq od vurublar. Gözətçi dərhal ayağa qalxıb. Ətrafda yaşayan camaatın köməyi ilə yanğının daha da şiddətlənməsinin qarşısı alınıb".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı APA-ya açıqlamasında bildirib ki, komitə məsələni nəzarətə götürüb.

**M.Qurbanlı** qeyd edib ki, polisin araşdırması ilə yanaşı, Komitə məsələni nəzarətdə saxlayır və yaxın zamana araşdırmanın nəticələri məlum olacaq: "O məsciddə indiyə qədər dini baxımdan qarşıdurma, mübahisə müşahidə olunmayıb. Bu hadisə də indi araşdırılmalıdır. Bunun kökündə hansı xəttin olması diqqətlə araşdırılıb öyrəniləcək". Hadisənin dini təriqətlər arasında mübahisə zəminində baş verməsi ilə bağlı yayılan fikrə komitə sədri belə cavab verib ki, hər şey araşdırmadan sonra bəlli olacaq və açıqlanacaq.

Virtualaz.org-un məlumatına görə, məscidin əsasən giriş hissəsinə ziyan dəyib. İbadətgahın xalçası yanıb və yararsız hala düşüb, binanın divarlarını his basıb. Məscidin kondisionerlərinə və isitmə (kombi) sisteminə də zərər dəyib. Pəncərələrin şüşələri sınıb. Polis məscidi tam nəzarətə götürüb.

Qeyd edək ki, məscid kamera sistemi ilə təchiz olunub. Allah evini yandıran şəxslər nəzarət kameralarına düşüb. Polis görüntülərə əsasən araşdırmalara başlayıb.

Yanğını törədən iki şəxs hələ saxlanılmasa da, onları məscidə gətirən taksinin sürücüsü saxlanılıb. Qaraçuxur məscidi 1992-ci ildə azərbaycanlı və türkiyəli iki iş adamının təşəbbüsü ilə tikilib. Hazırda ən çox camaatı olan məscidlərdən biridir. Bu məsciddə sünni və şiə camaatı birlikdə ibadət etsə də, camaat arasında məscid vəhhabi məscidi kimi tanınır.

Qeyd edək ki, son günlərdə bu, Azərbaycanda məscidlərlə bağlı ikinci təxribatdır. Bir neçə gün əvvəl Sumqayıt şəhər 6-cı mikrorayondakı məscidin divarına naməlum şəxslər tərəfindən ingilis dilində "Burda Allah yoxdur" ("God No Were") kəlməsi yazılmışdı. Həmin məscid şiələrin ibadət yeridir.

Bundan əvvəl də müxtəlif bölgələrdə vəhhabilərə qarşı təzyiqlərin olması barədə məlumatlar yayılmışdı.

"Yeni Müsavat"ın əldə etdiyi məlumatlara görə, son vaxtlarda həbsxanalarda da sünni və şiə təriqətindən olan məhbuslar arasında gərginlik yaşanır. Hətta bir müddət öncə onların arasında ciddi münaqişənin baş verdiyi də bildirilir. Dini camedə baş verən son olaylara nəzər saldıqda bu qənaətə gəlmək olur ki, hansısa maraqlı qüvvələr Azərbaycanda dini zəmində problemlər, qarşıdurmalar və toqquşmalar yaratmaqda maraqlıdırlar.

Ekspertlərin fikrincə, son baş verənlər bir daha göstərir ki, bu məsələ ilə bağlı ciddi problemlər var və bir neçə bu cür təxribat xarakterli olaylar arzuolunmaz nəticələrə aparıb çıxara bilər. Ekspertlər hesab edirlər ki, hər iki təriqət üzvləri arasındakı nüfuzlu şəxslər xoşagəlməz halların yaşanmaması üçün təbliğat aparmalıdırlar, dindarları təxribatlara uymamağa çağırmalıdırlar. Əks təqdirdə, Azərbaycanı dini zəmində toqquşmalara sürükləmək istəyən qüvvələr bir neçə belə təxribatla öz istəklərinə çata bilərlər. Bu isə Azərbaycanı böyük bir təhlükənin içərisinə soxar.

❑ **T.HƏSƏNLİ**

# "Azadlıq" ünvanı yenə səhv saldı

**"Azadlıq" qəzeti dünənki sayında "Əfqan Muxtarlı hakimiyyətin hədəfində" başlıqlı yazı verib. Yazıda göstərilir ki, "İqtidarın nəzarətində olan media orqanları jurnalistə qarşı "erməni kartı" ilə hücuma keçib.**

Adıçəkilən jurnalistin barəsində yazılan yazı musavat.com saytında da yer aldığı üçün irəli sürülən ittihamlara cavab verməK zorunda qalmışıq.




**Məsələ belədir:** "Gündəlik Teleqraf" qəzetinin baş redaktoru Taleh Şahsuvarlı son günlər ölkənin siyasi gündəmində yer alan "Batumi forumu" məsələsi ilə bağlı bir araşdırma aparıb. Həmin araşdırma əsasında da qəzetdə bir yazı hazırlanıb. Yazı qalmaqallı, tirajlı və maraqlı olduğu üçün onu cüzi ixtisarla musavat.com saytında da yerləşdirmişik. Üstəlik, həmin yazıdan tamamilə aydın görünür ki, azərbaycanlı jurnalist doğrudan da erməni ilə ortaq yazılar yazıb.

Onu da qeyd edək ki, gün ərzində sayta qoyduğumuz 150-200 xəbərin az qala yarısı informasiya agentliklərinin, portalların, saytların, qəzetlərin, eləcə də rəsmi qurumların mətbuat xidmətlərinin yaydığı materiallardan ibarət olur. Bu, bir qaydadır. Bu məsələdə əməkdaşlıq etdiyimiz portal və saytlar da maraqlıdır.

İndi gələk, "jurnalistin erməni kartı ilə vurulması" məsələsinə. Erməni jurnalisti ilə əməkdaşlıq etdiyini Əfqan Muxtarlı özü də etiraf edir axı. Ə.Muxtarlı "Azadlıq" qəzetinə verdiyi açıqlamada deyir: "Armen Karapetyan adlı erməni jurnalisti ilə birlikdə iki məqalə yazmışam. Həmin materiallar iwpr.net saytında dərc edilib".

Bununla belə, jurnalist özü də, "Azadlıq" qəzeti də məqalənin müəllifini, yazının dərc olunduğu ilk mənbəni kənara qoyaraq, əsasən "Yeni Müsavat"ı və Rauf Arifoğlunu hədəfə alır.

Bundan başqa, "Azadlıq" qəzeti daha bir saxtakarlığa və təhrifə yol verməkdən özünü saxlaya bilməyib.

Bu məsələ ilə bağlı sosial şəbəkədə əsasən yazının müəllifinə ünvanlanmış qınaqların hamısını qəsdən Rauf Arifoğlunun üstünə yönəldib. Sanki o adamlar "Yeni Müsavat"ın baş redaktorunu nəzərdə tutaraq belə şeylər danışıblar. Halbuki o ifadələrin müəllifləri arasında vaxtilə "Yeni Müsavat"da çalışmış və kollektivlə dostluq münasibətində olan adamlar var.

Uzun sözün qısası, facebookda, googledə kiminsə əleyhinə yazılan, deyilən sözləri dənləyib tərkar çap etməyə qalsa, internet resurslarından istifadə etməyi və onları sıralayıb alt-alta düzməyi hamı bacarar. Qoy hər kəs ona söz deyənlə mübahisəyə, polemikaya girişsin. Biz də günün birində Əhəd Abıyevdən, Hafiz Hacıyevdən sitatlar verə bilərik.

❑ **Musavat.com**

**Avropa Birliyi Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində Batumidə keçirilən Vətəndaş Cəmiyyəti Forumunda yaşanan skandal Azərbaycanı qarışdırıb. Görünən də odur ki, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunun həmin tədbirdə iştirakı onun nəzərdə tutulan məcrada gedişinə imkan verməyib.**

**Elbəyi HƏSƏNLİ**



# "People in Need"in "SOS Karabakh" əməliyyatı - yeni sübutlar

## Mahiyyətcə bu təşkilatla Baronessa Koksun fəaliyyəti arasında elə bir fərq yoxdur...

Məlum olduğu kimi, tədbirin iştirakçısı olan Çexiyanın "People in Need" təşkilatı Dağlıq Qarabağ ermənilərini müstəqil dövlətin nümayəndəsi kimi tanıtmağa cəhd göstərib. Apardığımız ötəri araşdırmalar sübut etdi ki, bu təşkilatın erməni separatçılarına bu səviyyədə dəstəyinin tarixi kökləri var. Yazdıq ki, həmin təşkilat Azərbaycanın ərazi bütövlüyünü tanımır, separatizmi dəstəkləyir. 1988-ci ildə Ermənistana, 1992-ci ildə Dağlıq Qarabağa yardım edib. Qurumun rəhbəri olan Simon Panek və Jaromir Stetina Ermənistana və Dağlıq Qarabağ separatçılarına sevgilərini hələ o vaxtı açıq şəkildə ifadə ediblər. 2003-cü ildən isə bu təşkilat Ermənistanda rəsmən fəaliyyətdədir, hazırda orada onlarla şöbəsi var. Hər şeyi "People in need"in homepageinə və başqa mənbələrə əsasən ortaya qoyduq.

**Amma elə insanlar ortaya çıxdı ki, gün kimi aydın faktlara məhəl qoymadı. Haray-həşir saldılar, and-aman elədilər ki, elə şey yoxdur. Beləlirindən biri də ABŞ-da mühacirətdə olan Ramiz Yunusdur. O, jurnalistlərə facebook-da belə bir sual ünvanladı:** "Helsinki Komissiyasının rəhbəri, ABŞ senatoru Ben Kardin Çex Respublikasının Xarici Siyasət Komissiyasının sədri Karel Şvarcenbergi ve "People in Need" humanitar təşkilatının icraçı direktoru Simon Paneki öz ofisində qəbul edib və Azərbaycan, Ukrayna və postsovet regionunda gedən prosesləri onlarla müzakirə edib. Sualım var bizim bəzi mətbuat işçilərinə: bütün dünyada ümumbəşəri dəyərləri müdafiə edən, məşhur "Maqnitski Aktin"ın müəllifi olan və Azərbaycan hökumətini kəskin tənqid edən senator Kardinin mövqeyi ermənipərəstlikdirmi?"

Bu suala məmnuniyyətlə cavab verəcəm. Hələliksə Ramiz bəy haqqında bir-iki kəlmə deyim. O, Azərbaycanda kifayət qədər tanınmış insandır. Müsavatçıdır. Amerikadakı avtomobilində nömrə yerinə "Müsavat" yazısı asılıb. ABŞ-da bu, qanunla mümkündür. Mömin adamdır. 7 dəfə Həcc ziyarətində olub. Tanınmış hüquq müdafiəçisi Leyla Yunusun həyat yoldaşı Arif Yunusun qardaşıdır. İlham Əliyevin ən sərt ifadələrlə tənqid edən dostlarımızdandır. Ramiz bəyin sualına keçməmişdən öncə bir daha bu təşkilatla bağlı müəyyən nüansları oxucularımızın diqqətinə çatdıraq. Ümid edirəm ki, bu nüanslar hər şeyi yerbəyer edəcək.

Sözügedən təşkilatın dəstəyi ilə film çəkən qruplardan biri öz saytında Simon Panekin özəl qeydlərinə yer ayırıb. O yazır ki, köhnə dostum Jaromir Stetina mənə zəng vurdu və bildirdi ki, Dağlıq Qarabağdan gəlir. Orada vəziyyət ağırdır. Yardım təşkil etmək lazımdır.

Bu epizodun davamını isə başqa bir sayta tapa bildik. Düşünün ki, 2002-ci ildə ""People in Need" 10 years of helping" adlı kitabı çıxıb. Həmin kitabı bu linkdən oxumaq olar: - http://www.mott.org/files/publications/MosaicV1N1.pdf

**Kitabın 9-cu səhifəsində diqqətçəkən qeydlər var. Maraqlananlar nəzər sala bilər. Mətndə deyilir ki, Simon Panek-in** ***(ad beynəlxalq standarta uyğun olaraq çex dilində belə yazılır)*** **1988-ci ildə 21 yaşı vardı:** "Tələbə idi. O, o vaxt Ermənistanda zəlzələ qurbanlarına yardım kampaniyası təşkil etdi. 1992-ci ildə isə xeyli təcrübəsi olan Simon Panek ən müasir üsullardan istifadə edərək Praqa televiziya və radiosunda "SOS Qarabağ" kampaniyası başlatdı. Dağlıq Qarabağda müharibə qurbanlarına yardım üçün 80 min dollar topladı *(80 min bu gün çox az görünə bilər, ancaq 1992-ci ildə bu çox böyük vəsait idi - E.H.)* Simon Panek və tanışları ərzaq aldılar, Çexiyanın tibb müəssisələri dava-dərman ayırdılar. Təyyarə kirayə götürdülər və yükü İrəvana çatdırdılar. Oradan isə maşın karvanı yükü pis vəziyyətdə olan əraziyə göndərdi..."




Ən ilginci odur ki, Simon Panek bu əməliyyatdan sonra qeyd edir ki, "biz geri döndükdən sonra *(Dağlıq Qarabağ nəzərdə tutulur - E.H.)* başa düşdük ki, bu işi davam etdirməyə ehtiyac var..." Və davam etdirdilər də. İndi də bu yolu tutub gedirlər. Dağlıq Qarabağı müstəqil dövlət kimi tanıtmağa çalışırlar...

Mahiyyətdə bu təşkilatla Baronessa Koksun elə bir fərqi yoxdur. O da qaçaq yolla iki gündən bir Qarabağa gedir. Ermənləri separatizmə ruhlandırmaq üçün min oyundan çıxır...

***

Təqdim etdiyim bu linkdə isə http://blogs.wsj.com/emergingeurope/2014/01/27/hidden-sports-site-lists-human-rights-abuses-in-russia-a-head-of-sochi-olympic-games/ yazılıb ki, "People in Need" təşkilatı 1992-ci ildə Simon Panek və onun iki jurnalist dostu tərəfindən Dağlıq Qarabağda qaçqın böhranı zamanı yaranıb. Həmin region Azərbaycandan qopub (ayrılıb)... Bundan əvvəlki yazıda qeyd etdiyim faktlara bunları da əlavə edə bilərsiz - yəni bu faktları kimsə inkar edə bilməz.

İndi isə hörmətli Ramiz bəyin sualına keçək. Ramiz bəyin məntiqincə, əgər "People in Need"in rəhbərini amerikalı senator qəbul edirsə, deməli, təşkilat aydan arı, sudan durudur. Gəlin baxaq görək ki, bu senator kimdir? Siz də istəsəniz, bu linkə baxa bilərsiz. Söhbət 2007-ci ildən gedir.

http://www.ontheissues.org/house/Benjamin_Cardin_Foreign_Policy.htm

Helsinki Komissiyasının rəhbəri, ABŞ senatoru Ben Kardin Rusiya əsilli yəhudidir. Özü də Ramiz bəyin yaydığı fotoya diqqət edin. Foto musəvilərin əsas rəmzinin fonunda çəkilib. Mənim yəhudilərlə elə bir problemim yoxdur. Amma bu yəhudini heç sevmədim. Niyəsini deyim. Çünki erməni genosidini təbliğ edir. Özü də necə? Bu yəhudi senatorun yanında ermənilər çox insaflıdır. Baxın görün, nə yazır. Ermənilər deyir ki, o vaxt 1.5 milyon erməni ölüb. Bu qadasını aldığım isə deyir ki, yox canım, 2 milyon ölüb. 1,5 milyonu kişidir, 0,5 milyonu qadındır. Özü də ermənilər həmin ərazidə, yəni indiki Türkiyənin ərazisində 2.500 ildir ki, yaşayırlar. Həmin ərazi onların dədə-baba torpaqlarıdır. Yəni Türkiyənin yarısı onlara çatır...

Təsadüfi deyil ki, ABŞ-da fəaliyyət göstərən "Amerika Erməniləri Milli Komitəsi "nin ən çox tərifədiyi senator məhz odur. Amma nədənsə sayın Ramiz bəyin dost dediyi bu adamın bu kimi hərəkətlərindən xəbəri yoxdur. Ramiz bəy üçün önəmli olan odur ki, bu senator Leyla və Arif Yunusun həbsdən azad edilməsini tələb edib. Twitter-də də bu barədə yazıb. Qeyd edək ki, bu senator araşdırıcı jurnalist Xədicə İsmayılovanın Azərbaycanda təqib olunması ilə bağlı da bəyanat verib. 2014-cü ildə ATƏT-in Bakıda keçirilmiş illik toplantısında ABŞ nümayəndə heyətinə başçılıq edib.

O, 2008-ci ildə Ermənistanda keçirilmiş prezident seçkilərini tənqid edib. Səbəb də odur ki, həmin vaxt Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan seçkiyə qatılmışdı. Ermənistanın hazırkı prezidenti Serj Sarkisyan o vaxt ona qarşı qarayaxma kampaniyasına başlamışdı. Deyirdilər ki, Ter-Petrosyan xanımı yəhudi olduğuna görə o da, onun xanımı da İsrailə Ermənistan əleyhinə casusluq edirlər. Yəni Ter-Petrosyanın xanımı yəhudi olmasaydı, cənab Benjamin Kardinin bu saxtakarlığı da dilə gətirməzdi və deməzdi ki, Ermənistandakı anti-semitizm məni heyrətdə qoydu...

Onu da qeyd edim ki, ortaya qoyduğum Qərb mənbələridir. Özü də hər bir tərəf həmin sənədləri öz əliylə yazıb. Onlar da bunu ona görə yazıblar ki, ermənipərəst olmaq pul gətirir, türkə düşmən olmaq da həmçinin. Yəni bu qədər bəsit...



**"Zöhrab İsmayıl gözümüzün içinə deyir ki, siz şərəfsiz və alçaqsız. Əli Kərimlinin yaxın adamlarından olan Zöhrab İsmayılın bu canfəşanlığının səbəbini öyrənə bildik"**

***

Ötən yazımda Qərbin qrantları hesabına yaşayan Zöhrab İsmayılın facebookdakı statusuna diqqət çəkmişdim: "People in Need" təşkilatına "ermənipərəst" damğası vurmağa çalışmaq alçaqlıq və şərəfsizlikdir! Hansı ki, bunu "Yeni Müsavat" qəzeti etməyə çalışır..."

http://musavat.com/news/gundem/people-in-need-ermeniperestli-yi-ve-bizim-milli-ermeniler-sene dler-subutlar_228923.html

**Yeni adam gözümüzün içinə deyir ki, siz şərəfsiz və alçaqsız. Əli Kərimlinin yaxın adamlarından olan Zöhrab İsmayılın bu canfəşanlığının səbəbin öyrənə bildik. Məlum oldu ki, "PiN" bu şəxsi aylarla Çexiyada saxlayıb, bütün məsrəflərini ödəyib. Hələ də proses davam edir. Onun Kanadaya və ya ABŞ-a getməsinə də yardım edəcəklər. Bu təşkilatın müdafiəsində duranlardan biri isə öz statusunda bu müdafiənin nə qədər təmənnalı olduğunu etiraf edib. Həmin şəxs xanım olduğuna görə adını yazmayacağıq. Ancaq o da Əli Kərimlinin yaxın ətrafında olan simalardandır... Həmin statusun nöqtəsinə, vergülünə toxunmadan veririk:** "People in Need" Avropada İnsan Haqları ilə məşğul olan təşkilatdır. Dünyaca nüfuzlu bu hüquq müdafiə təşkilatının mənzil-qərargahı Çexiyada yerləşir. Bu təşkilatIn harada yerləşməsindən və kimin rəhbərlik etməsindən asılı olmayaraq bu təşkilat çox obyektiv, qərəzsiz, vicdanlı seçilən nüfuzlu ekspertlərdən biridir və belə bir nüfuzlu təşkilatın onu müdafiə etməsi çox təbiidir. Xahiş edirəm mənim də tanıdığım, ən çətin anlarda adamların köməyinə çatan və onlara siyasi, hüquqi və humanitar yardım edən belə bir təşkilatın fəaliyyətinə kölgə salmayın, çünki bizdə insanların mövcud olan avtoritar rejim tərəfindən təqib olunma ehtimali çox böyükdür. Bu təqib, təzyiq və həbslərin qarşısını ala biləcək və biz insanlara yardım edə biləcək çox nüfuzlu təşkilatlardan birini dışlamaq və onun yardımından imtina etmək doğru və düzgün deyil. Bütün hallarda mən bu təşkilatın fəaliyyətini obyektiv, qərəzsiz və uğurlu hesab edirəm. Qüsura baxmayın, fürsətdən istifadə edib mənim Gürcüstanda bir aylıq müalicəmi və bütün xərclərimi öz üzərinə götürən "People in Need" təşkilatına təşəkkürümü bildirirəm!"

Adam deyir ki, mənim müalicəmin xərcini "People in Need" verib, yəni elə bu səbəbdən də onlara ermənipərəst *(əslində erməni)* demək olmaz. Nə yazıq ki, Azərbaycanda məsələlərə bu cür yanaşma sərgiləyənlər az deyil.

***

İndi də "People in Need"i müdafiə edənlər ortaya yeni arqument atıblar. Deyirlər ki, söhbət bu təşkilatın ermənipərəst olub-olmamasından getmir. Boş verib, bunun üstündən keçək. Məcburdurlar. Çünki ortaya qoyduğumuz faktları təkzib etmək mümkün deyil. Təsdiq etmək də istəmirlər. Deyirlər ki, söhbət onyanaşma sərgiləyir hər kəsə. Milli mənsubiyyətindən, irqindən, cinsindən asılı olmayaraq dünyanın istənilən ölkəsində hüquqları pozulan bütün insanların imdadına çatır və yardım edir. İntiqam Əliyev də bir Azərbaycan türkü olaraq beynəlxalq aləmdə sayıdan gedir ki, bu təşkilat öz tədbirində Azərbaycanda olan siyasi məhbus problemini qaldırıb. Bunun üçün stend yaradıb, siyasi məhbusların fotosunu asıb.

Birincisi, Azərbaycanda siyasi məhbuslar var və özü də həddən artıq. Bu, biabırçılıqdır. Bu barədə dəfələrlə yazmışam. Yeri gəlmişkən, ilk gündən Leyla Yunusun və digərlərinin həbsdən dərhal azad edilməsini tələb edənlər arasında mən də varam. Siyasi səbəblərdən həbs edilənlərin arasında xeyli müsavatçının olması da fakt olaraq ortadadır. Müsavat Partiyası da, "Yeni Müsavat" qəzeti də bu məsələyə həmişə həssaslıq göstərib.

Azərbaycanda demokratiya ilə bağlı ciddi problemlərin olması barədə də dəfələrlə yazmışam. Zatən, mən elə bu problemlərdən dolayı 11 ildir İsveçrədə yaşayıram. Və mən hələ də İsveçrədə yaşamaqda davam edirəmsə, deməli, Azərbaycanda demokratiya ilə bağlı vəziyyətdə müsbət bir dəyişiklik olmayıb. Hələ 2000-ci ildə məni polis oğurlayaraq Naxçıvana qaçırıb. Saxta ittihamla məhbəsə atıb. Bu və bu kimi qanunsuzluqlara görə minlərlə soydaşımız ölkəni tərk edib...

Amma... hər parıldayan şeyi qızıl saymaq olmaz. Bu məsələdə önəmli nüans var. O da ondan ibarətdir ki, "People in Need" bu faktı bəhanə gətirir, yəni bu faktın arxasında gizlənərək Dağlıq Qarabağın müstəqil dövlət kimi tədbirdə iştirakını tələb edir. Və belə bir məqamda biz onlara etiraz etməliyik. Şəxsən mən orada olsaydım, belə bir sərsəm təklif irəli sürəni həyata gəlməyinə görə peşman edərdim. Bizim nümayəndə heyəti nədən bu iddiaya kəsərli cavab verməyib? Bunu başa düşmək mənim üçün çətindir. Qərbdə uzun müddət yaşayan birisi kimi hər kəsə demək istəyirəm ki, bu tərəflərdə qulları sevmirlər. Buralarda elə adamları sevirlər ki, onların konkret mövqeyi var. Yəni kimsə durub onlara etiraz etsə, dünya dağılmır. Əksinə, ortaya arqument qoyub etiraz edən adamları yüksək dəyərləndirirlər. Mən bunun dəfələrlə şahidi olmuşam...

Problem ondadır ki, Azərbaycanda hələ də özünü Qərb insanı qarşısında kiçik bilənlər var. Bu, natamamlıq kompleksi deyilən bir bəladır. Xüsusən Qərbin qrantı hesabına dolananlar elə hesab edirlər ki, "Peopel in Need"i müdafiə etmək bunların boynun borcudur, yoxsa pulların kəsərlər. 21-ci əsirdə yaşayırıq, hələ də özünə ağa axtaran qullar var. Özü də demokratiyadan danışa-danışa.

Baxın, ən azı 22 ildir ki, Qərb demokratiyadan dəm vura-vura Azərbaycanda demokratiya uğrunda savaşanlara arxa çevirib. Ən kritik məqamlarda onları satıb. Ağlı başında olan adamlar yaxşı bilir ki, Azərbaycanda nə qədər ki, neft və qaz var, demokratiya olmayacaq. Çünki Qərbə Azərbaycanın nefti, qazı... lazımdır. Demokratiya ilə əlaqəli verilən bəyanatlar isə Azərbaycan iqtidarından, yəni İlham Əliyevdən daha çox şey qoparmaq üçün bir vasitədir...

Qərbin demokratiya nağılına inanan Gürcüstan və Ukraynanın halı göz qabağındadır. Ən yaxşı halda Qərb bizi də o günə qoyacaq. Mən Azərbaycana elə bir gələcək arzulamıram...

# Polkovnikin həbsi ilə bağlı sensasion iddia

**Azərbaycan müdafiə nazirinin keçmiş müavini Mehman Səlimovun gözlənilmədən həbsi ölkə mətbuatının əsas mövzularından birinə çevrilib. M.Səlimov Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaq edilən cinayət işi üzrə Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə, barəsində həbs-qətimkan tədbiri seçilib. 1995-1999-cu illərdə S.Əbiyevin müavini olmuş M. Səlimovun həbsini sabiq müdafiə naziri ilə əlaqələndirənlər çoxdur. Məsələn, bizimyol.info saytı iddia edib ki, S.Əbiyevə ölkədən çıxmaq yasağı qoyulub. Baş Prokurorluq isə sabiq nazir barəsində başqa yerə getməmə haqqında qətimkan tədbiri seçilməsi barədə heç bir məlumat olmadığını bəyan edib.**



## Səfər Əbiyev Milli Şuranın güdazına gedib? - şok

### Sabiq nazir müavininin Milli Şuranın rəhbərlərindən biri ilə təmaslarından sonra barəsində istintaq başlayıbmış və onun ölkədən çıxmasına qadağa qoyulubmuş; Mehman Səlimovun cəlb edildiyi istintaq birbaşa Müdafiə Nazirliyinə aid deyilsə, polkovnikin suçu nə?

Sabiq nazirin yaxın çevrəsinin həbsi 1 ildən çoxdur davam edir, hələ də istintaq altında olan xeyli hərbçi var. Ancaq həbslərin birdən-birə 15 il əvvəl ordudan istefaya göndərilmiş polkovnikə çatması "niyə məhz uzun müddət sonra polkovnik istintaqa cəlb olunub?", "niyə işi Hərbi Prokurorluq deyil, Respublika Prokurorluğu aparır?" kimi haqlı suallar doğurub.

***

Ötən sayımızda özəl mənbəyə istinadən xəbər vermişdik ki, M.Səlimov ətrafında istintaq hərəkətləri bir müddətdir ki, başlayıbmış və onun ölkədən çıxmasına qadağa qoyulubmuş. Bu məsələni araşdırarkən dəqiqləşdirdik ki, M.Səlimov barəsində istintaq 1 ildən çoxdur ki, başlayıbmış və onun ölkədən çıxmasına həqiqətən də qadağa qoyulubmuş. Məhkəmə işini mülki prokurorluq aparırsa, deməli, söhbət də mülki cinayətlərdən gedir. Buradan da aydın olur ki, M. Səlimovun cəlb edildiyi istintaq birbaşa Müdafiə Nazirliyinə aid deyil. Bəs M.Səlimovun suçu nə?

Adının çəkilməsini istəməyən mənbənin "Yeni Müsavat"a verdiyi məlumata görə, M. Səlimov ötənilki prezident seçkiləri ərəfəsi Milli Şura yaradılarkən bu qurumla əlaqələri səbəbindən hakimiyyətin qəzəbinə gəlib. Qaynağımız iddia edir ki, M. Səlimovun Milli Şuranın əsas fiqurantlarından biri ilə **(adını həmin şəxsin təhlükəsizliyi baxımından çəkmirik)** təmasları fiksə edilib. Bundan sonra M. Səlimovun adı "qara siyahıya" salınıb. Hüquq-mühafizə orqanlarının əlində M. Səlimova qarşı konkret ittihamlar olsa da, istisna deyil ki, bu, sabiq nazir müavininit cəzalandırmaq üçün ortaya atılıb.

Mümkündür ki, vəzifədən çıxarıldıqdan sonra da S. Əbiyevlə münasibətlərini davam etdirən M. Səlimovun Milli Şura ilə əlaqələri fiksə edildikdən sonra müdafiə naziri də "şübhəlilər sırasına" düşüb. O da istisna deyil ki, prezident seçkilərindən sonra S. Əbiyevin nazir kimi təsdiqlənməməsi səbəbləri sırasında onun adamının Rusiyanın proyekti kimi tanınan Milli Şura ilə təmaslarının da rolu olub. Yeri gəlmişkən, hələ seçki ərəfəsi belə söz-söhbətlər vardı ki, hakimiyyətdə çox nüfuzlu nazirlərdən biri S. Əbiyevlə görüşərək ona "Rusiyanın Azərbaycanda hakimiyyət dəyişəcək kimi çağırışlarına aldanmamaq" barədə xəbərdarlıq edib. Hər halda, S.Əbiyevin niyə işdən çıxarılması və heç bir vəzifəyə təyinat almaması barədə suallar indi də açıq qalır...

***

M.Səlimovun həbsinin Milli Şura ilə əlaqəli olmasının mümkünlüyünü təsdiq edən daha bir faktı da xatırlatmaq yerinə düşər. Ötən ilin avqustunda Azərbaycanın xarici iqtisadi əlaqələr naziri əvəzi işləmiş Nicat Quliyev həbs edildi. N.Quliyevin həbsindən öncə Milli Şura rəhbərliyi ilə görüşmək istəməsi barədə məlumatlar vardı və sonradan Rüstəm İbrahimbəyov onunla belə bir təmas olduğunu təsdiqləmişdi. Milli Şura sədri demişdi ki, N.Quliyev bir neçə dəfə ona zəng edib. "Ona görə də onun bağına silah, sursat, top-tüfəng atıb türməyə basdılar. Cəmi iki-üç zənginə görə. Özü də bu, siyasətlə bağlı zənglər deyildi. Biz çoxdan tanışıq, elə-belə hal-əhval soruşmaq üçün zəng etmişdi" deyə, R.İbrahimbəyov bildirmişdi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədr Vasif Talıbovun yaxın qohumu olduğu deyilən N.Quliyev Abşeron Rayon Məhkəməsinin hökmü ilə 3 il müddətinə azadlıqdan məhrum olundu və hazırda 17 saylı cəzaçəkmə müəssisəsində saxlanılır...

***

**Şərq-Qərb Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclunun M.Səlimovun həbsinin arxasında hansı faktların dayanması barədə dedikləri də diqqət çəkir. M.Səlimovu yaxşı tanıdığını deyən politoloq bildirib ki, bu həbsin səbəbləri sırasında daxil ədavət xüsusi rol oynayıb. "Mehman Səlimov vaxtı ilə açıq mətnlə mətbuatda Nəcməddin Sadıqova qarşı çıxış edib" deyən, Ə.Orucli onun hansısa iqtisadi cinayətlərdə əli olduğunu təkzib edib:** "Mehman Səlimovu şəxsən tanıyan adam kimi deyə bilərəm ki, onun hansısa biznes sahələrinə sahib olması barədə deyilənlər həqiqətdən uzaqdır".(azxeber.az).

**Hərbi ekspert Üzeyir Cəfərov M.Səlimovun işdən çıxarılmasını Baş Qərargah rəisi Nəcməddin Sadıqov haqqında verdiyi açıqlamalarla əlaqələndirsə də, "Azadlıq" qəzetinə bildirib ki, bu fakt onun üçün də gözlənilməz olub:** "Mehman Səlimov döyüş keçmiş cəsarətli zabit olub. Mən inanmıram ki, onu hərbi fəaliyyətinə görə həbs ediblər. Fikrimcə, Mehman Səlimovun həbsi onun sonrakı fəaliyyəti ilə bağlıdır".

Mövzunu diqqətdə saxlayacağıq.

❑ Xəbər xìdmətì

# Müsavat rəhbərliyini İŞİD-lə müqayisə edən şəxs partiyadan çıxdı

## "Rüfət Əliyev də qabaqlayıcı addım atdı"

**Müsavat Partiyasının Zəngilan rayon təşkilatının sədri Rüfət Əliyev partiyadan istefa verib. Bu barədə APA-ya R. Əliyev özü məlumat verib. O, istefasının səbəbini partiyada yaranmış vəziyyət və başqan Arif Hacılının verdiyi qərarlarla əlaqələndirib: "Hikmət Hacızadənin olmadığı yerdə mən necə qala bilərəm? Bezmişəm artıq. Müsavatı Arif Hacılıya qurban verdilər".**

**Müsavat başqanının müavini Gülağa Aslanlı Rüfət Əliyevin** partiyadan istefasına münasibət bildirdi: "Müsavat Partiyasına daxil olma və xaric olma hər kəsin öz arzusu ilədir. Amma kiminsə Müsavat Partiyasından gedəndə bəhanələr axtarması və kimlərisə təhqir eləmək cəhdi nəinki müsavatçıya, ümumiyyətlə, insana yaraşan hərəkət deyil".

**Müsavat Partiyası başqanının müavini Nüşabə Sadıqlı da Rüfət Əliyevin istefasına münasibət bildirib. N. Sadıqlı APA-ya açıqlamasında deyib ki, R. Əliyev Müsavat rəhbərliyini İŞİD terror təşkilatına bənzədib:** "O demişdi ki, Müsavat rəhbərliyində təmsil olunan insanlar İŞİD-in tərəfdarlarından pisdir. Bu cür adamdan istefadan başqa daha nə gözləmək olar ki? Müsavat Partiyasının rəhbərliyini İŞİD-lə müqayisə edən adamın özünü müsavatçı adlandırmağı düzgün deyildi. Ancaq yenə də mən buna təəssüflənirəm. O bildirir ki, Hikmət Hacızadənin olmadığı partiyada qalmaq istəmir. Hikmət Hacızadəni kimsə Müsavatdan çıxarmayıb. O, öz ərizəsi ilə istefa verib".

Müsavat Partiyasının Divan üzvü Nemət Kərimli də Rüfət Əliyevin istefasına münasibət bildirib.

**O, aznews.az-a açıqlamasında vurğulayıb ki, Rüfət Əliyev istefa verərkən partiya üzvlərini təhqir edib:** "Divanın son iclasında qərar var idi ki, Zəngilan rayon təşkilatının genişləndirilmiş şurası keçirilsin və onun fəaliyyəti müzakirə edilsin. Rüfət Əliyev də qabaqlayıcı addım atdı".

❑ E.SEYİDAĞA

# Qürur duyan ...pərəstlər



Samir SARI

**Belə lap BMT ermənipərəst təşkilatdır. Kimin etirazı var? Kim inanmırsa, gəlsin, oxuduğum kitabların bir neçəsinə, eləcə də bu təşkilatın ermənilər tərəfindən qoz yerinə qoyulmayan 4 qətnaməsinə əl basım, and içim. Ermənipərəst olmayan təşkilat indiyəcən öz qətnamələrini icra etdirərdiE**

ATƏT-in Minsk Qrupunun ermənipərəst olmasına kimin sözü var? Bal kimi ermənipərəstdirlər. Son 20 ildə həmsədrlərin yediyi işxan (forel) balığını Böyük Şor gölü boyda bir gölə buraxsaydılar, indi o göldə qızılbalıq qaynaşırdı, İrəvanda içdikləri zavod tut arağını "Azpetrol"un yanacaqdaşıyan maşınlarının sisterni tutmazdı. Amma belə görünür ki, işxan kababı bizim kürüdən, nərə balığının kababından dadlıdır, təsirlidir. Nədən ki, həmsədrlər əzəl gündən ermənilərin tərəfində durublar və dururlar. Hələ indi-indi amerikalı həmsədr Ceyms Uorlik bizim pitiyə dadanıb, amma onun da əlindən bir iş gəlmir, eləcə "Tvitter"də status yazır. Bəs ona Azərbaycanpərəst demək olarmı? Hələ olmaz. İndilikdə cənab Uorlik pitipərəst və gəbəpərəstdir, gələcəkdə baxarıq.

Amma onun və səfir Morninqstarın sələfi Metyu Brayza vardı, bax, o gerçək Azərbaycanpərəst idi. Sağ olsun, hələ də hərdən xeyrimizə danışır, söz-sözü gətirəndə, ehtiyac olanda qabağa çıxır, deyir ki, Azərbaycan tərəfi haqlıdır. Ağdamda vurulan helikopter məsələsində də cənab Brayza ortaya mərdi-mərdanə mövqe qoydu, dedi, təmas xəttini keçən helikopterin vurulması təbiidir.

Qədim Azərbaycanpərəst Stenli Eskuderodan isə səs çıxmadı. Neçə vaxtdır, sabiq səfir ümumiyyətlə ortalıqda görünmür. Heç onu da bilmirik ki, Eskuderonun Nardaran tərəflərdəki layihəsi başa gəldimi, gəlmədimi. Orda mübahisəli məsələ vardı. Kənd camaatı nəzərə almırdı ki, kişi gerçək bir Azərbaycanpərəstdir, ona beş-altı hektar torpaq vermək lazımdır. O da, kim bilir, bəlkə elə bu xoşagəlməz davranış üzündən Azərbaycanpərəstliyinə son qoyaraq ölkəmizdən küsüb gedib. Bəlkə də yenə ölkədədir, amma artıq o dərəcədə Azərbaycanpərəst deyil. Ya da biznesinə pəl vurulub deyə ser çönüb ermənipərəst olub, nə biləsən.

NATO-nun ermənipərəst olması haqqında əlimizdə səhih məlumatlar yoxdur, yoxsa yazardım.

Eyni şeyi AŞPA haqqında demək olmaz. Arada ordakı qətnamələr-filanlar, gündəliyə salınan məsələlər xoşumuza gəlməyən kimi Səməd Seyidov başda olmaqla digər iqtidar deputatları "ermənipərəst" möhürünü qoyurlar AŞPA-nın belinə. Bir dəfə hətta deputat Rəfael Hüseynov hörmətli həmməruzəçi Andreas Qrossu ermənipərəst çıxarmışdı, hətta onun barəsində "Andreas içində Andronik" başlıqlı bir yazı da yazmışdı. Amma hər kəs bilirdi ki, yazıq Qross nəinki ermənipərəst deyildi, hətta Azərbaycanpərəst idi.

Bununla belə, Avropada ermənipərəst təşkilatlar çoxdur və onlar bunu nəinki danmırlar, hətta qürur duyurlar, bu barədə orda-burda fəxrlə danışırlar.

Bir dəfə biz, məşhur ifadə ilə desək, Amerikada olanda Cənubi Karolina ştatının parlamentinin xarizmatik görünüşlü bir deputatı ilə görüşürdük. Adam danışığıyla, hazırlığı ilə bizi mat qoymuşdu. Söhbət dərinləşirdi, birdən o deputatın başı nə təhər çöndüsə, durub bizə ermənipərəst olmasından danışdı (deyəsən, bizi ermənilərlə səhv salmışdı), dedi, siz bilmirsiniz, biz burda "erməni genosidi" haqqında qətnamə qəbul etdirmək üçün nə qədər çalışırıq, daima Ermənistanın haqq işinin yanındayıq. Belə olanda bizim də başımız çöndü, dedik, ser, buracan yaxşı gəlmişdin, amma burda qatıqladın (məhz belə dedik, vallahi). Tərcüməçilərmiz köməkləşərək bu ifadəni ingiliscəyə necə çevirdilər, hansı yaradıcılıq fəndləri işlətdilər, bilmirəm, amma cənab deputat pərt oldu və üzr istədi. Amma ta gec idi. Deputat gedəndən sonra təşkilatçılara gileyləndik ki, bu ermənipərəst deputatı hardan tapıb gətirmisiz. Onlardan biri təxminən dedi ki, ermənipərəst olanda, nə olarE Heç zad.

Sözümün canı odur ki, "pərəst" o qədər pis şəkilçi deyil, çox sevməyi nəzərdə tutur. Məsələn şöhrəti çox sevən adama "şöhrətpərəst" deyirlər, el dilində desək, baz adamları "şəhvətpərəst" adlandırırlar və s. Erməniləri çox istəyənlərə də "ermənipərəst" demək normaldır. Ona görə də bəziləri bu sözü nədən ana-bacı söyüşü kimi alqışlayıb, arı yuvasına çubuq uzatdılar, bilmirəm.



# Bizi hansı sınaqlar gözləyir?

Hüseynbala SƏLİMOV

**Bugünlərdə vurulmuş erməni helikopterinə maraq daxildə də, xaricdə də gözləniləndən olduqca çox oldu. Daxili marağı başa düşmək olardı. İnsanlar qələbə bir tərəfə, çox kiçik hərbi üstünlüyün də həsrətindədirlər...**

Amma xarici maraq bir qədər qəliz məsələdir. Neçə dəfə bəyanatlarını dəyişdilər, neçə də hadisəyə münasibətlərini cilaladılar! Bu Qarabağ prosesini lap əvvəlindən izləyən adam kimi deyə bilərəm ki, həmişə Azərbaycanın hərbə əl atmasından, üstün ola biləcəyindən ehtiyatlanıblar...

Hamı deyir, biz də deyirik ki, Qarabağ problemi Rusiya bir imperiya kimi çökəndən sonra həll olunacaq. Amma baxıb görürsən ki, elə bu da bir qədər tələsik nəticədir. Ermənilərin başqa havadarları da az deyil...

Bu yaxınlarda bir rus müəllifinin yazısını oxudum. Yazırdı ki, dünya hökumətlərinin üçdən biri ermənilərin nəzarətindədir. Bunu yazmasalar da, deməsələr də duymaq elə də çətin iş deyil. Nə ABŞ, nə də Fransa Rusiyadan heç də az ermənipərəst deyil...

Ona görə də bizi hələ çox sınaqlar gözləyir. Hələ çox sular axmalı, çox küləklər əsməlidir ki, bu ölkənin düçar olduğu problemdən çıxması üçün azacıq olsa da işıq ucu görünsün...

Ən qorxulusu odur ki, indiki üstünlüyümüz müvəqqəti də ola bilər. İndi ölkənin neftdən asılılığı daha çox hiss olunur. Hökumət təmsilçiləri deyir ki, Azərbaycanın ehtiyatları dünya bazarındakı konyunkturadan asılı olmamaq üçün yetərincədir. Amma bu, nə vaxta qədər davam edə bilər? Ölkənin valyuta ehtiyatları büdcəni uzağı iki-üç il təmin etmək iqtidarındandır...

Düzdür, indi büdcədə hərb məsələlərinə xüsusi diqqət yetirilir. Amma bir ciddi məsələ var. Biz peşəkar ordudan çox danışırıq. Amma "peşəkar" sözünü daha çox bacarıqlı, müasir mənada işlədirik...

Fəqət, peşəkar, müqavilə əsasında fəaliyyət göstərən ordu tamam başqa bir məsələdir. Azərbaycanda vuruşmaq istəyən varmı? Orduda fəaliyyət göstərmək istəyən varmı? Var. Əgər olmasaydı azərbaycanlıların sorağı əvvəl Çeçenistandan və sonra da Suriyadan gəlməzdi...

Elə insanlar var ki, onlar daha çox hərbi xidməti bacarırlar. Niyə görə bizim ölkəmiz bu nüansı nəzərə almasın?..

Biz də razıyıq ki, indiki dövrdə Azərbaycan ordusunu peşəkar orduya çevirmək olduqca çətindir, buna vəsait çatmaz. Amma heç olmasa, qismən peşəkar ordu yaratmaq, bu məqsədlə də müqavilə əsasında fəaliyyət göstərən xüsusi hərbi hissələr formalaşdırmaq olardı...

Potensial yetərincədir. Biz Suriyaya və başqa ölkələrə döyüşmək üçün yollananlara yalnız məhv edilməli bir subyektlər kimi baxırıq. Amma onların bu potensialından istifadə etmək də pis olmazdı...

Bir daha deyirik ki, hər adam bir işi bacarır. Adamlar da var ki, onlar yalnız vuruşmaq, döyüşmək üçün yaranıblar, bu işi bacarır və sevirlər. Onlar anadangəlmə hərbçilər və döyüşçülərdir. Millətin bu potensialından niyə görə istifadə edilməsin?

Neft də bir gün qurtaracaq, qaz da, çünki onlar bərpa olunan mənbələr deyillər, tükənirlər. Ona görə də bu gün bizdən soruşsalar ki, bəs "Neftdən siz azərbaycanlılara nə qaldı?", bu suala cavab verməyə çətinlik çəkərik...

Nə deyə bilərik axı? Deyək ki, bir-iki bina tikildi, iki-üç körpü salındı? Axı bu olduqca azdır...

İnsana da kapital qoymaq lazımdır. Yaxşı hərbçi istəyirsənsə, bu işə pul qoymalısan... Yaxşı kadr istəyirsənsə, bu işə pul xərcləməlisən... Bu günlərdə kadrların səviyyəsindən narazılıq ifadə olundu. Özü də rəsmi səviyyədə. Amma sual yaranır. Siz nə vaxt yeni kadrların hazırlanmasını konsepsiyaya və ya proqrama çevirdiniz ki, indi də narazılıq edirsiniz?

Gürcüstanda dövlət işində çalışanların əksəriyyəti Qərbdə təhsil alanlardır. Gəl, bizdə bu məsələyə necə baxırlar? Gəncləri ABŞ-a və Qərbə oxumağa göndərmirlər ki, oradakıların təsiri altına düşərlər. Bəs "oradakılar" kimdir? Təbii ki, demokratlar. Bəli, bunlar demokratiyadan qorxan kimi heç nədən qorxmurlar...

Ona görə də bu hakimiyyət Tanrının bizə bəxş etdiyi bütün üstünlükləri göyə sovurdu, küləyə verdi. Amma hələ bizi qarşıda o qədər sınaqlar gözləyir ki!..

Əvvəlcə özümüz üçün bir mif yaratdıq. Dedik ki, Azərbaycan iqtisadi üstünlüyə çatandan sonra Qarabağ problemi həll olunacaq. Amma olmadı. İndi də gözümüzü Rusiyaya dikmişik, gözləyirik ki, görək, bu imperiya nə vaxt çökəcək? Amma unuduruq ki, ermənilərin havadarlarının sayı gündən-günə artır, dünya az qala onların nəzarətinə keçir...

# "AMİP 2015 seçkilərində real partiyalarla əməkdaşlıq edəcək"

## Arzuxan Əlizadə: "Parlament seçkiləri növbəti 5 il üçün ölkə həyatında çox ciddi dəyişikliklərə səbəb ola bilər"

**Azərbaycan Milli İstiqlal Partiyası bələdiyyə seçkilərində partiya olaraq iştirak etmir, ancaq çoxlu sayda partiya üzvləri fərdi şəkildə namizədliklərini irəli sürüblər. Bu barədə AMİP baş katibi Arzuxan Əlizadə "Yeni Müsavat"a açıqlamasında bildirib. Bələdiyyə seçkilərində bütün müxalifət partiyalarının iştirakının zəif göründüyünü qeyd edən A.Əlizadə bunun da müxtəlif səbəblərinin olduğunu dedi:**

"Azərbaycan cəmiyyətində bələdiyyələrin statusu, idarəçilikdə yeri çox aşağıdır. Ona görə də bələdiyyələrə etimadı çox aşağı salır. Siyasi partiyalar da təəssüflər olsun ki, bundan çıxış edərək bələdiyyə seçkilərinə maraq göstərmirlər.

AMİP də digər müxalifət partiyaları kimi 23 dekabr bələdiyyə seçkilərində partiya şəklində iştirak etməmək qərarı verdi və üzvlərinə sərbəstlik verdi. Partiya şəklində seçkiyə qatılmaq üçün çox mürəkkəb prosedurlar nəzərdə tutulur. Bu səbəbdən hesab etdik ki, seçkilərə partiya şəklində qatılmayaq, partiya üzvləri fərdi şəkildə seçkidə iştirak etsin. Açığını deyim ki, partiya üzvlərinin yerlərdə bələdiyyə seçkilərində iştirakla bağlı həvəsi yox idi. Bu həm də seçkilərin demokratik keçiriləcəyinə inamsızlıqla bağlıdır. Çox az sayda partiya üzvləri seçkilərdə iştirakda həvəsli görünürdülər. Ancaq yekun olaraq əksər bələdiyyələrə AMİP üzvlərindən namizədliyini irəli sürənlər var. Yerlərdən aldığımız məlumatlar bunu deməyə əsas yardır. Noyabrın 22-də namizədliyin irəli sürülməsi rəsmən başa çatıb. Hazırda namizədlərin qeydiyyatı prosesi gedir. Namizədlərin qeydiyyatı başa çatdıqdan sonra dəqiqləşdiriləcək ki, AMİP-in neçə üzvünün namizədliyi qeydə alınıb. Biz həmin rəqəmləri ictimaiyyətə açıqlayacağıq. İndiyə qədər qeydə alınan AMİP üzvləri var".



**A.Əlizadə 2015-ci il parlament seçkilərinin məsuliyyətli müxalifət partiyalarının əməkdaşlığı üçün yaxşı imkan olduğundan danışdı və bildirdi ki, AMİP əməkdaşlıq istiqamətində addımlar atacaq:** "2015-ci il parlament seçkiləri növbəti 5 il üçün ölkə həyatında çox ciddi dəyişikliklərə səbəb ola biləcək seçkilərdir. Bu səbəbdən də mən hesab edirəm ki, ölkədə siyasi həyata təsir etmək gücündə olan bütün siyasi təşkilatların vəzifə borcudur ki, seçkilər öncəsi ölkədə normal demokratik seçki mühitinin yaradılması üçün birgə fəaliyyət göstərsinlər. İlk növbədə ölkədə normal demokratik seçki mühitinin yaradılması üçün siyasi partiyalar birlikdə hərəkət etməlidir, bu istiqamətdə birlik də yaradılması vacibdir. Ölkənin gələcəyi üçün məsuliyyət daşıyanlar bunu özlərinin borcu hesab etməlidirlər. Bu mənada AMİP də 2015-ci ildə ölkədə fəaliyyət göstərən və siyasi həyata təsir edə bilən bütün müxalifət təşkilatları ilə əməkdaşlıq qurmaq istiqamətində fəaliyyətə başlayacaq. Ümid edirəm ki, bu əməkdaşlıq yüksək səviyyədə reallaşacaq. Belə bir əməkdaşlığın parlament seçkilərində vahid blok şəklində iştirakla nəticələnib-nəticələnməyəcəyi isə sonrakı mərhələnin məsələsidir. Şəxsən mən hesab edirəm ki, bu məsələdə də uğura imza atmaq mümkün olacaq. Parlament seçkilərində birgə iştirakla bağlı AMİP məsuliyyətli siyasi təşkilatlarla birlikdə addımlar atacaq və məndə bunun uğur qazanacağına inam var".

**A.Əlizadə onu da dedi ki, AMİP-in fəaliyyətinə ən ciddi problem mərkəzi qərargahın olmamasıdır:** "2001-ci ildə Milli İstiqlal Partiyasının mərkəzi qərargahı əlindən alındı. Əvəzində bir neçə yararsız yerlər təklif olundu. Sonra isə heç bir yer təklif olunmayıb. Partiya bir neçə dəfə müvafiq dövlət orqanlarına qərargah ayrılması üçün müraciət edib. Ancaq nəticə yoxdur. Ona görə də artıq AMİP 2001-ci ildən Nəsimi rayon təşkilatımızın qərargahında yerləşir. Rəhbərlik, partiyanın aparatı orada oturur. Daha çox partiya üzvlərini əhatə eləməyən toplantılarımız burada keçirilir. Ancaq partiyanın ayrıca mərkəzi qərargahının yoxluğu çox ciddi problemlər yaradır. Məsələn, Mərkəzi Şuranın 3 aydan bir keçirilməli olan iclaslarını Nəsimi rayon təşkilatının ofisində keçirmək mümkün deyil. Ona görə də biz hər dəfə müxtəlif ünvanlarda böyük zal kirayəyə götürməli oluruq. Kirayə götürülən yerlərdə vaxt məhdudiyyəti olur. Eyni zamanda partiya hər dəfə maliyyə itkisi ilə qarşılaşmalı olur. Bəzən isə KXCP-nin, ADP-nin, VHP-nin qərargahında toplantılarımızı keçirmişik. Belə bir durum partiyanın fəaliyyətinə ciddi təsir göstərir".

❑ Etibar SEYİDAĞA

# Sülhəddin Əkbərin partiyasını qeydə almırlar

**Ədliyyə Nazirliyi Sülhəddin Əkbərin yeni yaratdığı və sədri olduğu Azad Demokratlar Partiyasını qeydiyyata almaqdan imtina edib. Qurultaydan sonra partiyanın sənədləri qeydiyyata alınmaq üçün Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinə təqdim edilsə də müxtəlif səbəblər göstərilməklə qeydiyyatdan imtina edilib.**



**Sülhəddin Əkbərin** verdiyi məlumata görə, Ədliyyə Nazirliyi düz üç dəfə partiyanı qeydiyyata almaqdan imtina edib: "Ədliyyə Nazirliyi sənədləri üçüncü dəfə nə üçün geri qaytarmağını izah etməyib. Sənədləri ikinci dəfə geri qaytaran zaman çatışmazlıqları göstərmişdilər. Biz də göstərilən nöqsanları aradan qaldıraraq, yenidən nazirliyə təqdim etdik. Müvafiq qanuna görə, nöqsanlar aradan qaldırılıb nazirliyə təqdim edildikdən 10 gün sonra partiyaya qeydiyyat şəhadətnaməsi verilməlidir. Özü də bu, imperativ qaydada göstərilir. Ancaq təəssüflər olsun ki, Ədliyyə Nazirliyi Nizamnamədə hansısa çatışmazlığı əsas götürərək sənədlərimizi geri qaytarıb".

**AzDP sədri bildirdi ki, qanunu pozduğu və Azad Demokratlar Partiyasını qeydiyyata almadığı üçün Ədliyyə Nazirliyinə qarşı məhkəmə iddiası qaldıracaq:** "Yəqin ki, yaxın günlərdə məhkəməyə müraciət edəcəyik. Partiyanın hüquqlarını tanınmış vəkil Fuad Ağayev müdafiə edəcək".

Qeyd edək ki, Sülhəddin Əkbər Açıq Cəmiyyət Partiyasından ayrıldıqdan sonra Azad Demokratlar Partiyasını yaradıb. Partiya müxalifət cinahında təmsil olunur.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 290 (5999) 27 noyabr 2014

# Müsavat BŞİH-ə müraciət etdi

## Gülağa Aslanlı: "Təbii ki, mitinqin kütləviliyinə təsir edən bir sıra səbəblər var və həmin səbəblər mitinq qərarı verilərkən müzakirə olunub"

**Müsavat Partiyası Beynəlxalq İnsan Haqları Günü ilə bağlı dekabrın 14-nə saat 15-ə mitinq təyin edib. Müsavat mitinqini Yasamal rayonu, "Məhsul" stadionunda keçirmək üçün Bakı Şəhər İcra Hakimiyyətinə (BŞİH) dünən rəsmi məktubla müraciət edib. Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlının "Yeni Müsavat"a verdiyi məlumata görə, mitinqdə siyasi məhbusların azad olunma tələbi irəli sürüləcək.**

Qeyd edək ki, ADP, AXP və Ümid Partiyasının liderləri Müsavatdan müraciət olacağı halda 14 dekabr aksiyasında iştirak edəcəklərini bildiriblər. G.Aslanlı isə qeyd etdi ki, partiyalara müraciət etmək barədə hələlik Müsavatın qərarı yoxdur: "Məsələ burasındadır ki, insan haqları məsələsi heç bir partiyanın monopolyasında ola bilməz. Ona görə də hansı partiyalar bu mitinqə dəstək verəcəklərsə, bizim tərəfimizdən müsbət qarşılanacaq".

G.Aslanlı 10 dekabr Beynəlxalq İnsan Haqları Günü münasibətilə mitinqin 14 dekabra təyin edilməsinin dekabrın 10-nun iş günü olması ilə əlaqədar olduğunu söylədi.

**"Müsavat Partiyası xeyli müddətdir təklikdə mitinq keçirmir. Azərbaycan cəmiyyətində isə hazırda mitinq əhval-ruhiyyəsi hiss edilmir. Dekabr ayının 14-də havanın da kəskin olması ehtimalı var. Müsavat Divanı mitinq qərarı verərkən bu və digər halları götür-qoy edibmi" sualına başqan müavini belə cavab verdi:** "Təbii ki, mitinqin kütləviliyinə təsir edən bir sıra səbəblər var və həmin səbəblər



Gülağa Aslanlı

mitinq qərarı verilərkən müzakirə olunub. Amma beynəlxalq insan haqları günü önəmli gün olduğu, eyni zamanda bələdiyyə seçkilərinə çox az qaldığı üçün belə bir mitinqin keçirilməsinə ehtiyac olduğu qərarına gəlinib. Kütləvilik baxımından isə dediyiniz amillərin olduğu bir vaxtda 3 min nəfərin meydana toplaşmasının özü ciddi hadisə olacaq. Dünyada kütləvi aksiyalarda insanların sayına o qədər önəm verilmir. Hətta 200 nəfərlik mitinqi nüfuzlu telekanallar yayır. Avropada hətta 200 nəfər etiraz aksiyasına çıxırsa, bu, ölkədə etiraz aksiyası kimi qəbul olunur. Amma Azərbaycan hakimiyyəti mitinqlərdə qaldırılan məsələni yox, insanların sayını həmişə qabartmağa çalışır. Bu da Azərbaycan insanına psixoloji olaraq təsir edən faktordur. Biz insan haqları, siyasi məhbusların məsələsini gündəmə mitinq keçirməklə gətirmək istəyirik".

**"Müsavatda qurultaydan sonra müəyyən proseslər yaşandı, müəyyən narazı insanlar var. Bu amilin Müsavatın keçirəcəyi mitinqə mənfi təsiri ola bilərmi" sualını isə G.Aslanlı belə cavablandırdı:** "Mən güman eləmirəm. Çünki hər halda, narazılar da Müsavatdaxili seçkinin nəticələrinə və digər daxili məsələlərə görə narazılıq edirlər. Amma onlar daim Müsavat ideyalarına sadiq qaldıqlarını, Müsavatın maraqlarını nəzərə aldıqlarını söyləyirlər. Odur ki, mən hesab edirəm ki, siyasi məhbuslar məsələsində fikir ayrılığı yoxdur. Onlar da siyasi məhbusların azadlığını istəyirlər. Ona görə də inanıram ki, onlar da bir müsavatçı kimi mitinqin keçirilməsində iştirak edəcəklər, özləri də iştirak edəcəklər".

Qeyd edək ki, daha öncə Milli Şura iki dəfə "Məhsul" stadionunda Bakı meriyası ilə razılaşdırılmış mitinq keçirib. Müsavat Partiyası həmin mitinqlərə könüllü qatılsa da, Milli Şura rəhbərliyi tərəfindən laqeyd münasibət göstərilib.

**Dünən AXCP sədrinin müavini Fuad Qəhrəmanlı azvision.az-a deyib ki, AXCP Müsavatın keçirəcəyi mitinqə qatılmayacaq. O qeyd edib ki, cəbhəçilərin Müsavatın mitinqində iştirak etməsi ümumiyyətlə müzakirə mövzusu deyil:** "Bu məsələ partiyamızda müzakirə olunmur. Hər kəsin nəticə çıxarmaq imkanını özünə saxlayıram".

**Gülağa Aslanlı isə bildirdi ki, hər halda, bu, Fuad Qəhrəmanlının şəxsi fikridir:** "Bu, hələ AXCP-nin qərarı deyil. Ona görə də şəxs olaraq Fuad Qəhrəmanlı iştirak eləməyə bilər. Hər kəsin fikrinə də hörmətlə yanaşırıq".

❑ E.SEYİDAĞA

# Azərbaycana zərbə vuracaq ölümlər



Azər RƏŞİDOĞLU

**Leyla Yunusun qapısını döyənlər çox olub. Mülkiyyət və vətəndaş hüququ pozulan adi vətəndaşdan tutmuş, siyasi məhbus ailələrinin üzvlərinə qədər hər kəs şəstlə hüquq müdafiəçisinin qapısını taqqıldadıb və dərdini danışıb.**

L.Yunusun qapısını hüquq-mühafizə orqanları işçiləri də zaman-zaman döyüblər. Lakin prinsipial hüquq müdafiəçisi öz prinsiplərindən bir addım da geri çəkilməyib.

Bu gün də L.Yunusun qapısı döyülür. Bu dəfə Y.Yunusun qapısını ölüm döyməyə başlayıb. Hüquq müdafiəçisinin özü, yaxınları və vəkili həyəcan təbili çalır. Bir neçə ağır xəstəlikdən əziyyət çəkən Leyla xanımın müalicəsi düzgün aparılmazsa və onun barəsində həbs-qətimkan tədbiri dəyişdirilməzsə, o, vəfat edə bilər.

L.Yunus sıradan bir nəfər deyil. Onun həyatı faciəli sonluqla başa çatarsa, bu, Azərbaycan üçün kifayət qədər ciddi problemlər yarada bilər. Bu barədə Azərbaycan hakimiyyəti ciddi şəkildə düşünməlidir. L.Yunusun barəsində həbs-qətimkan tədbirinin dəyişdirilməsini gecikdirmək olmaz. Azərbaycanın beynəlxalq imicinə elə zərbələr dəyə bilər ki, sonradan atılacaq hər hansı bir addımla onun fəsadlarını təmizləmək mümkün olmaya bilər.

Azərbaycanda siyasi məhbusların həbsxanada vəfat etməsi hallarına rast gəlinib. Bunlar ölkənin maraqlarına ciddi zərbələr endirib. Lakin onların heç biri L.Yunus ranqında olmayıb. L.Yunusun həbsi demək olar ki, bütün beynəlxalq təşkilatların diqqətlə izlədiyi bir prosesə çevrilib. Fransa prezidentindən tutmuş, ən nüfuzlu simalar L.Yunusa qarşı təqiblərə son qoymağı tələb edib.

Hamı həyəcanla bəyan edir ki, L.Yunus həbsxanada vəfat edərsə, bütün məsuliyyət hakimiyyətin üzərinə düşəcək.

İqtidar hələ də tənqidçi jurnalist Elmar Hüseynovun qətlinin üstünün açılmamasının ləkəsindən təmizlənə bilmir. Əgər, L.Yunus zindanda vəfat edərsə, rəsmi Bakı elə zərbələr ala bilər ki, E.Hüseynovun qətli baş verənlərin yanında sıradan bir hadisə ola bilər.

Bu gün həbsdə olan digər hüquq müdafiəçisi, Azərbaycanın ən layiqli ziyalılarından olan İntiqam Əliyevin də səhhətində ciddi problemlər var. Eyni vəziyyətdə L.Yunusun həyat yoldaşı, politoloq Arif Yunusdur.

Hər üç tanınmış sima həbsxanada dünyalarını dəyişərsə, artıq rəsmi Bakının bütün demokratik dünya ilə əlaqəsini kəsməkdən başqa yolu qalmaya bilər.

Hər üç şəxsin heç olmasa ev dustaqlığına buraxılmasından iqtidar yalnız qazana bilər. Hətta ən amansız hakimiyyətlər də belə həssas məqamlarda rəqiblərinə qarşı münasibətlərini yumşaldıblar. Qəddarlıq müəyyən zaman kəsiyində effekt verə bilər, "barıtı çox edildikdə" isə təlatümlər yaranır.

Həbsxanada səhhətindəki ağır problemlərlə baş-başa qalan daha bir nəfər veteran jurnalist Rauf Mirqədirovdur. Azərbaycanın mövqelərini daima müdafiə edən, yerli və beynəlxalq mükafatların böyük əksəriyyətinin sahibi olan nüfuzlu jurnalistin səhhətindəki problemlər böyük faciələr törədə bilər.

Bir sözlə, Azərbaycanın beynəlxalq imici təhlükədədir. Ən azı 4 nəfər tanınmış siyasi məhbusun həyatı müzakirə predmetidir. Onların həbsdən azad edilməsi digər siyasi məhbusların durumuna da müsbət təsir göstərə bilərdi.

Vəziyyət düşündüyümüzdən də ağırdır. Bu dəfə söhbət yalnız siyasi məhbusların həyatından deyil, eyni zamanda ölkənin gələcəyindən gedir. Məntiq, təhlil onu deməyə əsas verir ki, hakimiyyət siyasi məhbus problemini tezliklə həll etməlidir. Ən azı adıçəkilən simalar barəsində həbs-qətimkan tədbiri dəyişdirilməlidir...

# İkram İsrafilin oğluna təzyiq edilir



İkram İsrafil

**Müsavat Partiyası partiyanın gənc fəalı İsrayıl İsrafilə qarşı təzyiqlərlə bağlı etiraz bəyanatı yayıb. Bəyanatda deyilir ki, Müsavat Partiyasının fəal üzvlərinə qarşı həbs təhlükəsi, təqib və təhdidlər davam etməkdədir. Müsavat Partiyasının başqan müavinləri Tofiq Yaqublu, Yadigar Sadıqov, Fərəc Kərimli və Sirac Kərimli qardaşlarının qanunsuz həbsindən sonra indi də partiyanın mətbuat xidmətinin əməkdaşı, gənc fəal İsrayıl İsrafilə və ailəsinə qarşı təhdidlər davam etməkdədir.**

Bəyanatda İsrayıl İsrafilin Müsavat Partiyasında və sosial şəbəkələrdəki aktiv fəaliyyətinə, 2013-cü il prezident seçkilərində Cəmil Həsənlinin təbliğatındakı fəallığına görə dəfələrlə təqib və təhdid olunduğu, NİDA-çı gənclərin məhkəməsindəki etiraz aksiyasında saxlanılaraq Nəsimi Rayon Polis İdarəsinə aparılıb, təhqir olunması və döyülməsi, siyasi fəaliyyətindən əl çəkməyəcəyi təqdirdə həbs olunacağı barədə təhdid edilməsi xatırladılır. Sonra qeyd edilir ki, İsrayıl İsrafil müsavatçı olduğuna görə oxuduğu universitetdə də təqib olunub, imtahana buraxılmayıb. Bu gün də İsrayıl İsrafilə qarşı təqib və təhlükə davam etməkdədir.

Bəyanatın sonunda Müsavat Partiyası gənc fəal İsrayıl İsrafilə qarşı təqiblərə son qoyulmasını tələb edib.

Qeyd edək ki, İsrayıl İsrafil Müsavat Partiyası Məclisinin və Divanının üzvü, sabiq millət vəkili İkram İsrafilin oğludur.

❑ E.SEYİDAĞA

# Səlim Balayev "Azadlıq" qəzetində işləyib?

**Noyabrın 20-də Gürcüstanın Batumi şəhərində Avropa Birliyi Şərq Tərəfdaşlığı proqramının təşkilatçılığı ilə keçirilən Vətəndaş Cəmiyyəti Forumunda yaşanan qalmaqalın əks-sədası davam etməkdədir. Forumdakı qalmaqalda əsas hay-küy yaradan "Yeni Azərbaycan" qəzetinin əməkdaşı Səlim Balayevlə bağlı isə maraqlı faktlar ortaya çıxıb. Onun kimliyi barədə araşdırma aparanda məlum olub ki, S.Balayev vaxtilə "Azadlıq" qəzetində çalışıb.**

Qeyd edək ki, Batumidə keçirilən forumda Çexiyanın "People in Need" təşkilatının Azərbaycanla bağlı asdığı tənqidi plakatı məhz S.Balayev müsadirə edib. Plakatlarda insan haqları ilə bağlı vəziyyət tənqid edilib, plakatlardan birində isə Azərbaycan prezidenti təhqir olunub. O, üzərində Azərbaycan prezidentinin fotosu olan plakatı qoparıb, çexlər isə polisə müraciət ediblər. Həmçinin çexlər polisə şikayət ediblər ki, azərbaycanlılar onları vurub.



Səlim Balayev

Hadisələrin əsas iştirakçılarından olan Səlim Balayev illər öncə "Azadlıq" qəzetinin əməkdaşı olub. Onun Gündüz Tahirli və Rövşən Hacıyevin vaxtında qəzetdə işlədiyi bildirilir. Həmçinin bildirilir ki, S.Balayev siyasət şöbəsinin işçisi olub. Onun qalmaqallı şəkildə "Azadlıq"dan qovulduğu da bildirilir.

Hazırda S.Balayev "Yeni Azərbaycan" qəzetinin kommersiya üzrə direktorudur. O, səkkiz ildir ki, bu qəzetdə çalışır.

❑ ARZU

YENİ MÜSAVAT
N 290 (5999) 27 noyabr 2014



# Yaralı ceyran

Zamin HACI
zaminhaci@gmail.com

**2015-ci il Avropa Oyunlarının Bakıda keçirilməsinə çox böyük sevinclə hazırlaşırıq. Misal üçün, dünən qazımız kəsilmişdi, soyuqdan donurduq, çıxıb evin ətrafında marafon qaçdıq. 39-cu kilometrə çataçatda qonşulardan biri dedi ki, 39-cu paraleldə yerləşən respublikamıza qarşı ədalətsizliyə dünya birliyi nə üçün dözür, bilən varmıdır?**

Çox yaxşı sual idi. Hələ də o sualın təsiri altındayam, baxmayaraq ki, təsir altına hələm-hələm düşən deyiləm.

Bundan başqa, Binəqədi yollarında böyük, "Təmiz Binəqədi" çalaları vardır, hər gün onların üzərindən hoppanırıq, şüvüllə tullanan yoldaşlar da vardır, böyük ehtimalla bu çoxnövçülükdə respublikamızın, Bakımızın, Binəqədimizin, Xaləddin müəllimimizin idman şərəfini daim yüksəklərə qaldıracağıq, xarici düşmənlərin gözü çıxsın! Dedən, hə.

Hökumət də Avropa Oyunlarına ciddi hazırlaşır, srağagün yarışmanın simvolu olacaq heyvan və bitkinin adları, rəsmləri açıqlanmışdır. Bunlar ceyran və nardır. İki gündür sosial şəbəkədə bu mövzuda qırğın gedir, başı çıxan-çıxmayan simvollarımızı, artıq 2 gündür dövlətçilik rəmzimizə çevrilən ceyran və narın şəklini lağa qoyurlar. Onlara burdan kəskin nifrətimi bildirirəm! Görüm sizi ceyran üzünə həsrət qalasınız, yediyiniz nar da əlinizdə "qranat" kimi partlasın, özü də bu zaman əyninizdə xeyrə-şərə geyindiyiniz tək ağ köynək olsun! İlahi, amin! Om mani padme xum! Hare krişna!

Biri yazır ki, ceyran distrofikdir, o biri deyir nar Çipollinoya - məşhur ədəbi soğana oxşayır. Oxşasın da, nə olsun? Bəlkə də Çipollino əsl türk imiş, Hövsan soğanı olubdur, kitabı yazan Canni Rodari bunu bizdən əkişdiribdir. Hətta sizə sirr açım *(böyük ehtimalla bilmirdiniz, kitab oxumursunuz axı)*: Canni Rodari əslən bizdəndir, pasport adı da "Azərbaycanın Rodari" olub, sonradan İtaliyadakı Mussolini rejimi onun adından "Azərbay" hissəsini zorakılıqla çıxardıb. Bu haqda Tarix İnstitutunun direktoru Yaqub müəllimin "Əhvalati-soğan-Radari-badımcan" tarixi risaləsində çoxlu elmi məlumat var, oxuyanda adamın ürəyi ağrıyır, qarnı da gedir.

Ceyrana qayıdaq. *(Bəh-bəh, necə gözəl cümlə oldu!)*. Onun distrofik olmasını, əlinin qoltuğundan çıxmasını yazanlar özlərini elə aparırlar ki, guya birdən-ikiyə ceyran görüblər. Açığı, heç mən özüm də görməmişəm. Rəvayətə görə Şirvan qoruğunda, Muğanda, nə bilim, Salyan tərəfdə dolaşan bir heyvandır, hətta qoruğun müdiri bir ara hansısa "nemes" idi. Lakin görməyimiz qismət olmayıbdır, bir növ mistik heyvandır, su pəriləri, damdabacalar, qulyabanılar və sairə kimi. Əgər hökumət şəklini belə çəkibsə, deməli hökumət onu belə görüb. Bacarırsan sən də gör, çək. Lap istəsən ceyranla selfi çəkdir. Kim sənə mane olur? Ölkəmizdə demokratik cəmiyyətdir.

Əlbəttə, ölkəmizdəki uğurları görmək istəməyənlər, soyuqdan donub evin ətrafında qaçmayanlar, bununla qəsdən iqtidara zərbə vuranlar ceyranı da görməyəcəkdir. Onlar həyatda ancaq ağ və qara rəngləri görürlər. Bu heç. Yəni, yazılası mövzu da deyil, bilmirəm bayaqdan gözünüzü zilləyib nəyi oxuyursunuz. Nə bekar adamlar var...

Zarafat edirəm, oxucular şəxsən mənim başımın tacıdır, gözümün işığıdır. *(Ona görə uzağı yaxşı görmürəm)*. O səbəbdən, Avropa Oyunlarının simvolu haqda çox ciddi bir yanlışlığı dəyərli oxuculara çatdırmaq istərdim. Qoy onlardan da kimsə bunu hökumətə desin, çünki biabırçı yanlışdır.

Məsələ ondadır ki, simvolda ceyran qız paltarı geyinib, alnına qadın bəzəyi taxıb, hətta əlində də qızılgül tutub, ancaq başında buynuz vardır! Elmi baxımdan, dişi ceyranlarda heç vaxt buynuz olmur, məntiqlə belə çıxır ki, bizim Avropa Oyunlarının rəmzi olacaq ceyran... transvestitdir. Transvestizm, əgər bilməyən varsa, psixologiyada gender uyğunsuzluğunun bir növü sayılır, əks cinsin paltarını geyinən adamlara da transvestit deyirlər. Misal üçün, kişi qadın paltarı geyinib bundan seksual zövq alırsa və s.

Görünür, şəkli çəkənlər elə zənn edib ki, heyvanın adı ceyrandırsa bunun erkəyi ola bilməz, bala ceyranları da... narın içindən tapırlar.

Ümid edirəm Avropa Oyunlarına qədər Ceyranbatan qəsəbəsinin adı da dəyişdirilər.

# Petrola bulaşıq siyasətdən sürpriz gözlənti

**Dünya bazarında xam neftin qiyməti sürətlə enməkdə davam edir. Doğrudur, illər öncə də bənzər hallar olub. Lakin həmin hallardan fərqli olaraq, bu dəfə ucuzlaşma prosesində geridönməz təmayül müşahidə edilməkdədir. Yəni düşən qiymət qalxmağa meylli olmur. Əksər təhlilçilərə görə, səbəb ilk növbədə geosiyasi amillərlə, o sırada ABŞ-ın öz müttəfiqi, əsas neft ixracatçısı Səudiyyə Ərəbistanı ilə anlaşma əldə edərək hasilatı artırmağa nail olması, bununla da "qara qızıl"ın qiymətinin permanent şəkildə düşməsini təmin edib Rusiya iqtisadiyyatına sağalmaz zərbə vurmaq planları ilə ilgilidir.**



# Bakı və Moskva üçün kritik gün

## Bu gün Vyanada OPEC-in son 15 il üçün ən həlledici sammiti olacaq; qurumun hasilatla bağlı çıxaracağı qərar neftin qiymətini 60 dollara sala bilər; Rusiya ilə birgə Azərbaycan da yeni risklərlə üz-üzə...

Bu prosesə Birləşmiş Ştatların özünün nefti istehsalını artırmağa başlaması başqa yandan stimul verməkdədir.

Neftin ucuzlaşması Qərbin iqtisadi-maliyyə sanksiyaları ilə birgə rus rublunun dəyərsizləşməsini də sürətləndirir ki, bu da Rusiya hökumətini ciddi narahat etməyə bilməz. Təbii ki, Moskva vəziyyətdən çıxış yolları aramaqdadır. Onlardan biri də OPEC ölkələri ilə *(Rusiya qurumun üzvü deyil - yalnız müşahidəçi statusundadır)* razılaşaraq hasilatın azaldılmasına nail olmaqdır. Hərgah, Rusiyanın özünə bu dəqiqə hasilatı aşağı salmaq da əl vermir, çünki bu, büdcə kəsirinin böyüməsi demək olardı. Ayrı sözlə, Moskva istəyinə daha çox digər iri neft ixracatçılarının hesabına nail olmağa çalışır.

**Rusiyanın Energetika Nazirliyinin açıqlaması bu qənaəti möhkəmlədir. Sitat:** "Biz Səudiyyə Ərəbistanı deyilik ki, hasilatı qısa zamanda azaldaq, qısa zamanda artıraq. Bizdə bazarda dövlət və özəl şirkətlər işləyir. Və kəskin azalma və ya kəskin artırma fiziki cəhətdən mümkün deyil".

Kreml bu xüsusda İranın da roluna ümid edir. Rusiya prezidenti Vladimir Putinin digər neft ölkəsi, OPEK üzvü İranın prezidenti Həsən Ruhani ilə srağagünkü telefon danışığı da şübhə yox ki, iki ölkə arasında bu qəbildən aktual məsələlərdə əlverişli etimad və anlaşma mühiti yaratmağa xidmət edirdi.

Ancaq Kremlin ziyanına olan bir incə məqam var ki, sanksiyalardan əziyyət çəkən və büdcəsi problemlərlə üzləşən Tehran hasilatı azaltmağa elə də həvəsli deyil - Rusiyaya kömək əli uzatmaq istəsə belə. Amma eyni zamanda neftin qiymətinin normal qalmasında da Tehran maraqlıdır. Yəni İran daha çox "qızıl orta" axtarışındadır.

****

Bu gün noyabrın 27-də Vyanada OPEC - neft ixrac edən ölkələrin növbəti sammiti olacaq. Nüfuzlu ekspertlərin hesablamalarına əsasən, əgər təşkilat üzvləri toplantı zamanı hasilatla bağlı kvotaları aşağı salmaqla bağlı konsensus əldə eləməsə, neftin qiyməti indiki 78-80 dollardan da aşağıya enərək 60 dollara düşəcək.

Məlumat üçün bildirək ki, OPEC ölkələrinin payına dünya neft hasilatının 40%-i düşür. Hazırda kartel gündə 30 milyon barel neft hasil edir. Əgər bütün üzv ölkələr növbəti toplantıda hasilatın həcmini təxminən 1 milyon barel həcmində azaltmasa, o zaman qiymət həqiqətən 60 dollara enəcək.

Müşahidəçilərə görə, 12 OPEC üzvünün anlaşma əldə eləməsi elə də asan olmayacaq. Belə ki, Səudiyyə Ərəbistanı kvotaların aşağı salınmasına qarşı çıxır. Venesuela, İran, Nigeriya kimi kasıb ölkələr isə neftin qiymətinin düşməsinin öhdəsindən çətinliklə gəlirlər. İş ondadır ki, Səudiyyə Ərəbistanı qurumun ən böyük ixracatçısıdır: gündə o, 9.7 milyon barel neft çıxarır. Bu da OPEC-in 1/3- deməkdir.

Təsadüfi deyil ki, sammit ərəfəsində keçirilən konfransda Rusiya, Səudiyyə Ərəbistanı, Venesuela və Meksika nümayəndələri hasilatın azaldılması barədə razılıq əldə edə bilməyiblər. Belə görünür, Vyana sammiti də Moskvanın strateji istəyinin gerçəkləşməməsi ilə yekunlaşacaq.

****

Söz yox ki, toplantının Azərbaycana da əhəmiyyətli təsiri olacaq. Ölkəmiz OPEC-ə daxil deyil. Bu baxımdan Rusiya kimi o da qurumun qərarlarına təsir eləmək gücündə deyil. Odur ki, müəyyən mənada Azərbaycan da Rusiya ilə birgə "yana bilər". Xatırladaq ki, 2015-ci il büdcə layihəsində Brent markalı Azərbaycan neftinin qiyməti 1 barel üçün 90 dollar nəzərdə tutulub. Ən son məlumatlara görə isə Bakı nefti dünya bazarında 78 dollara satılır.

**Yerli ekspertlər qiymətinin aşağı düşməsini Azərbaycan üçün də arzuolunan saymırlar. Məsələn, iqtisadçı Vüqar Bayramov musavat.com-a açıqlamasında bildirib ki, bu, Azərbaycanın dövlət gəlirlərinin azalmasına gətirib çıxarır:** "Azərbaycanın ixracatının 94 faizinin neft və neft məhsulları olduğunu nəzərə alsaq, bu, o deməkdir ki, neftin ucuzlaşması Azərbaycanın ixracatının 94 faizinə birbaşa təsir göstərir. İndiki məqamda büdcənin gəlirlərinin hazırkı həcmdə saxlanması üçün uyğun qiymət 90 dollardır. Əgər 90 dollardan az, 80 dollara qədər olsa, ciddi problem yaratmır. 80 dollardan aşağı ensə, Azərbaycan iqtisadiyyatı üçün problem yarada bilər".

**Ekspert neftin qiymətinin yaxın dövrlərdə 50 dollara qədər azalacağını güman eləmir:** "Qısa müddətli dövrdə 50 dollara qədər enmə mümkündür. Ancaq uzunmüddətli dövrdə bu, praktik olaraq mümkünsüzdür, ona görə ki, investorlar bu qiymətə neftin satılmasında maraqlı olmayacaqlar. Çünki bu, artıq xərcindən aşağı neftin satılması deməkdir".

❑ **Siyasət şöbəsi**

# Rusiya şirkətləri çökməyə başlayıb

**Qərbin sanksiyaları və neftin qiymətlərinin aşağı düşməsi Rusiya iqtisadiyyatını çökdürməkdə davam edir. Ölkə.az Rusiya KİV-lərinə istinadən xəbər verir ki, bu gün yayılan xəbərlərdə Rusiya birjasında əksər şirkətlərin hissələri dəyər itirməkdə davam edib.**

Rusiyanın ən böyük korporasiyalarından biri "Alrosa"nın xalis gəliri 9 ay ərzində 44% aşağı düşüb və şirkətin kapitalı təxminən 2 dəfə azalıb.

Bundan başqa, ölkənin ən böyük bankı "Sberbank" da son 9 ay müddətində 10% gəlir itirib.

Rublun məzənnəsi isə avroya nisbətdə bir az da düşüb və 1 avronun dəyəri 58 rubla çatıb.

Analitiklər vəziyyətin daha da gərginləşəcəyini proqnozlaşdırırlar.



**ABŞ-ın Ferqüsson əyalətində avqust ayında yaşanan olaylar yenidən alovlanıb. İki gün öncə başlayan etirazlar tezliklə bütün ölkəyə yayılıb. "Euronews" telekanalının məlumatına görə, ABŞ-ın 37 ştatında 170-dən artıq məntəqədə etiraz aksiyaları keçirilib. Polis olaylara gözyaşardıcı qazla müdaxilə edib. Dallas şəhərində 5, Denver şəhərində isə 3 nəfər həbs olunub.**

# Qaradərili prezidentin ölkəsində irqçilik dərdi

## Barak Obama da irqi ayrı-seçkilikdən şikayətçidir; ABŞ-da rasizmə 50 il öncə son verilsə də, qorxulu meyllər təzədən baş qaldırmaqdadır...




Qeyd edək ki, bu il avqustun 9-da, gecə Missuri ştatının Ferqüsson şəhərində polisə tabe olmayan 18 yaşlı qaradərili gənc Maykl Braun güllələnərək öldürülüb. Polis məmuru Darren Uilson gəncə 12 atəş açıb. Bundan sonra Ferqüssonda və digər ştatlarda irqçilik əleyhinə etirazlar keçirilib.

Ancaq gözləntilərin əksinə olaraq federal məhkəmə münsifləri polis məmurunun mühakimə olunmasına "gərək olmadığı" haqda qərar çıxarıb. Qərarda qeyd olunur ki, "Uilson əleyhinə hər hansı cinayət törətməsi ilə bağlı dəlil tapılmayıb". Ardınca ilk olaraq Ferqüssonda küçələrə çıxan etirazçılar məhkəmə heyətini qınayan şüarlar səsləndiriblər. Bundan başqa, bir neçə ofis dağıdılıb, yüzlərlə avtomobil yandırılıb. Bir neçə dükan isə qarət olunub.

**Bu arada Ağ Evdə mediaya açıqlama verən prezident Barak Obama vətəndaşları sakit olmağa çağırıb. Obama bildirib ki, məhkəmənin qərarına hörmətlə yanaşmaq vacibdir:** "Hər şeydən öncə biz hüququn aliliyi dəyəri üzərində yüksəlmiş bir ölkəyik. Burada qərarı münsiflərin verdiyini qəbul etməliyik. Bu qərarı doğru sayan, yaxud bundan narazı olan, ümidini itirən və hətta qəzəblənən amerikalılar var. Bu, anlaşılan reaksiyadır. Lakin mən Mayklın ailəsini və qərara etiraz edənlərin hər birini öz etirazlarını sülhsevər şəkildə etməsi xəbərdarlığına qoşuluram".

Ötən gün BMT baş katibi Ban Ki Mun Ferqüsson olaylarında etirazçıları zorakılıqlardan çəkinməyə çağırıb. Eyni zamanda baş katib hökuməti, Ferqüsson rəhbərliyini etirazçıları dinləməyə çağırıb.

Qeyd edək ki, "azadlıqlar ölkəsi" Amerika son illərdə bir neçə zorakılıq olayları ilə dünya gündəminin əsas xəbərinə çevrilib. 2009-cu ildə Oskar Qrant adlı qaradərili amerikalı Oklend şəhərində ağdərili polis tərəfindən vurulduqdan sonra ölkədə etiraz aksiyaları baş vermişdi. Amerikada qaradərililərin hüquqları uğrunda mübarizə ötən əsrin 60-cı illərində şiddətlənib. Martin Lüter Kinqin qaradərililərin səsvermə, irqi ayrı-seçkiliyə qarşı, eləcə də iş və digər hüquqlarla bağlı apardığı mübarizə uğurla nəticələnib. 1964-cü ildə "Yurddaş haqları Qanunu" və 1965-ci ildə isə "Səs hüququ Qanunu" qəbul olunub.

1968-ci ildə Kinqin ölümündən sonra Amerikada irqi ayrı-seçkilik mövzusu bir xeyli gündəmdən çıxsa da, 1992-ci ildə Los Ancelesdə polisin qaradərili gənci ölümcül döyməsi Amerikada irqçilik əleyhinə etirazlara səbəb olub. 2012-ci ildə isə Trayvon Martin adlı gənc Florida ştatında Corc Zimmerman adlı keşikçi tərəfindən öldürülsə də, məhkəmənin keşikçini günahsız elan etməsi ciddi etirazlara səbəb olub.

Belə çıxır, demokratiyanın beşiyi olan Amerikada irqçilik hərəkətləri, qaradərililərin problemləri mövzusu hələ də aktual olaraq qalır. Bir sıra qaradərili Amerika vətəndaşları hökuməti onlara qarşı hələ də ayrı-seçkilik siyasəti aparmaqda ittiham edirlər. Baxmayaraq ki, artıq 6 ilə yaxındır ki, ABŞ-ın prezidenti elə qaradərili şəxsdir. Ancaq ölkənin birinci şəxsinin də qaradərili olmasına rəğmən Amerikada bu problemi kökündən həll etmək mümkün olmayıb.

**Səbəbi ən mükəmməl şəkildə ABŞ prezidenti Barak Obama özü açıqlayıb. 2012-ci ildə Trayvon Martin adlı qaradərili şəxsə hücum zamanı çıxışında Obama irqçiliyin köklərinin tarixə bağlı olduğunu deyib. Sitat:** "Trayvon Martinin yerində mən də ola bilərdim. Bu olayların Afrika əsilli amerikalılara nədən bu cür təsir etdiyini düşünürsünüzsə, tarix səhifələrinə baxın. Bu ölkədə marketdə alver edərkən izlənilməyən, axtarış aparılmayan az sayda qaradərili vətəndaş var. Bu siyahıya mən də daxiləm".

❑ **KƏNAN**

# Papa dialoq deyir, müsəlmanlar isə...

## Roma Papası İŞİD-lə müzakirə imkanlarının tükənmədiyini deyib, dünya müsəlmanları isə təkfirçi düşüncənin artmasından narahatdır

**Avropa Parlamentini ziyarət edən Roma Papası Fransisk İŞİD-lə dialoq imkanlarının olduğuna inandığını bildirib. Bununla bağlı ümidini itirmədiyini qeyd edən Papa "Əslə, hər şey bitdi deməzəm. Bəlkə də dialoq alınmaz, ancaq heç bir zaman qapını bağlamaq da olmaz" - deyə bildirib.**

Qeyd edək ki, Roma Papası 30 illik fasilədən sonra Avropanın əsas siyasi mərkəzini ziyarət edərək bir sıra mesajlar verib. Geri dönərkən təyyarədə jurnalistlərə açıqlamasında Papa "haqsız hücumçulara" qarşı savaşın hüquqi olduğunu, ancaq bununla belə beynəlxalq anlaşmaya ehtiyac olduğunu bildirib.

Yeri gəlmişkən, Papa noyabrın 28-də Türkiyəyə səfər edəcək. Bu səfər zamanı əsas müzakirə mövzularından biri də bölgədəki təhlükəsizlik və İŞİD terroru olacaq. Bir qədər əvvəl İraqda və Suriyada xristian əhali təkfirçi terror qruplaşmalarının hücumuna məruz qalıb. Bir çoxlarından dinini dəyişməsi və ya cizyə (dini vergi) ödəməsi tələb olunub. Bu vəziyyət dünya katoliklərinin mərkəzində də narahatlıq doğurur.

Ancaq Roma Papası İŞİD-lə hansı formada və hansı mövzuda dialoq aparılacağı məsələsinə toxunmayıb. Əgər söhbət İŞİD-lə girovların geri alınmasından gedirsə, bu mövzuda İŞİD hökumətlərlə danışıqlara getmir. Bir qayda olaraq xüsusən də Qərb ölkələrindən olan girovları öldürməklə göz dağı verir. Digər girovların isə bir çoxları yalnız əvəz ödənməklə qaytarılır. İkinci tərəfdən, hazırda İŞİD-lə dialoq mövzusu dünya dövlətlərinin gündəmində deyil. Çünki əgər dialoq olsa, o zaman bu, həmin dövlətin İŞİD-i dövlət kimi tanıması anlamına gəlir. Bu isə hazırda heç bir halda gündəmdə olmayan məsələdir. Çünki İŞİD-in dövlət olaraq tanınması İraq və Suriyanın BMT tərəfindən tanınmış sərhədlərinin tanınmaması, suverenlik hüququnun pozulmasıdır. Bu isə ilk növbədə region ölkələri üçün qəbuledilməz durum sayılır. Çünki hazırda Yaxın Şərq regionunda İsrail istisna olmaqla, heç bir dövlət tanınan sərhədlərin dəyişdirilməsinə isti baxmır. Çünki bu regionda sərhədlər kifayət qədər kövrəkdir və baş verən sərhəd dəyişikliyi domino effekti verə bilər. Yalnız yəhudi dövləti regionda kürd dövlətinin yaranmasına müsbət yanaşdığını bəyan edib.


Roma Papası Fransisk

Bu mənada hazırda Papa istisna olmaqla, İŞİD-lə dialoq məsələsi ümumiyyətlə gündəmdə deyil. Ancaq bunun əksinə olaraq regionda müsəlman ölkələri arasında təkfirçi islamçı cərəyanlara qarşı mübarizədə yaxınlaşma müşahidə olunur. Bir qədər əvvəl Səudiyyə Ərəbistanı baş müftisi yerli şiə icmalarına hücumları pisləyən, təkfirçiliyi şiddətlə qınayan bəyanat verib. Həmçinin Misirin "əl-Əzhər" universiteti, ayrı-ayrı İslam alimləri təkfirçiliyi qınayan bəyanatlar veriblər. Bugünlərdə İranın Qum şəhərində dünyanın 80 ölkəsindən 300 nəfərə yaxın ruhaninin iştirakı ilə təkfirçiliyə qarşı mübarizə mövzusunda konfrans keçirilib.

Təkfirçi düşüncə, yeni fərqli cərəyanları küfrdə, kafir olmaqda ittiham edərək məzhəblə arasında gərginliyi artırmaq, nifrəti körükləmək bir sıra İslam cərəyanları arasında mövcuddur. Təkfir geniş anlayış olsa da, eyni zamanda İslam mənbələrində qadağan edilsə də, radikal qruplar bundan istifadə edərək zaman-zaman nifrəti dərinləşdirməyə, xüsusən də müsəlmanlar arasında qanlı olaylara səbəb olub. Bir-birini kafir elan edən müsəlmanların sonradan məhz Qurana istinad edərək "kafirlər" etdiyi insanları qətlə yetirir və malına, namusuna təcavüz edirlər. Bu mənada İslamın əsaslarına zərbə olan, müsəlmanlar arasında fərqli görüşləri nifrətə və düşmənçiliyə gətirən təkfirçilik müsəlman dünyasında mütərəqqi İslam alimləri, ziyalılar tərəfindən qınanır.

İndiki halda müsəlman aləmi təkfirçi zehniyyətin aradan qaldırılması üçün ilk növbədə müsəlmanlar arasında vəhdət, tolerantlıq ənənələrinin dərinləşdirilməsi yollarını axtarırlar. Çünki son olaylar da göstərdi ki, müsəlman dünyasında baş verən bir çox hadisələr sonradan məhz təkfirçi düşüncənin geniş yayılmasına səbəb olur.

❑ **KƏNAN**

# Şərəf məsələsində "qırmızı xətt"



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Avropa Birliyinin patronajlığı ilə Batumidə keçirilən qalmaqallı forum ətrafında səs-küy səngimək bilmir. Ara-qarışdıranlar, belə fors-major vəziyyətləri dərhal fürsət bilib də əllərini qızdıranlar, hay-həşir qoparanların qabağına nə qədər kontur-dəlil, sübut qoyulsa da, yenə tutduqlarını buraxmırlar. "Yeni Müsavat", onun baş redaktoru növbəti dəfə haqsız yerə hədəf edilməkdədir.**

Mən facebook-da yoxam. Ancaq dostlar vasitəsilə əcaib səslər təbii ki, bizim də qulağımıza çatır, çatdırılır. Hətta hamıya şərəf dərsi keçməyə çalışanlar varmış sən demə...

Doğrudan da, kimdə nə çatmır, ondan daha çox danışır. Vətənşüvənlər də elə. Məsələnin mahiyyətini dəqiq öyrənmədən, yaxud qəsdən öyrənmədən, yalnızca olayda Rauf Arifoğlunun, "Yeni Müsavat"ın adı keçir deyə, əlinə balta, lom alanlara bir daha sual edirik: səslənən ittihamlar, ortaya çıxan faktlar təkzib olundumu, sanballı əks-arqumentlər gətirildimi? Şəxsən mən görmədim, eşitmədim. Axı, obrazlı desək, hələ də "meyit yerdədir", onu götürən yoxdu...

Keçək konkretliyə.

Öncəliklə "People in Need" (qısaca, "PiN") adlı çex təşkilatından illərlə qrant basıb yeyən və gözünü yumub ağzı köpüklənə-köpüklənə bizə mənəviyyat, əxlaq dərsi keçmək istəyənlərdən soruşuruq: "PiN" ermənilərə, erməni separatçılarına daha yaxın olmadığını sübut edə bildimi, Foruma separatçı rejimi müstəqil dövlət kimi üzv etdirməyə çalışmadığını isbatladımı? Qalmaqalın ardınca hansısa bəyanat verib Azərbaycana münasibətdə neytral mövqe sərgilədiyini ortaya qoydumu, müxtəsəri, ərazi bütövlüyümüzü qeyd-şərtsiz tanıdığını və müdafiə elədiyini bəyanladımı?

Şəxsən mən belə bəyanatlara, açıqlamalara rast gəlmədim. Rast gələn varsa desin, göstərsin, əlimizin arxasını o dəqiqə yerə qoyaq. Lap tutaq, təşkilatın ermənipərəst olması haqda söylənilənlər şayiədir, siz - təşkilat liderləri qalxın elə mövqe göstərin, elə bəyanat verin ki, daşdan və "yeddi qat"dan keçsin, hamı obyektliyinizə əmin olsun. Söz-söhbətlər də yığışsın. Necədi?

Eləcə də "PiN"-in təəssübünü çəkənlər. Nala-mıxa vurmaq yetər, deyin görək "PiN" Azərbaycanın ərazi bütövlüyü tanıyır-tanımır? Bu suala da cavab yoxdu. Yoxdusa, ittiham, iddia qüvvəsində qalır. Deməli, ermənipərəst söhbəti də yerindədir, şişirdilməyib.

Belədirsə, Azərbaycanın parçalanmasını istəyən, hətta bu yöndə çalışan bir qurumun insan haqları məsələsində bizə yaxşılığı, köməyi başına dəysin! Qəti əminəm ki, Qarabağ uğrunda, ərazi bütövlüyümüz uğrunda vuruşmuş müharibə veteranı, siyasi məhbus Tofiq Yaqublunun belə dəstəyə, "ayı xidməti"nə ehtiyacı yoxdu. Yəqin ki, Tofiq bəyin özünün də bu xüsusda qeydləri az sonra olacaq...

Qəribədir, Azərbaycan dövlət kimi mövcud olmayandan sonra burda kim(lər)in haqqını müdafiə edəcək bu "nüfuzlu təşkilat", ona yeri gəldi-gəlmədi züy tutanlar? Bu, başımızı yarıb ətəyimizə qoz tökmək deyilmi?

Başqa yandan, nə əcəb Abxaziyanı, Cənubi Osetiyanı, Krımı da Foruma müstəqil üzv etdirməyə çalışmır həmin o "PiN"?!.

***

Yuxarıda sıralanan sualların cavabları əslində bizə də, quruma və onu kor-koranə, məqsədli müdafiə edənlərə də, habelə insan haqları ilə mili-dövlət maraqlarını, normal qəzetçiliklə vətən(daş) təəssübkeşliyini ayırd edə bilməyən şüvənpərvərlərə də bəllidir. Odur ki, qoy şərəf, düzlük və ləyaqət "etalonları" kimsəyə dərs keçməyə qalxmasınlar.

Son olaylardan dolayı şərəf-qürur məsələsində "qırmızı xətti" keçən və nə səbəbə keçdiyi də bəlli olan kimsə varsa da, o yüzdə yüz biz deyilik. Kim(lər)di, o da artıq hamıya bəlli...

YENİ MÜSAVAT
N 290 (5999) 27 noyabr 2014

**Mənim üçün qəzet, ilk növbədə qəzetdir. Xəbərdir, analitikadır.**
**Müəlliflərin və redaksiyanın ortaq və personal mövqeləri ola bilər, onlar nəyəsə inana, pərəstiş edə, hətta sitayiş edə bilərlər. Təki nəşrin (psevdo)ideoloji xətti olmasın - qəzet qəzet olsun, bülleten yox. Zatən zaman və oxucu "ideoloji" qəzetlərə yerlərini göstərirlər. Partiya, lider, ağsaqqal yedəyində olan qəzetin ömrü uzun olmaz. Zamana qarşı dirəşsə də, oxucusu olmaz.**

Əli ƏKBƏR



# Qancıq ulaşması

## "Azərbaycanda kimsə kiməsə "erməni" ya da "ermənipərəst" demirsə, deməli, xarici əlaqələrinə görə ehtiyatlanır"

Yəni çağdaş dünyada "psevdo"suz, xas ideoloji nəşrlər *(bizdə heç belə bir şey yoxdur)* maraqsız görünürsə, psevdolar görün nə gündədir. Ona görə də "Yeni Müsavat"ın Müsavat Partiyasından mümkün qədər uzaqlaşmaq, stereotipik "partiya qəzeti" yarlığından qurtulmaq, normal bir media resursu olmaq istəyi alqışlanmalı olduğu halda, dəqiqəbaşı qəzetə, müəlliflərə pretenziya bildirirlər. Eyni adamlar, eyni sözlər, eyni özünü əsdirmələr.

Ciddi yazarın media seçimində diqqət etdiyi, axtardığı nədir? Yüksək reytinq, məmə şəkillərinin, lüt arvad ombalarının *(maqazin düşüklüyünün)* olmaması, senzuranın hüdudları və qonorar. Bunların hamısı məni qane edirsə kim, nə deyə bilər? Siz bəlasınız nəsiniz, niyə belə bambılılıq edirsiniz? Sizin sıralarınızdan çıxıb APA-ya keçən adamınızı o qədər söydünüz, halbuki mənə görə hər kəs iş yeri seçimində sərbəstdir. Bu adamınız "Əli Kərimli məsumdur" deyəcək qədər fanatınız idi. Kaş bütün fanatiklər, onun kimi zamanında ayılaydı. "Gənc prezident, gənc müxalifət lideri" şüarı ilə bir dövrü yola verənlər, indi gənc prezidentə işləməkdə bizi günahlandırırlar.

Hər şey çox sadədir - tələb-təklif. Sənin satmağa malın var, bir başqasının da almağa istəyi və pulu. Mənim kriterlərimə cavab verəndən sonra, qəzet mənə ödədiyi qonorarı hardan tapır, mühasibatı necə işləyir - bunlar mənə maraqlı deyil. Guya sizin pulunuz hardan gəlir ki? Sənə ABŞ konqresi pul verir, bir başqasına yerli bir oliqarx verir. Mən əməyimi satıram, sən də əməyini satırsan, obiri də əməyini satır. Yox, kimsə əvvəlinə "d" gətirilmiş əmək satırsa, sanmasın ki, hər kəs bu işlə məşğuldur. Əməklə kifayətlənirik.

Bir qrup bambılı, onu-bunu pusur ki, bir "qrex" tutsun, başlasın hürüşmə. Düşüblər ortalığa, camaatın olan-qalan zövqünü də korlayırlar. Siz gedin bir özünüzə güzgüdə baxın, antropoloji quruluşunuza ağlayın. Hələ mən sizin, kəndistan başınızın içini demirəm. Uğursuz adamlar. Bu nə biznesdir, həyatdır belə? Bu nə taledir? Onu pusurlar, bunu güdürlər. Bunların dərdinə, işinə-gücünə, fəaliyyətinə bax - "ifşa edəcəm", "maska cıracam", "əl vurma mənə, mən o qızlardan deyiləm"...

Doğrudan da sürünmək üçün doğulanlar uça bilməzmiş. Bunlar uğursuz adamlardır. Uğursuzluq bunların alın yazısıdır. Uğursuzlar da uğurluları sevməzlər. Ölkədə siyasət tamam ayrı bir fazaya keçib. Hər şey çox dəyişib, "dünya birliyinin" mövqeyi də birmənalıdır, bunlar isə hələ də ətalətlə "istefa" qışqırırlar.

**"Ermənidü!"**

Bu tema mənim həqiqətən ürəyimi bulandırır. Erməni məsələsində Sabirin, Cəlilin, Tumanyanın, Matevosyanın mövqeyindəyəm. İstinadım ümumbəşəri dəyərlərdir, çünki literatura mütləq pasifist olmalıdır. Başqa cür olsa, literatura yox manifestasiya olacaq. Bir dönəm manifestasiya ilə məşğul olan adam kimi deyirəm bunu. Ona görə də yeri gəldi, gəlmədi *(əslində gəlməli deyil)*, bu ümummilli minusovkanı gündə eşidirik. Bəyənmədiyinə "ermənidir" deyirsən qurtarır gedir.

> **"İctimai sektorda erməni fobiyasının "olmaması" Qərb qarşısında öhdəliyə görədir. Erməni fobiyası olsa, Qərb əməkdaşlıq etməz"**

Batumi diskotekasına gəlincə, orda nə baş verib bilmirəm və belə başa düşdüm ki, heç kəs bilmir. Oxuduğum qəzetlərdə kimsə İntiqam müəllimin şəklini cırıb, musavat.com-da isə fotolar gedib və baş redaktor çexiyalıları "ermənipərəst" adlandırıb. Çexiyalılar kimdir, nə təşkilatdır xəbərim yoxdur. Bu təşkilatın adına ilk dəfə rast gəlirdim. Dağlıq Qarabağla isti münasibətlərinin olduğunu oxudum. Əks fikirlər də var, deyirlər bu təşkilat çox gözəl və sülhməramlı təşkilatdır.

Zatən siz adam kimi desəniz ki, çox canlara dəyən oğlan və qızlar işləyir o təşkilatda, buna da məmnuniyyətlə inanaram. Yəni hər şeyin bir qaydası, etiketi var. Mən "qancıq ulaşması" deyəndə, bunu nəzərdə tuturdum - yekə adamlar, arvadlı kişili, qadınlı qızlı tumanlarını atıblar başlarına, ağızlarına gələni yazır, danışırlar. Buna ancaq qancıq ulaşması adı vermək olar.

Bu adamlar terrorla məşğuldurlar. Özlərini də kənardan görmürlər. Rauf Arifoğlu pis müxalifətçidir? Batumidə şəkil çəkib, orda deyilən və danışılanları qəzetində yayıb və bu davranışı çox loyaldır? Bunların hərəsi, ya da bir neçəsi, maarifləndirici bir təkzib yazısı yazıb, "Yeni Müsavat"a yolladılar da, yazılarımı getmədi? Ya da öz resurslarında yaydılar da, xəbərimizmi olmadı? Zingildəmək, söyüşmək yerinə adam dilində etiraz bildirsəydilər, sözlərinin çəkisi də olardı.

Amma bunların heç biri olmadı. "Ermənidir" ovqatı ilə təqdim edilən xəbərə, "cıraram səni" ifşa-tamaşası ilə cavab verdilər. Mənim isə bu erməni sevgisinə dair şübhələrim var, özü də çox dərin və əsaslı. Azərbaycanda erməniləri təhqir etməyən və opponentinə erməni deməyən çox-çox az adam tapılar ki, içindən gəldiyinə, əqidəsi bunu tələb etdiyinə görə, ümumbəşəri mənada "tolerant" olsun. Əgər bizdə kimsə kiməsə "erməni" ya da "ermənipərəst" demirsə, deməli, xarici əlaqələrinə görə ehtiyatlanır. Yoxsa tolerantlığı, sülh ideyasını həzm etdiyinə, aydın baxışlı olduğuna görə yox. İctimai sektorda erməni fobiyasının "olmaması", Qərb qarşısında öhdəliyə görədir. Erməni fobiyası olsa, Qərb əməkdaşlıq etməz.



# "Nazir olduğum dövrdə də çatışmazlıqlar olub, bu gün də var"

## Keçmiş maliyyə naziri Fikrət Yusifov təşkilatını ictimaiyyətə təqdim etdi və Samir Şərifovla münasibətlərindən danışdı



**Noyabrın 26-da sabiq maliyyə naziri, hazırda "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin sədri Fikrət Yusifov təsis etdiyi təşkilatın ilk mətbuat konfransını keçirdi. Tədbirdə bu ilin oktyabrında dövlət qeydiyyatına alınan təşkilatın yaranma səbəbləri və gələcək fəaliyyəti haqda məlumat verildi.**

BİAB-ın sədri qeyd etdi ki, uzun illər Rusiyanın Sankt-Peterburq şəhərində elmi-pedaqoji fəaliyyətlə məşğul olub.

Keçmiş nazir bildirdi ki, bununla belə, Azərbaycanda gedən xüsusən iqtisadi prosesləri diqqətlə izləyib. **F.Yusifovun** sözlərinə görə, dünyanın ağır maliyyə böhranı keçirdiyi dövrdə Azərbaycan bütün sahələrdə iqtisadi sıçrayış əldə edib: "Əhalinin gəlirlərinin artması, nəhəng infrastruktur layihələrinin həyata keçirilməsi, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi yer alması danılmaz faktdır. Belə şəraitdə iqtisadçı-alim olaraq, proseslərdən kənarda qalmağım, ölkəmin hərtərəfli inkişafına dəstək vermək arzumla mütənasiblik təşkil etmirdi. Hər bir vətəndaş ölkənin rifahına çalışmalıdır, bacarıqlarını sərf etməlidir".

**F.Yusifov vurğuladı ki, BİAB-ın məqsədi Azərbaycanın iqtisadi islahatlarında bir qeyri-hökumət təşkilatı olaraq yaxından iştirak etməkdir:** "Bu sahədə cərəyan edən prosesləri dərindən təhlil edib, qərəzli yanaşmadan, siyasiləşdirmədən obyektiv qiymət vermək olacaq. Böyük işlər gedən yerdə nöqsanlar da olur. Biz bu nöqsanları da açıqlayacağıq. Həmçinin əsas reallığın nədən ibarət olduğunu şəffaflığı ilə vətəndaşlarımıza, eyni zamanda Avropa və Qərb dövlətlərinə göstərməkdir".

**Keçmiş nazir təşkilatın devizini də açıqladı:** "Hər şeyi olduğu kimi göstərmək. Biz nöqsanları sadəcə sadalamaqla işimizi bitmiş saymaq fikrindən uzağıq. Məqsədimiz proseslərə elmi və praktiki baxımdan nüfuz etmək, konkret təkliflər verməkdir.

Bu halda nəticələr daha səmərəli olar. Biz həm də media ilə sıx əlaqə quracağıq. Təşkilatımızın bir layihəsinə siz jurnalistlərlə birgə start verəcəyik". **F.Yusifov dedi ki, bəzən gülməli təhlillər edilir:** "Bir yazı oxudum. Başlıqda "Neft Fondu talan edilir" yazılmışdı. Yazının içində müəllif dörd dəfə özü-özünü təkzib edib".

**Jurnalistlərin suallarını cavablandıran təşkilat rəhbəri bildirdi ki, neftin qiymətinin dünya bazarında ucuzlaşmasına baxmayaraq Azərbaycanın rezervləri var:** "Azərbaycanın imkanı var ki, bu vəziyyətdən çıxa bilsin və rezervlər var. Neft Fondunun gəlirləri investisiyalar qoyulur.

İlk növbədə qeyri-neft sektorunu yaratmaq lazımdır. Bunun üçün başqa layihələr reallaşdırılmalıdır. Üç ildə hər ilə 2, 7 faiz büdcənin neftdən asılılığı azalıb. Mən bunu proqress hesab edirəm. Üç ildə 7, 8 faiz büdcənin neftdən asılılığı azalıb ki, yaxşı nəticədir".

**Sabiq nazir söylədi ki, büdcə vəsaitlərinin istifadəsində hər zaman çatışmazlıqlar olub:** "Mən nazir olduğum dövrdə də nöqsanlar olub, bu gün də var. Bunun tamamilə qarşısını almaq real deyil. Rusiyada olan iqtisadi prosesləri də bilirəm. İqtisadi sahədə ixtisaslaşan jurnalistlərlə də əməkdaşlıq edəcəyik".

**Maliyyə mənbələrindən danışan BİAB sədri dedi ki, hazırda ianələr hesabına təşkilat saxlanır. F.Yusifov bildirdi ki, indiki maliyyə naziri Samir Şərifov peşəkar kadrdır və işini bilir:**

"Biz zamanında bir yerdə işləmişik. Maliyyə Nazirliyi ilə bizim təşkilatın əməkdaşlıq etməsi ilə bağlı təkliflərimiz olacaq. Ümid edirəm ki, nazirlik bu təkliflərə müsbət yanaşacaq". Qeyd dək ki, F.Yusifov 1994-cü ildən 1999-cu ilə qədər maliyyə naziri vəzifəsində çalışıb.

❑ **E.SALAMOĞLU**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 290 (5999) 27 noyabr 2014




# Ermənistan Qarabağdakı vertolyotlarını havaya qaldıra bilmir

## Müdafiə nazirinin cəbhə xəttinə son səfəri; siyasi və hərbi ekspertlərdən maraqlı reaksiyalar var; düşmən əsgər çatışmazlığı ilə üz-üzədir...

**12 noyabrda düşmən vertolyotunun məhv edilməsindən sonra bölgədə arzuolunmaz situasiyanın hər an yarana biləcəyi artıq şübhə doğurmur. Elə buna görədir ki, beynəlxalq aləm də Azərbaycanın haqlı olduğunu bildiyi üçün sadəcə sülh çağırışları etməkdədir. Düzdür, ermənilər vay-şivən qoparsalar da, vertolyot hadisəsinə arzuladıqları reaksiyanı ala bilmədikləri üçün pərtdirlər.**

Ancaq görünən budur ki, Azərbaycanın hərbi cəhətdən işğalçı ölkəni bir neçə dəfə üstələdiyini görən dünya gücləri bu situasiyada yalnız sülhməramlı çağırışlar etməyə üstünlük verir. Sonuncu belə reaksiya ABŞ-dan gəlib. Dövlət Departamentinin rəsmi nümayəndəsi Ceff Ratke Dağlıq Qarabağ münaqişəsi haqqında bəyanatla çıxış edərək Ermənistanı və Azərbaycanı sülh danışıqlarının davam etdirilməsi üçün bütün səyləri artırmağa çağırıb (ANS).

Bu arada Azərbaycanın müdafiə naziri Zakir Həsənovun cəbhə xəttinə etdiyi növbəti səfər və döyüş hazırlığının yoxlanılması müşahidəçilər tərəfindən təqdir olunur. Hesab olunur ki, indiki mürəkkəb şəraitdə ordu rəhbərliyinin ön cəbhədəki əsgərin yanında olması döyüş ruhunu artıran amillərdəndir. Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən noyabrın 25-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov döyüş hazırlığının yoxlanılması məqsədilə cəbhə bölgəsində yerləşən hərbi hissə və birləşmələrdə olublar. Cəbhənin ön xəttində yerləşən ümumqoşun və artilleriya təlim mərkəzində olan müdafiə naziri taktiki məşqləri və kəşfiyyat bölmələrinin hazırlığını yoxlayıb. Raket və artilleriya qoşunlarının hərbi hissəsində olan nazirliyin rəhbərliyi vəziyyətlə yerində tanış olaraq onların döyüş hazırlığı, hərbi texnikanın döyüş imkanları, qərargahlar tərəfindən tapşırıqların icrası, həmçinin hərbi hissələrin idarəetmə fəaliyyəti və şəxsi heyətin sosial-məişət şəraiti ilə maraqlanıblar. Döyüşə hazırlıq səviyyəsini yoxlamaq məqsədilə həyəcan siqnalı ilə qaldırılan raket və artilleriya birləşmələri müdafiə naziri tərəfindən göstərilən tapşırıqların yerinə yetirilməsi məqsədilə real döyüş şəraitinə uyğun olaraq atışlar icra ediblər. Həmçinin müxtəlif artilleriya vasitələrindən döyüş tətbiqi icra olunub, yeni alınan minaatan və ağır odatan sistemlərdən (AOS-1A), hazır olan və əvvəlcədən hazır olmayan mövqelərdən döyüş atışları həyata keçirilib. Məlumatda deyilir ki, Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən cəbhə bölgəsində yerləşən hərbi hissə və birləşmələrin döyüş fəaliyyətlərinin inspeksiya yoxlanılması davam edir.

Yeri gəlmişkən, Ermənistanın tert.am saytı dərc etdiyi bir xəbərlə Dağlıq Qarabağın işğal edilmiş Azərbaycan ərazisi olduğunu etiraf edib. Məlumata görə, 25 noyabr saat 17 radələrində sayta yerləşdirilmiş xəbərin başlığında iri hərflərlə bildirilib ki, Ermənistandan Qarabağa hərbi təlimlərə göndərilmiş helikopterlər daimi dislokasiya yerlərinə qayıda bilmir. Xəbərin içində isə Dağlıq Qarabağın işğal olunmuş Azərbaycan ərazisi olduğu yazılıb. Xəbərdə həm də vurğulanıb ki, iki ədəd hərbi helikopter təlimlər zamanı Azərbaycan tərəfindən atəşə tutulub və yararsız hala düşüb, hazırda həmin helikopterləri təmir etməyə çalışırlar. Maraqlısı odur ki, xəbər 10 dəqiqə saytda qalıb və daha sonra çıxarılıb (ANS) Erməni mətbuatı xəbərin hakerlər tərəfindən sayta yerləşdirildiyinə inanmırlar. Tert.am özü də bu barədə heç bir açıqlama verməyib.

Noyabrın 26-da isə müdafiə naziri və Baş Qərargah rəisi cəbhəboyu rayonlarda yerləşən hərbi hissə və birləşmələrdə aparılan tikinti-quruculuq işlərini yoxlayıblar. Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən cəbhə bölgəsindəki hərbi şəhərciklərdə aparılan tikinti və quruculuğun gedişatını yoxlayıb, görülən işlərlə yaxından tanış olublar. Qərargah, əsgər yataqxanaları, tədris kompleksləri, döyüş texnikası üçün saxlanclar, qarovul şəhərcikləri, avtopark, sıra meydanı, yeməkxanalar, əsgər klubu, tibb məntəqəsi, idman meydançası, qazanxana-camaşırxana-hamamxana kompleksləri, transformator yarımstansiyası və eləcə də tikinti gedən digər obyektlərdə olan Müdafiə naziri müvafiq tapşırıq və tövsiyələrini verib. Müasir tələblər çərçivəsində yenidən qurulan hərbi şəhərciklərdə zəruri hərbi infrastrukturlarla yanaşı müasir tələblərə cavab verən, bütün məişət şəraiti ilə təmin edilmiş, həmçinin ailəli hərbi qulluqçuların sosial-məişət ehtiyacları da nəzərə alınmaqla geniş mənzillər, eləcə də subay zabit və gizirlər üçün yataqxana komplekslərinin tikilməsi də nəzərdə tutulub.

Görülən işlərin 2015-ci il ərzində başa çatdırılması planlaşdırılır.

****

**Politoloq Elxan Şahinoğlu nazirin son addımlarını təqdir etdi:** "Zakir Həsənov müdafiə naziri təyin olunduğu gündən qollarını çırmalayaraq müdafiə sahəsində qayda-qanun yaratmağa çalışır. Nazir birinci mərhələdə ordunun ərzaqla təchizatını diqqət mərkəzinə gətirdi, qida məhsullarının çeşidi və keyfiyyəti artırıldı. Daha sonra hərbçilərin geyiminin NATO standartlarına uyğunlaşdırılması qərarı verildi. Zakir Həsənov ayrıca, nazir təyin olunduğu gündən bu yana hərbi təlimlərin sayını da artırıb. Keçmiş nazir Səfər Əbiyevin Azərbaycanın hansısa bölgəsinə səfər edərək hərbi kazarmanı ziyarət etməsi nadir hadisə sayılırdı, Zakir Həsənov üçün isə bu adi iş rejiminə çevrilib. Zakir Həsənov bir növ səhra komandirinə çevrilib. Bu belə də olmalıdır. Müdafiə nazirinin bütün gününü Bakıda isti kabinetdə keçirməsinə ehtiyac yoxdur. Cəbhə xətti Bakıdan deyil, Tərtərdən, Ağdamdan və digər rayonlarımızdan keçir. Ona görə də müdafiə nazirinin vaxtının çoxunu məhz bu rayonlarda keçirməsi doğru yanaşmadır".

**E.Şahinoğlu bir məqamı da qeyd etdi:** "Bu, separatçılara da vacib mesajdır ki, özlərini sərbəst və rahat hiss etməsinlər, Azərbaycan ordusunun istənilən an işğal altındakı torpaqları azad etməyə hazır olduğunu anlasınlar. Məsələn, separatçılar keçmiş illərdə də işğal altındakı torpaqlarda hərbi təlimlər keçirərdilər və ordumuz bunu kənardan seyr edərdi. İndi isə şərtlər dəyişib, artıq erməni separatçıları helikopterin vurulmasından sonra anladılar ki, əvvəlki kimi rahat şəkildə işğal altındakı torpaqlarda hərbi təlimlər keçirə bilməyəcəklər".

**Hərbi ekspert Azad İsazadə bildirdi ki, bu gün Azərbaycan-Ermənistan cəbhəsində vəziyyət gərgindir:** "Hər bir an cəbhədə hansısa dəyişiklik baş verə, gərginlik arta bilər, bu, bir reallıqdır. Ancaq bu gərginlik nə qədər davam edəcək və nə ilə nəticələnəcək, demək çətindir, həmçinin təzdir. Vəziyyət onsuz da sabit deyildi, vertolyot hadisələrindən sonra ermənilər vəziyyəti daha da gərginləşdirməyə çalışırlar. Odur ki, Azərbaycan ordusunu hazır vəziyyətə gətirmək müsbət haldır. Biz daim bütün təxribatların qarşısını almağa, düşməni dəf etməyə hazır olmalıyıq. Yəni biz də qəbul etməliyik ki, vəziyyət hər an dəyişə bilər. Digər tərəfdən, cəbhə bölgəsindəki bu cür tədbirlər düşmənə mesajdır".

**Bu mənada A.İsazadə ordu rəhbərliyinin düşmənin davranışlarına verdiyi reaksiyanı məntiqli sayır:** "Müdafiə Nazirliyi rəhbərliyinə hansısa irad tutmağa səbəb yoxdur. Sözsüz ki, gücümüzü artırmaq istiqamətində atılan addımlar müsbət haldır. Digər tərəfdən, başa düşməliyik ki, məşhur ifadə ilə desək, tamaşanın əvvəlində divardan tüfəng asılıbsa, sonunda mütləq atəş açılma ehtimalı var. Bu gün regionda qeyri-sabit vəziyyət hökm sürür, bunu yaddan çıxartmaq olmaz. Cənubi Qafqazda bu qədər silahların yığılması qaynar münaqişəyə gətirib çıxara bilər. Azərbaycanda hərbi büdcənin artırılması, yeni silahların alınması halında erməni iqtisadiyyatı çökür, bu, real mənzərədir. Ancaq yenə də düşməndən qat-qat üstün olmaq istiqamətində tədbirlər davam etdirilməlidir".

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov da müdafiə naziri Zakir Həsənovun cəbhə bölgəsindəki son addımlarını təqdir etdi:** "Bu, çox yaxşı haldır. Nazirin bütün komandası ilə birlikdə döyüş bölgəsinə nəzarət etməsi, artilleriya qoşunları üçün alınmış odatan silahlardan təlim məqsədilə atəşin açılması, hədəflərin müəyyən olunması, həmçinin general Qorxmaz Qarayev və digər şəxslərlə birlikdə şəxsi heyətin vəziyyəti ilə maraqlanması, yeni kazarmaların tikintisinə nəzarət etməsi çox müsbət hallardır. Nəzərə alsaq ki, Ermənistan 12 noyabr hadisələrdən sonra daha da aqressivləşib, Azərbaycanın qabaqlayıcı addımlar atması çox vacibdir. Sadəcə, komandanlıq nəzərə almalıdır ki, bizim əsgərlərin həyatını qorumalıdır və əsgərlərimiz də son dərəcədə ehtiyatlı olmalıdır. Çünki qarşıdakı düşməndir və o, çox hiyləgərdir".

****

Bu arada Azərbaycanın güc nümayişinin qarşılığında Ermənistan artıq əsgər çatışmazlığı ilə üz-üzə qalıb. Məlumata görə, bu ölkədəki çağırışçı sayını müəyyən etmək istəyən istənilən beynəlxalq cəhdi düşməncəsinə qarşılayırlar. Axırıncı belə bir hadisə keçən ay baş vermişdi. Ermənistanın Avrasiya İttifaqına daxil olması münasibətilə gəlmiş Rusiya hərbi nümayəndə heyətinin bu cəhdi erməni mətbuatında sərt tənqid edilmişdi. ANS-in araşdırmasına görə, Ermənistan rəsmilərinin bu cidd-cəhdi erməni ordusunun dəqiq sayını gizlətmək istəyi ilə bağlıdır.

Məlumatda deyilir ki, TACİS proqramı tərəfindən Cənubi Qafqaz ölkələri üzrə 2000-ci ildə buraxılmış statistika toplusunda 1996-cı ildə Ermənistanda təxminən 25 min oğlan dünyaya gəlib. Həmin müddətdən bu yana Ermənistanda rəsmi qeydiyyata olan əhali təxminən 20 faiz azalıb. Beləliklə, Ermənistan həm işğal edilmiş Azərbaycan ərazilərində, həm də öz ərazilərində dislokasiya olunmuş silahlı qüvvələrinə ildə 20 mindən artıq çağırışçı təmin edə bilməz. Xəstələri, tələbələri və s. nəzərə aldıqda real say daha aşağıdır. Ermənistanda müddətli hərbi xidmətin 2 il olduğu nəzərə alınarsa, düşmən ordusunun əsgər sayının 40 mindən çox olmadığını anlamaq olur. Halbuki Ermənistan rəhbərliyi toplam güclərinin 70-80 min ətrafında dəyişdiyini iddia edir. Məhz bu cür müəmmalı məlumatlara görə, beynəlxalq təhlil qurumları tutduqları reytinq siyahılarına Ermənistan ordusunu salmırlar. Azərbaycan ordusu isə Rusiya, Ukrayna və Özbəkistan ordularından sonra postsovet məkanı üzrə 4-cü yeri tutur.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN



# Rusiyadan gələcək işsizlər ordusu sabitliyi poza bilər

## Samir Əliyev: "Bu ölkədə baş verənlərin Azərbaycana sosial və sabitlik baxımından neqativ təsirləri ola bilər"

Rusiyada baş verən iqtisadi böhranın Azərbaycan üçün olduqca ciddi mənfi nəticələri olacağı bildirilir. Ekspertlərin fikrincə, iqtisadi böhran səbəbindən Rusiyadan qayıdanlar ölkədə sosial problemlərin daha da kəskinləşməsinə səbəb olacaq. Rusiyadan gələn pul axınının kəskin azalacağı gözlənilir. Neftin qiymətinin aşağı düşməsi də hadisələrə təsir göstərəcək faktorlardan biridir.

Baş verənlərin ət və ət məhsullarının qiymətinə də təsir göstərəcəyi və qiymətlərin bahalaşacağı bildirilir.

Bildirilir ki, iqtisadi böhran və sanksiyalar səbəbindən Rusiya bu qışı fəlakətlə üzləşə bilər. Bu səbəbdən Rusiya hökuməti bu aydan ölkəmizdən quş əti, süd və balıq məhsulları almağı planlaşdırır. İlin sonuna qədər Azərbaycandan bir sıra məhsulların idxalına icazə veriləcək.

Ekspertlərin narahatlığı həm də onunla bağlıdır ki, işsizlik ölkədə ciddi problem olaraq qalır və Azərbaycan iqtisadiyyatının yeni işçi ordusunu həzm etmək gücü yoxdur. Həmçinin regionlarda sosial problemlərin artması ciddi fəsadlar yarada və etirazlar doğura bilər.

**İqtisadçı ekspert Vüqar Bayramov musavat.com-a açıqlamasında bildirib ki, pul köçürmələrinin həcminin azaldılması arzuolunan deyil:** "2014-cü ildə Rusiyadan Azərbaycana olan pul köçürmələrinin həcmində kəskin azalma müşahidə olunub. Rəsmi hesablamalar bu məbləğin 1 milyard dollar olduğunu deyir. Lakin bəzi mənbələr köçürülən vəsaitin həcminin rəsmi hesablamalardan 2 dəfəyədək çox olduğunu - 2 milyard dollara yaxın olduğunu bildirir. Bununla belə, 2015-ci ildə bu məbləğin 30 faiz azalacağı proqnozlaşdırılır. Beləliklə, məbləğ yeddi yüz milyon dollara enəcək. Buna səbəb isə Rusiyaya qarşı tətbiq olunan iqtisadi sanksiyalar, Rusiyadakı iqtisadi böhran və rus rublunun aşağı düşməsidir. Rusiyadan Azərbaycana pul köçürmələrinin həcminin azalması ölkə iqtisadiyyatına ciddi təsir etməyəcək".

**Ekspertin sözlərinə görə, qonşu ölkədən göndərilən pullar ümumi daxili məhsulun (ÜDM- 75 milyard dollar) yalnız 1,3 faizini, dövlət büdcəsi xərclərinin isə cəmi 4 faizini təşkil edir:** "Bununla belə, nəzərə alsaq ki, Rusiyadan Azərbaycana göndərilən vəsaitin çoxu regionlarda yaşayan ailələrə göndərilir. Demək, köçürülən vəsaitin həcminin azalması bir çox ailələrin sosial vəziyyətinin pisləşməsinə səbəb olacaq. Bu səbəbdən pul köçürmələrinin həcminin azaldılması istənilən halda arzuolunan deyil".

**Ekspert Samir Əliyev isə musavat.com-a açıqlamasında qeyd edib ki, Rusiyada sanksiyalardan dolayı iqtisadi vəziyyətin pisləşməsinin Azərbaycana mənfi təsiri şübhəsizdir:** "Bunun kökündə əsasən bu durur ki, xeyli sayda soydaşımız çörəkpulu qazanmaq üçün Rusiyaya üz tutub. Müxtəlif hesablamalara görə, onların sayı 2 milyona çatır. Rəsmi və qeyri-rəsmi yollarla il ərzində ölkəyə ən azı 2-3 milyard dollar məbləğində vəsait daxil olur. Bütün bunların əksəriyyəti ailələrin dolanışığını təşkil edir. Nəzərə alsaq ki, Rusiyaya iş dalınca gedən soydaşlarımızın demək olar ki, hamısı regionları təmsil edir. Deməli, Rusiyada vəziyyətin pisləşməsi ilk növbədə Azərbaycanın regionlarına, o cümlədən rayon və kənd əhalisinin sosial rifahına neqativ təsir göstərəcək".

Onun sözlərinə görə, 2014-cü ildə rus rublunun ABŞ dollarına nisbətən təxminən 38 faiz ucuzlaşması Azərbaycana göndərilən pulların dəyərini də azaldıb: "Əgər ilin əvvəlində hər 1000 rubla 23 manat verilirdisə, hazırda bu rəqəm 17 manata düşüb.

Birdən-birə soydaşlarımız hər 1000 rubla görə 6 manat itirir. Bu da onların gəlirlərinin azalmasına səbəb olur. Rusiyada biznesin pisləşməsi ölkəmizə işsizlər ordusunun axışması ilə nəticələnə bilər ki, bunun da sosial təsirləri ilə yanaşı siyasi, o cümlədən sabitlik baxımından neqativ təsirləri ola bilər".

❑ RÖYA

# Sürücülərə şad xəbər - benzin ucuzlaşa bilər

**Dünya bazarında neftin qiymətinin aşağı düşməsi bir çox ölkələrdə benzinin də ucuzlaşmasına səbəb olub. Artıq Avropa ölkələrində benzinin satışında ucuzlaşma müşahidə olunur. Bəs görəsən, bu durum Azərbaycanda da benzinin qiymətinə təsir edəcəkmi? Adətən ölkəmizdə neftin qiyməti artan kimi benzinin də qiyməti artır. Bəs neftin ucuzlaşması bazarda necə əksini tapacaq?**

## Vüqar Bayramov: "Avropada benzinin qiymətinin enməsi Azərbaycana da təsir edəcək"

İqtisadçı ekspert Vüqar Bayramov deyir ki, yaxın günlərdə benzinin ucuzlaşması qaçılmazdır: "Benzinin qiyməti ilə neftin qiyməti arasında birbaşa əlaqə var. Nəzərə alsaq ki, neftin qiyməti ucuzlaşdıqdan sonra benzinin istehsal xərcləri də azalır. Bu səbəbdən benzinin satış qiyməti də təbii olaraq ucuzlaşır.

Biz Avropa bazarına baxsaq, orada da benzinin qiymətində ucuzlaşmalar yeni-yeni müşahidə edilməyə başlayıb. Artıq bu həftədən başlayaraq Avropa ölkələrində benzin daha ucuz təklif olunur.

Bundan çıxış edərək demək olar ki, Avropada benzinin qiymətində azalmalar olduğu üçün Azərbaycanda da benzinin qiymətində ucuzlaşma olacaq. Ancaq neftin ucuzlaşması və bunun benzinin qiymətində əksini tapması arasındakı zaman fərqinin səbəbi isə odur ki, benzin istehsal edən zavodların müəyyən müddət üçün ehtiyatları olur. Onlar bu ehtiyat bazanı neftin baha olduğu dövrdə alıblar. Çünki istehsalın fasiləsizliyini təmin etmək üçün zavod məcburdur ki, müəyyən ehtiyata malik olsun. Ancaq zavod nefti ucuz alarsa, o zaman benzini də daha ucuz qiymətə bazara çıxardacaq. Yaxın günlərdə "Premium Avro-95" və Ai-98 markalı benzinin qiymətlərində azalmalar olmalıdır. Çünki Avropada bu həftədən başlayaraq benzinin qiyməti aşağı düşməkdədir. Nəzərə alsaq ki, Azərbaycan benzini Mərkəzi və Şərqi Avropadan idxal edir, həmin ölkələrdə benzinin ucuzlaşması Azərbaycanda da birmənalı şəkildə ucuzlaşmaya səbəb olacaq. Bu baxımdan Aİ 92 markalı benzinin qiyməti isə dövlət tərəfindən tənzimləndiyi üçün hər hansı ucuzlaşma olmayacaq".




Adətən benzin bahalaşan kimi bir çox işbazlar bundan psixoloji amil kimi istifadə edərək, əksər məhsulların qiymətini artırırlar. Ancaq benzin ucuzlaşanda bu, bazarda qiymətlərə təsir etmir. Bazardakı bu anormal durumu dəyərləndirən iqtisadçı ekspert də təsdiq edir ki, benzinin qiyməti artan kimi bu, digər məhsulların qiymətinə də təsir edir, ancaq benzin ucuzlaşanda ölkədə digər məhsulların ucuzlaşması müşahidə olunmur: "Bu baxımdan çox təəssüf ki, biz benzinin ucuzlaşacağını proqnozlaşdıra bilsək də, digər məhsulların ucuzlaşacağını proqnozlaşdıra bilmirik. Bunun bir səbəbi psixoloji faktorlardır, digər bir səbəbi isə ölkədə istehlak məhsullarına çıxışın məhdud olmasıdır. Sözsüz ki, iş adamları benzinin bahalaşmasından psixoloji faktor kimi istifadə edirlər, istehlak məhsullarının qiymətini artırırlar".

❑ Nərgiz LİFTİYEVA

# Gender bərabərliyinin təminatında medianın rolunun artırılması yolları

**Qadın - kişi bərabərliyi qadınların və kişilərin eyni hüquq və öhdəliklərə sahib olması və hər kəsin cəmiyyət içərisində eyni imkanlara sahib olması deməkdir. Bu bərabərlik, eyni zamanda ailə, cəmiyyət içərisində ədaləti və məsuliyyəti ifadə edir.**



**Dosye: Qəmbərova Türkan Vahid qızı 1988-ci ildə Gəncədə anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin məzunudur. Artıq 6 ildir ki, bu sahədə çalışır. Gender məsələləri ilə bağlı xarici mütəxəssislərin araşdırmalarını, yeniliklərini izləyir və bu mövzuda Azərbaycandakı vəziyyəti öyrənir.**

Azərbaycan qadınının cəmiyyətdə çox önəmli yeri var. Azərbaycan qadını ailə və cəmiyyət arasında bir körpüdür. Ona görə qadınları önə çəkdim ki, cəmiyyətdə gender balansının pozulmasında əsas tərəf zərif cinsin nümayəndələrinin hüquqlarının özləri və digərləri tərəfindən pozulmasıdır. Uzun illər boyunca qadın uşaqların tərbiyəsiylə, ailənin gündəlik ehtiyaclarının ödənməsiylə məşğul olub və belə demək olarsa, ailənin yükü, qayğısı onun üzərində olub. Hər hansı qərarın qəbulunda qadınların iştirakı bir o qədər də yüksək olmayıb. Amma bu gün bu stereotiplərdən azad olub, özünü təsdiq edən, cəmiyyətdə baş verən proseslərdə aktiv iştirak edən fəal, güclü qadınlar var. Təbii ki, bu prosesi daha da gücləndirmək, inkişaf etdirmək üçün ilk növbədə təhsil sahəsini təkmilləşdirmək gərəkdir. Yüksək təhsil, bilik, dünyagörüş, intellektual səviyyə gender bərabərliyinin təmin olunmasında vacib məqamlardır. Qeyd etdiyim kimi, cəmiyyətin inkişafının təməlində qadının rolu var. Bu səbəbdən də qadınların siyasi, sosial, mədəni və iqtisadi həyatda iştiraklarını təmin edəcək bütün hüquqlarının kişilərlə bərabər şəkildə faydalanmaları ölkəmiz üçün də aktual bir məsələdir. Gender bərabərliyinin təmin edilməsi məqsədilə ilk olaraq qadınlar hüquqlarına sahib çıxmalı və bu hüquqların həyata keçirilməsi istiqamətində addımlar atmalıdırlar.

Qadınlara qarşı şiddətin hər bir formasının aradan qaldırılması üçün müəyyən qanunlar qəbul edilib. Ən əsası da bu qanunlar çərçivəsində qadınlar hüquqlarının qorunmasını təmin etməlidir. Gender bərabərliyi təkcə qanundakı bərabərliyi nəzərdə tutmur, bu həm də o deməkdir ki, ictimai və siyasi həyatın bütün sahələrində qadınlarla kişilər bərabər mövqeyə, bərabər səlahiyyətlərə, vəzifələrə və eyni dərəcədə iştiraka malikdirlər. Qanunverici orqanlarda qadınların iştirakını artırmaq üçün spesifik məqsədlər daşıyan konkret tədbirlərə ehtiyac var. Qadınlar maliyyə cəhətdən müstəqil olmalı və hökumətlər əmək bazarında bərabərliyə əməl olunmasını təmin etməlidir.

Gender bərabərliyinin təminatında medianın əsas fəaliyyət istiqaməti bu sahədə mövcud olan hüquq və öhdəlikləri mütəmadi olaraq işıqlandırmaq, cəmiyyət üzvləri arasında maarifləndirmə prosesini genişləndirməkdir. Bu sahə elə həssas bir nöqtədir ki, onu arxa planda saxlamaq arzuolunan hesab edilmir. Nəzərə alsaq ki, kütləvi informasiya vasitələri cəmiyyətin həyatında və insanlarda ictimai rəyin formalaşmasında bilavasitə rol oynayır, demək ki, media gender balansının qorunmasında da müsbətə doğru dəyişiklik etmək iqtidarındadır.

Kişilərlə qadınlar arasında qanunda və təcrübədə bərabərlik insan hüquqlarının və demokratiyanın ayrılmaz tərkib hissəsidir. Bərabərsizliyin saxlanmasını özümüzə rəva görə bilmərik, çünki bərabərlik olmadan demokratiya da tamam olmur.

**Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və D.Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiya tərəfindən icra edilən və ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşən Counterpart İnternationalın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən «CEDAW ƏMƏLDƏ» adlı layihəsi üçün hazırlanıb.**

YENİ MÜSAVAT
N 290 (5999) 27 noyabr 2014

# Rusiya çöllərində "yol əhvalatı"....



## Şimal qonşumuzda köhnə avtobuslar hələ də sərnişinlərə xidmət göstərir; rublun ucuzlaşması maşın bazarını "vurub"

**Rusiyanın nəqliyyat infrastrukturu çox geridə qalıb. Bu ölkədə şəhərlərarası reyslərdə işləyən avtobuslar Azərbaycanda çoxdan metalloma göndərilib. Hətta ucqar dağ rayonlarına belə avtobuslar işləmir. Şimal qonşumuzda isə köhnə-kəşkül, oturacaqları, şəraiti bərbad, komfortdan uzaq avtobuslar hələ də sərnişinlərə xidmət göstərir. Əgər buna xidmət demək mümkünsə...**

***

Rusiyada, əsasən də Dağıstanda sərnişinlər yırtıq-yamaq avtobuslara öyrəşiblər. Ölkənin yolları geniş, tıxacsız olsa da, bu cür köhnə avtobuslar mənzil başına çox gec çatırlar. Məsələn, 5 saatlıq yolu 12 saata qət edirlər.

Üstəlik, Rusiyada yol qəzaları da azdır. Sürücülər bunu belə izah edirlər ki, təhlükəsiz, qəzasız getməyin ən yaxşı yolu gec çatmaqdır. Qəzaların sayının statistik baxımdan az olmasının səbəbi də məhz bu amillə bağlıdır.









Ancaq bu arqument elə Rusiya ərazisində ayaq tuta bilər. Çox uzağa getmədən Türkiyəni göstərmək olar. Səliqəli, komfort avtobuslar, içərisində hər bir sərnişin üçün kiçik monitorlu televizor, çay, kofe təklifi, pulsuz səhər yeməyi belə var. Üstəgəl, avtobusları nə təhlükəli idarə edirlər, nə sürət həddini aşırlar. Vaxtında ünvana çatırlar və Türkiyə yollarında avtobus qəzaları da çox deyil. Sadəcə, Rusiyada nəqliyyat sahəsində korrupsiya halları var və bu infrastruktura investisiya qoyulmur.

Əslində çox qısa bir müddətdə avtobusları, marşrutları müasirləşdirmək olar. Ancaq hələ də "İkarus" markalı avtobuslar, oturacaqları sökülüb-tökülmüş nəqliyyat vasitələri Rusiya çöllərində şütüyür. Hətta əməkdaşlarımız İraqda olanda da belə bir halla qarşılaşmayıblar...

***

Şəhərdaxili marşrut sisteminə gəlincə, burada vəziyyət nisbətən qənaətbəxşdir. Eyni zamanda trolleybusları da şəhər küçələrində görmək olur. Gedişhaqqı təxminən 10 rubldur. Küçələrdə ekanom sinfinə aid avtomobillər çoxluq təşkil edir.

Amma ruslar hələ də sovet istehsalı olan maşınlardan qurtula bilməyiblər. Azərbaycanın nəinki paytaxtında, artıq rayonlarında "Jiquli" markalı maşınların sayı azalıb. Qonşu ölkədə isə sovet maşınları hələ də geniş istifadədədir. Yalnız bir nüansı demək lazımdır ki, ictimai nəqliyyatda mədəniyyət çox yüksəkdir. Avtobuslarda sərnişinlər bir-birinə yol verir, kobud davranış görməzsən, səs-küy, qışqırıq eşidilmir, tıxac yarananda siqnal səsi eşitmək mümkün deyil.



Əgər Rusiyada siqnal səsi, maşınında yüksək səsdə musiqi dinləyən, şüşəsini açıb bağıran görsəniz, Qafqaz xalqlarının nümayəndəsi olduğuna şübhə etməyin. Çox təəssüf ki, ruslar bu "etika"nı sərgiləyən hər kəsin qafqazlı olduğunu zənn edirlər.



Ümumilikdə, Rusiyanın nəqliyyat sistemi inkişafdan qalıb və Azərbaycan bu ölkəni ötüb. Hələ də "QAZel" markalı maşınlar marşrut kimi istifadə olunur, "Hundai", "Temsa" kimi müasir avtobuslar Rusiyanın bir çox vilayətlərinə gəlib çıxmayıb. Rusiyada yaşayan azərbaycanlılar danışırlar ki, bunun başlıca səbəbi vəsait ayrılmaması və maxinasiya hallarıdır.

***




Rusiyanın maşın bazarında da kəskin bahalaşma qeydə alınıb. Avtosalonlarda qiymətlərin qəfil artımı müşahidə olunur. Bunun səbəbi rublun dəyərinin sürətlə düşməsidir ki, maşın bazarına da ciddi təsir göstərib. Bu bahalaşmanın dekabr və yanvar aylarında daha da artacağı proqnozlaşdırılır. Qiymət artımı Azərbaycanda maşın bazarına qismən təsir göstərəcək. Çünki ölkə ərazisinə sovet istehsalı olan maşınların idxalı dayandırılıb. Xarici markalı avtomobillərin isə Azərbaycana gətirilməsi əsasən Gürcüstandan həyata keçirilir. Bu halda bahalaşma dalğası Azərbaycanın maşın bazarını çox ağır şəkildə "vura" bilməyəcək.



Qeyd edək ki, son zamanlar köhnə sovet və Rusiya istehsalı olan avtomobillər istismar dövriyyəsindən çıxmağa başlayıb. Bunun əsas səbəbi Rusiyadan ölkəmizə gətirilən maşınlara qoyulan qadağalar və onların dövlət standartlarına uyğun olmamasıdırsa, digər səbəbi əhalinin o avtomobillərə marağının azalmasıdır.




Ekspertlər isə hesab edirlər ki, yararsız olan sovet istehsallı maşınların paytaxt yollarında istismarı məhdudlaşdırılmalıdır. Hətta bəziləri bu maşınların metal emalı zavodlarına verilməsini məsləhət görürlər. Rusiyada isə buna gərək görmürlər, yollarda dağılıb-tökülmüş avtobuslar "at oynadır"...

*(ardı var...)*

**❑ "Yeni Müsavat"ın Reportyor Qrupu Həştərxan-Stavropol**



## Bakıda zibillikdən yeni doğulmuş uşaq tapılıb

**Bakıda küçədə yeni doğulmuş uşaq tapılıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, noyabrın 25-də Nəsimi Rayon Polis İdarəsinin 19-cu polis bölməsi əməkdaşları tərəfindən Moskva prospekti ev 86-nın qarşısındakı məişət tullantıları üçün ayrılmış ərazidə yeni doğulmuş qız uşağı tapılıb və o, 1 saylı körpələr evinə təhvil verilib.**

Araşdırmalar aparılır.

## Azərbaycan vətəndaşı Türkiyədə yoxa çıxıb

### 2013-cü ilin yayında isə həmin gəncin qardaşı itkin düşüb

**Türkiyədə azərbaycanlı gənc itkin düşüb. APA-nın məlumatına görə, bu barədə İnterpolun saytında məlumat yerləşdirilib. Məlumatda qeyd olunur ki, Azərbaycan vətəndaşı, 23 yaşlı İmanov Elçin Bəkir oğlu Türkiyənin Hatay şəhərində yoxa çıxıb.**

E. İmanovun özündən 3 yaş böyük qardaşı Həzi İmanov da 2013-cü ilin yayında Türkiyənin Hatay şəhərində itkin düşüb. Onun itkin düşməsi haqqında məlumatlar bu ilin yayında İnterpolun saytında yerləşdirilib. Hazırda onların tapılması istiqamətində beynəlxalq axtarışlar davam etdirilir.

## Azərbaycan həbsxanalarında 500 əcnəbi saxlanılır

**Penitensiar xidmətin cəzaçəkmə müəssisələrində 22 ölkədən 500 nəfərədək əcnəbi cəza çəkir. Bu barədə "Trend"in rəsmi sorğusuna cavab olaraq Ədliyyə Nazirliyi Penitensiar xidmətindən bildiriblər. Qeyd edilib ki, Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrində Belarus, Böyük Britaniya, Çin, Əfqanıstan, Gürcüstan, Hindistan, İordaniya, İran, İsrail, Qazaxıstan, Litva, Nigeriya, Pakistan, Rusiya, Türkiyə, Ukrayna, Suriya, Kamboca, Slovakiya, Kamerun, Özbəkistan və Türkmənistan vətəndaşları cəza çəkirlər.**

Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrində saxlanılan xarici ölkə vətəndaşları arasında Rusiya, Özbəkistan, İran, Türkiyə və Gürcüstan vətəndaşları əksəriyyət təşkil edirlər. Onlar əsasən narkotik vasitələrin qanunsuz dövriyyəsinə, oğurluğa və sərhəd pozuntusuna görə məhkum olunmuş şəxslərdir.

Qeyd edilir ki, cəzaçəkmə müəssisələrində cəza çəkən xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 10-cu maddəsində nəzərdə tutulmuş hüquqları tam təmin olunur. Təmsil olunduqları ölkələrin diplomatik nümayəndəliklərinə həmin şəxslərə baş çəkilməsi üçün müvafiq şərait yaradılır.

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

## Bakıda 300 pərdəli maşın sahibi cərimələndi

**"Maşınların arxa və yan şüşələrinə standarta uyğun pərdə və jalüzlərin vurulması halları azalıb". Bunu modern.az-a Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Vaqif Əsədov deyib.**

Onun sözlərinə görə, pərdə və jalüzlərdən istifadə edənlər birmənalı olaraq cərimələnir: "Dünən 3 nəfər, bu gün isə 1 nəfər pərdə və jalüzlərdən istifadə etdiyinə görə saxlanılıb. Bu ayın 16-dan bu günə qədər 300-ə yaxın belə halla rastlaşmışıq. Qanunları pozanlara qarşı inzibati protokol tərtib olunub. Protokolda 150 manat cərimə olunması göstərilir".

Tanınmış simaların qanunlara əməl etməməsinə gəlincə, Vaqif Əsədov hələlik belə faktla rastlaşmadıqlarını bildirib: "Bəzi tanınmış simalar hər hansı qayda pozuntusuna yol verdikdə "yol polisi məni tanıdığına görə heç bir cəza tətbiq etmədi" deməklə asayişi qoruyan polisi aşağılamaq istəyirlər, buna yol vermək olmaz. Polisi cəmiyyətə bu cür təqdim etməyin! Ümumiyyətlə, belə məsələlərin açıq şəkildə deyilməsi cəmiyyətdə insanlar arasında polis əməkdaşlarına qarşı yanlış fikirlərin yaranmasına gətirib çıxarır".

## Ayın sonuna qədər yağış və soyuq olacaq

**Noyabrın sonuna kimi ölkə ərazisində qeyri-sabit, yağıntılı hava şəraiti davam edəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında noyabrın 27-də buludlu hava şəraitinin üstünlük təşkil edəcəyi, gün ərzində yağıntılı olacağı gözlənilir. Şimal küləyi əsəcək. Havanın temperaturunun gecə 4-6, gündüz 6-8 dərəcə isti olacağı gözlənilir.**

Azərbaycanın rayonlarında noyabrın 27-də hava şəraitinin fasilələrlə yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 0-5, gündüz 5-10 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacağı gözlənilir.

## Bakıdan Xırdalana elektrik qatarı xətti çəkiləcək

**Bakıdan Xırdalan şəhərinə elektrik qatarı xətti çəkiləcək. "APA-Economics"in məlumatına görə, bu barədə jurnalistlərə nəqliyyat nazirinin müavini Musa Pənahov bildirib. Nazir müavininin sözlərinə görə, artıq xəttin çəkilməsi istiqamətində hazırlıq işləri aparılır. M. Pənahov əlavə edib ki, layihə aidiyyəti qurumlarla razılaşdırıldıqdan sonra bunu onun icrasına başlanılacaq.**

## "Nar Mobile" daha bir sosial layihəni uğurla başa çatdırdı

### "Nitq və eşitmə qüsurlular üçün məktəb" layihəsi çərçivəsində 25 gənc müxtəlif peşələrə yiyələndi

**Bu gün Azərbaycanda nitq və eşitmə qabiliyyəti məhdud olan 8 mindən çox insan yaşayır. Bu vətəndaşların başlıca problemi məşğulluqdur. Ölkədə fiziki imkanları məhdud olan şəxsləri işlə təmin edən çox az sayda şirkət mövcuddur. Belə şirkətlərdən biri də 15 nəfər nitq və eşitmə qüsurlu vətəndaşın çalışdığı "Nar Mobile" mobil operatorudur. Bundan əlavə, şirkət belə vətəndaşların cəmiyyətə inteqrasiya edilməsi istiqamətində çoxsaylı layihələr həyata keçirir. Yenicə başa çatdırılan "Nitq və eşitmə qüsurlular üçün məktəb" layihəsi məhz belə layihələrdəndir. Layihə çərçivəsində üç ay ərzində eşitmə və nitq qabiliyyəti məhdud olan 15-28 yaşlarındakı 25 gənc floristika, bərbərlik, dekorativ əl işləri və kompüter texnologiyaları istiqaməti üzrə 4 müxtəlif kursun iştirakçısı olmuşdur.**

**Qeyd edək ki, bu, "Nar Mobile"ın fiziki imkanları məhdud olan vətəndaşların cəmiyyətə inteqrasiya edilməsi istiqamətində göstərdiyi ilk fəaliyyət deyil. Artıq bir neçə ildir ki, şirkət "Eşitməmək düşünməmək deyildir" adlı layihəni həyata keçirir. Bu layihə çərçivəsində şirkət eşitmə və nitq qabiliyyəti məhdud olan gəncləri işə cəlb etməklə yanaşı, eyni zamanda sosial inkişaf üçün onları digər əməkdaşlarla eyni imkanlarla təmin edir. Hal-hazırda şirkətdə nitq və eşitmə qüsurlu 15 vətəndaş çalışır. Öz təcrübəsindən çıxış edən "Nar Mobile" mobill operatoru digər şirkətləri də fiziki imkanları məhdud olan şəxsləri işlə təmin etməyə çağırır.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile", 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. "Nar Mobile" Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**

## Elan

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon: (050) 3885035**

## «Azercell» abunəçilərinin sayı 4.6 milyonu ötdü!

**Azərbaycanın mobil rabitə bazarının 51 %-nə nəzarət edən, şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edən «Azercell» Telekom MMC abunəçilərinin sayı 4.6 milyonu ötdü. Hazırda 4.6 mln artıq abunəçi ilə «Azercell» Azərbaycan mobil rabitə bazarının lider şirkətidir. Fəaliyyətə başladığı gündən etibarən şirkət öz abunəçilərini yalnız ən keyfiyyətli və ən yaxşı məhsullara layiq bilib. «Azercell»in abunəçiləri daim telekommunikasiya dünyasının nəbzini tutur, ən son texnologiyalardan xəbərdar olurlar. «Azercell»in lider olması onun fəaliyyət göstərdiyi bütün sahələrdə daim təkmilləşməyə, yenilənməyə və öndə getməyə sövq edir. «Azercell» bir çox yenilikləri Azərbaycana gətirdi. Şirkət fakturasız xətt sistem, mobil internet, mobil bank, mobil naviqasiya, avtomobillərin idarə olunması, BlackBerry həlləri, 4G, Asan İmza, cihazdan- cihaza (M2M), bir nöqtədə üç xidmət konsepsiyası («Azercell» Ekspres ofisləri), fasiləsiz çalışan telefon mərkəzi, həftədə 7 gün çalışan Ön Masa müştəri xidmətləri, korporativ abunəçilər üçün müştəri xidmətləri, təcili onlayn müştəri xidmətləri və s. innovasiyaları təqdim edən ilk mobil operator olmuşdur.Bu gün 4,6 milyonluq abunəçi ailəsi olan «Azercell» öz faydalı təklifləri və yüksək keyfiyyəti ilə müştərilər üçün ən əlverişli seçimdir. Məhz «Azercell»də üç milyondan artıq abunəçi, yəni müştəri bazasının 70%, üçüncü dəqiqədən sonra sıfır tariflə danışır - bunların bir milyonu "Bölgə" tarifinin, digər iki milyonu isə gənc seqmentlər üçün tariflərin istifadəçiləridir.**

**«TeliaSonera» ailəsinin bir üzvü kimi şirkət yalnız Azərbaycan deyil, bütün regionda belə ilk dəfə olaraq 4G texnologiyasını müştərilərin kommersiya istifadəsinə təqdim edib. Ötən ilin sonuna mövcud olan 5 minə yaxın baza stansiyasından 261-si məhz Bakı və Abşeron yarımadasını əhatə edən «LTE» (4G) şəbəkəsinə xidmət edir. Dünyada mobil internetin sürətini ən dəqiq ölçən sistem - "Ookla Net Index" göstəricisinə əsasən «Azercell»in təqdim etdiyi Mobil İnternet Azərbaycanın mobil operatorları arasında ən sürətlisidir. Belə ki, sistem ölçmələrinə əsasən «Azercell» hazırda saniyədə 6,12 MB sürətli İnterneti təqdim edir. «Azercell» uzun müddətdir ki, qeyri-neft sektorunun ən böyük vergi ödəyicisi və sərmayədarı kimi də tanınır. «Azercell»in bu illər ərzində Azərbaycanın telekommunikasiya sektoruna yatırdığı sərmayənin ümumi məbləği 1 milyard ABŞ dollarından artıqdır. Şirkətin dövlət büdcəsinə ödədiyi vergilər isə 1 milyard ABŞ dollarından artıq məbləği təşkil edir.**

**«Azercell» bu 18 ilə yaxın müddət ərzində telekommunikasiya bazarından kənardakı fəaliyyəti ilə də öndə olub. Korporativ Sosial Məsuliyyət anlayışını Azərbaycanda tanıtdıran şirkət indiyə qədər təhsil, səhiyyə, idman, mədəniyyət, gənclər və uşaqların inkişafı sahəsindəki sosial layihələrin həyata keçirilməsinə son 18 il ərzində 18 mln ABŞ dollarından artıq vəsait sərf edib.**

**Sürətlə dəyişən bu mühitdə «Azercell» daim müştərilərin ehtiyaclarını anlamağa çalışır. Çevikliyi və yenilikçiliyi əsas tutaraq, «Azercell» abunəçilərə həm keyfiyyətli həm də sərfəli məhsullar və xidmətlər təklif edir, və bu istiqamətdə öz fəaliyyətini davam etdirir.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**«Azercell» Telekom MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell» Ekspres ofisləri, mobil elektron xidməti "Asan İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51% olan «Azercell»in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2013-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell» 3G, 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır.**





# Bazarlar dolu, ərzaqlar baha, cib boş...

## Qiymət artımında Rusiya amili də özünü göstərməyə başlayıb; iqtisadçı ekspert: "bahalaşma həm də psixoloji faktora bağlıdır..."

**Ölkədə ərzaq məhsulları oktyabr ayında 6 faiz bahalaşıb. Ay ərzində buğda ununun, manna yarmasının, peçenyenin, toyuq və toyuq məhsullarının, balıq məhsullarının, quru südün, yumurtanın, günəbaxan yağının, mərcinin və şəkər tozunun qiymətində qalxma müşahidə olunub. Mütəxəssislər bunun qış mövsümündə daha qabarıq formada özünü göstərəcəyini bildirirlər.**

Bazar və ərzaq dükanlarındakı vəziyyətlə daha yaxından tanış olmaq üçün əvvəlcə paytaxtın ən ucuz bazarı sayılan "8-ci kilometr" bazarına baş çəkdik. Səhər saatları olduğundan alıcıların sayı çox deyildi. Qiymətlərlə maraqlandıq. Satıcıların sözlərinə görə, bir sıra məhsulları artıq baha satırlar.

**Tərəvəz satıcısı Afaq Rəsulova deyir ki, mövsümlə əlaqədar pomidor-xiyarın qiymətində fərq var:** "Pomidorun qiyməti indi 2 manatdır. Əvvəllər isə 1 manata satırdıq. Alıcılar da əvvəlki kimi deyil. Artıq pomidor-xiyar alanların sayı azalıb".

Qeyd edək ki, qiymət artımı bazardakı bütün məhsullarda müşahidə edilirdi. Lobya 2 manat, kartof 1 manat, kələm 80 qəpik, pomidor 2 manat, xiyar 1 manat 50 qəpik, alma 50 qəpik, 1 manat, heyva 1 manata satılırdı.

Baş çəkdiyimiz ikinci bazar məhsulların daha çox topdansatışı ilə seçilən "Yaşıl bazar" oldu. Məhz buna görə bazarda xeyli bolluq müşahidə olunurdu. Lakin alıcı və arabalar boş idi. Çünki bazara üz tutanlar arabaları dolduracaq qədər bazarlıq etmirdilər. Onların bazarda daha zəruri məhsulları aldığını deyən **kartof satıcısı Ənvər Qasımov bildirdi ki, insanlar ən çox kartof-soğan alır:** "Artıq qışdır. Ona görə də insanlar mövsümü ərzaqlar alır".

Bazardakı ümumi qiymətlərə gəlincə, kartofun 1 kiloqramı 1 manat, soğan 60 qəpik, pomidor 2 manat 50 qəpik - 4 manat arası, xiyar 2 manat, alma 50 qəpik 3 manat, mandarin 1 manat 50 qəpik 2 manat arası, portağal 2-3 manat, banan 2 manat 50 qəpik idi.

**Bir neçə ərzaq mağazasına da baş çəkdik. Qiymətində xüsusi artım sezilən yumurta və qarabaşaq idi. Belə ki, əvvəllər 10 qəpiyə satılan yumurta indi 12 qəpiyə, kiloqramı 1 manata satılan qarabaşaq isə 1 manat 40 qəpiyə satılırdı. Əksər mağazalarda isə satışda ümumiyyətlə qarabaşaq yox idi. Satıcılar bu məhsulun topdansatış qiymətinin artdığını və satmağın onlara sərf etmədiyini bildirdilər:** "Qarabaşağın topdansatış qiyməti 60 qəpik idi, indi 1 manatdır. Ona görə də sərf etmir. Həm də bu məhsul çox satılan məhsul deyil".



Qarabaşağın qiymətinin birdən-birə 40 qəpik artması isə yenə də Rusiya amili ilə əlaqələndirilir. Oktyabrın 31-dən noyabrın 17-dək Rusiyada qarabaşağın qiyməti 27,5 faiz yüksəlib. Rusiya hakimiyyəti zəruri dövlət ehtiyacları üçün saxlanılmış qarabaşaq ehtiyatlarını satışa çıxarmağa qərar verib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycana 3131 ton qarabaşaq idxal edilib. Onun 1490 tonu Rusiya, qalanı Ukrayna və digər ölkələrdəndir. Bu ilin doqquz ayında Rusiyadan 1116.5 ton qarabaşaq idxal edilib.

Digər ərzaqların qiymətinə gəlincə isə əksəriyyətində 4-5 qəpik də olsa bahalaşma müşahidə etdik. Marketlərdə düyü 2 manat 20 qəpik, qənd 1 manat 20 qəpik və 1 manat 50 qəpik, yumurta 12 qəpik arasında satılırdı.

Maraqlıdır, bəs qiymət artımı nə vaxta kimi davam edəcək?

**İqtisadçı ekspert Vüqar Bayramov qiymət artımında həm iqtisadi, həm də psixoloji faktorun olduğunu bildirdi:** "Birinci mərhələdə Rusiya rublu düşdükdən sonra qiymətlərdə azalma müşahidə edildi. Rublun aşağı düşməsi Rusiyada istehsal olunan məhsulların dollar ifadəsində dəyərinin azalmasına gətirdi. Bu baxımdan Azərbaycana gətirilən Rusiya məhsullarının sentyabr-oktyabr aylarında qiymətlərində azalmalar müşahidə edildi. Amma sonradan Rusiyaya tətbiq edilən sanksiyalar və Rusiyada istehsal olunan ərzaq məhsullarının azalması məhsulların ölkə daxilində tələbatının artmasına gətirib çıxartdı. Bu həm də onunla bağlı oldu ki, istehsal azaldı. İstehsal azalanda isə təklif azalır. Amma eyni zamanda tələbatda müəyyən artımlar müşahidə olunur. Rusiyada istehsalın azalması və sanksiyalar fonunda Rusiya vətəndaşlarının öz yerli məhsullarına tələbatının çoxalması birmənalı şəkildə Rusiyadan Azərbaycana gətirilən məhsulların həcminin azalmasına və nəticə etibarı ilə də qiymət artımına səbəb olur. Buna görə də qiymət artımında Rusiya əsas faktorlardan biridir".

**V.Bayramov qiymət artımında həm də psixoloji amilin olduğunu dedi:** "Psixoloji faktor isə onunla bağlıdır ki, istehlak bazarında iş adamları mütəmadi olaraq ərzaq məhsullarının qiymətlərini artırmağa çalışırlar. Ərzaq məhsullarındakı qiymət artımlarının çox vaxt iqtisadi əsasları olmur. Buna görə də son dövrlərdə qiymət artımı həm iqtisadi, həm də psixoloji faktorla bağlıdır. İqtisadi faktor Rusiyada istehsalın azalması və buna uyğun olaraq da idxalın azalmasıdır. Psixoloji faktor isə bazarda olan sahibkarların qiymət artımı vasitəsilə daha çox gəlir əldə etməyə çalışmasıdır".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**



# Hamının uçduğu təyyarədə uçurlar, amma...

## Biznes klass sərnişinləri barədə bilinməyənlər

**Təyyarələrdə biznes klas bölməsində uçmaq prestij sayılır. Bunu yaşayanlar bilir, yaşamayanlar isə filmlərdə, kliplərdə görüblər. Heç birindən xəbəri olmayanlar isə daha çox türkiyəli komediya ustası Cem Yılmazın səhnəciklərini xatırlayır. Xüsusən də "əgər təyyarədə qəza olsa, biznes klasda uçanlar ölməyəcəkmi" tipli qara yumoru...**



Biz də elə budəfəki yazımızda biznes klass uçuşlar barədə yazacağıq. Bir çox hava yolları şirkətinin biznes klass uçuşları bir-birindən fərqlənir. Əgər sizin biznes klass biletiniz varsa, xidmətlər təyyarə içində yox, aeroporta gəlmədən öncə də başlana bilər. Xüsusən də okean üstü uçuşlardakı biznes klass biletləri sayəsində baqaj haqlarınız daha üstün olur. Aeroporta addım atdığınız andan etibarən növbə gözləmək məcburiyyətində qalmırsız. Özəl qapılardan təyyarəyə çatmaq şansı əldə edirsiniz.

Biznes klasın özəl salonlarını da yaddan çıxarmayaq. Baqaj limiti ən azı 10 kilo olan hava limanlarında biznes klass sərnişinləri xüsusi xidmətlərdən yararlanırlar. Bundan başqa, onların uçduğu salon daha geniş, oturduğu kreslolar daha rahat, enlidir. İnsanın özünü daha yaxşı hiss etməsi üçün salonlarda içki və yeməklərin dadına uçuşa qədər baxmaq şansını da unutmaq olmaz. Komfortlu kreslolarda internetdən faydalanmaq lüksü də bunların içərisindədir.

Biznes klass sərinişinləri təyyarədə özlərinə yer tapandan sonra stüardessalar dərhal xidmətə başlayır. Uçuş özəl bir kabinədə baş tutduğu üçün bir stüardessa da yalnız sizə xidmət göstərmiş olur. Bu zaman sərnişinin heç bir istəyini xüsusi olaraq təkrarlamasına ehtiyac yoxdur. Uçuş müddətinə görə müəyyənləşən yemək saatlarında biznes klass sərnişinləri çox özəl ləzzətlər arasında seçimini edə bilir. Biznes klass sərnişinlərinin menyüdən istədiyi seçimi etmək imkanı var.

Biznes klasla həyata keçirilən, uzun müddət davam edən uçuşlarda vaxtın necə keçdiyini anlamamağınız üçün çoxlu sayda əyləncə var. Filmlər, musiqilər, seriallar, sənədli filmlər, səsli kitab kanalı, xəbər kanalları, uşaq proqramları və daha bir çox seyr imkanı biznes klass sərnişinləri üçün nəzərdə tutulub. Bundan başqa, biznes klass uçuşlar zamanı qısa mesaj və elektron məktub da yollaya bilirsiniz, qarşı tərəfdən də cavab almaq imkanınız yaranır. Beləliklə, təcili bir işiniz varsa, bu, axsamır və ya yaxınlarınızla əlaqələriniz heç zaman ləngimir.

Daha bir üstünlük də baqajla bağlıdır. Məsələn, Azərbaycan Hava Yolları ilə uçan sərnişinlər üçün pulsuz baqaj daşıma haqqı:

biznes klassda - 50 kq baqajda və iki 5 kq-lıq yer (cəmi 10 kq) salonda;

ekonom klass üçün - 40 kq baqajda və bir 5 kq-lıq yer salonda;

yeri olmayan körpələr üçün - boş yer olduğu təqdirdə salona keçirilməsi mümkün olan 10 kq baqaj.

Bəzi təyyarələrdə tək bir düyməyə toxunaraq tamamilə yatağa çevrilən biznes klass kresloları kefini çıxarmaq olur. Toxunmatik control ekranından istifadə edərək, kreslonuzu öz seçimlərinizə və komfortunuza uyğun şəkildə ayarlaya bilirsiniz. Tamamilə yatağa çevrilən biznes Class kresloları bütün "Emirates A380" təyyarələrində və bir çox "Boeing 777" təyyarəsində mövcuddur.

Britaniyanın "Skytrax" tədqiqat şirkəti 2 milyon sərnişin arasında sorğu keçirib. Qətərin 5 ulduzlu milli hava yolları şirkəti olan "Qatar Airways" 1993-cü ildə yaradılsa da ilk uçuşunu 1 il sonra Küveyt Hava Yollarından icarəyə götürdüyü "Boeing 767-200ER" təyyarəsi ilə başlayıb.

Mərkəzi ofisi Doha şəhərində yerləşir. Bu il istifadəyə verilən yeni Hamad Beynəlxalq Aeroportunda sərnişinlər çoxsaylı lüks mağazalar, konfrans zalları, uşaq otaqları, oyun meydançaları, tədris zalları, sauna, cakuzi, eləcə də restoranlar şəbəkəsindən yararlana bilərlər.

Britaniyanın "Skytrax" tədqiqat şirkətinin 2 milyon sərnişin arasında 10 aya yaxın müddətdə apardığı sorğuya əsasən, "Qatar Airways" dünyanın bir nömrəli hava yolları seçilib. 2014-cü ilin ən yaxşı "Business Class" kabini də "Qatar Airways"ə məxsusdur.

### Təyyarə salonları:

**"Birinci klass"**

"Birinci klass" sərnişinlərə çarpayıya çevrilən rahat kreslolarla yanaşı, uçuş zamanı 15 düymlük videodispleyli sistem, televiziya, şəxsi telefon, elektrik şəbəkəsi, eləcə də yataq ləvazimatları və digər aksessuarlar təqdim edilir.

**"Biznes klass"**

"Biznes klass" sərnişinlərinə 160 dərəcə açılaraq çarpayıya çevrilən rahat oturacaqlar və bir sıra uçuş xidmətləri paketi təklif olunur. Gələcəkdə aviaşirkət uzunmüddətli uçuşlar zamanı "Boeing 777-200LR" təyyarələrində kreslo-çarpayı yeniliyini tətbiq edəcək.

Hazırda şirkət Afrika, Mərkəzi Asiya, Avropa, Uzaq Şərq, Cənubi Asiya, Orta Şərq, Şimali Amerika, Cənubi Amerika və Okeaniya da daxil olmaqla, dünyanın 144 şəhərinə uçuşlar həyata keçirir. Yaxın 4 ildə isə istiqamətlərin sayı 170-ə çatdırılacaq.

2013-cü ilin iyul ayından Qətər Hava Yolları İspaniyanın "Barselona" futbol klubunun sponsorudur. Bundan başqa, şirkət Anorthosis Famagusta klubu ilə də əməkdaşlıq edir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 290 (5999) 27 noyabr 2014

# Qoyunların köməyi ilə evlənmə təklifi etdi

İngiltərədən olan fermer sevdiyi qıza qəribə forma-da evlənmə təklif edib. O, təklifini qoyunların köməyi ilə çatdırıb. Fermer qoyunların üzərinə evlənmə təklifi haqda sözlər həkk edib. Adı açıqlanmayan kişi qırmızı rənglə qoyunların üzərinə "mənimlə evlənərsənmi" sözlərini yazıb. Təklif üçün 5 qoyundan istifadə olunub. Yəni bu sözlər 5 qoyunun üzərində yazılıb. Kişinin bu unikal evlənmə təklifini fotoların müşayiəti ilə polis dostu Aleks Mürrey sosial şəbəkədəki profilində paylaşıb. Onun bildirdiyinə görə, qız onun bu təklifinə müsbət cavab verib. Bu cür qeyri-adi evlənmə təklifləri heç də hər zaman uğurlu nəticə vermir. Noyabrın əvvəlində çinli bir proqramçı öz sevdiyi qıza evlənmə təklif etmək üçün 99 ədəd iPhone6 smartfonundan istifadə edib. Amma onun bu hərəkəti qızın xoşuna gəlmədiyi üçün onu rədd etmişdi.






# Sosial şəbəkələr bayram sevincini öldürür

Britaniyalı yepiskop facebook və tvitter kimi sosial şəbəkələri Yeni il ənənələrini məhv etməkdə günahlandırıb. "Daily Telegraph" qəzetinin yazdığına görə, Pol Beys adlı yepiskop bildirib ki, kağızla təbrik məktublarının yerini internet məlumatlar əvəz etdiyi üçün bu bayram ənənəsinə də kölgə düşüb. "Biz əllə yazılan təbrik teleqramlarından imtina etməklə çox şey itiririk. Ona görə də bayramın yarısı bu cür mənasız və mahiyyətsiz keçir".

Bununla yanaşı, Beys bildirib ki, sosial şəbəkələrdə də pis heç nə görmür: "Mənim də facebookda səhifəm var. Tvitterdən də çox xoşum gəlir. Amma əllə yazılan bayram açıqcasının əvəzini heç nə vermir. Bu açıqcalar birbaşa ünvana çatdırılır. Əllə yazılan təbriklər xüsusi dəyərə malik olur".

Din adamı onu da deyib ki, bu ənənənin yenidən bərpa edilməsi üçün bu bayramda düz 600 təbrik açıqcası yazmağı planlaşdırır. O, eyni zamanda digər din adamlarını da bu ənənəni davam etməyə səsləyib.

# Yeməyə ən çox pulşalılar pul xərcləyir



"Forbes" hansı ölkələrdə daha çox yemək yeyildiyinə və qida məhsullarına pul xərcləndiyinə dair tədqiqat aparıb. Tədqiqatın nəticələrinə görə, qidaya ən az pul xərcləyənlər amerikanlardır. Bu sahədə onlar dünyavi minimum nümayiş etdirirlər. Onlarda qidalanma xərcləri ümumi məbləğin 7,8 faizini təşkil edir.

Yeyimcilliyə görə ikinci yerdə Almaniya (10,4 faiz), üçüncü yerdə isə Niderland (11,3 faiz), dördüncü yerdə Yunanıstan (17,1 faiz) gəlir. İlk beşliyi Portuqaliya (18,1 faiz) bağlayır.

Dünyada bu göstərici üzrə altıncı yerdə 18,2 faiz nəticə ilə İspaniya, yeddinci yerdə Cənubi Afrika Respublikası (18,3 faiz), səkkizinci yerdə İndoneziya (19,6 faiz), doqquzuncu yerdə Braziliya (22,5 faiz) dayanır və ilk onluğu 41,1 faiz göstərici ilə Polşa tamamlayır. Gün ərzində ən çox kalori qəbul edən ABŞ (3.750), həmçinin İtaliya (3.650), Almaniya (3.540), Fransa (3.530) və Rusiya (3.320) sakinləridir.



# Əmi mahnıya görə qardaşı qızını güllələdi

Qardaşının evinə qonaq gələn kişi burada mahnıya qulaq asan qardaşı qızını görəndə sinirlənib. O, qıza "Musiqini kəs! Mahnıya qulaq asma!" desə də, qız əmisinin dediyinə əhəmiyyət verməyib. Əmi də sinirlənib, qızı güllələyib. Mil.li.az "Asia Times"a istinadən bildirir ki, olay Pakistanın Pəncab vilayətindəki Mətan Kalaan qəsəbəsində yaşanıb. 6 yaşlı Rehana Bibi evdə güllələnib.

Onun əmisi və qatili həbs olunub. "Qıza iki dəfə atəş açıldı. Güllələrdən biri onun başına dəyib, digəri isə üzünə. Qız yerindəcə ölüb", polisin açıqlamasında deyilir.

Rehanın atası Munsib Xanın dediyinə görə, işdən evə qayıdanda qızını güllələnmiş görüb: "Qızımı qardaşım Məhəmməd Gülüstan öldürüb".

# Gözəl insanlar darıxdırıcıdır



İngiltərə və İsrail universitetlərinin apardığı birgə araşdırmaya görə, gözəl insanlar darıxdırıcı olur. Türkiyə mətbuatının verdiyi xəbərə görə, tədqiqat qrupunun üzvü olan Lihi Sandel-Kaspi elmi araşdırma barədə jurnalistlərə açıqlama verib: "Gözəl insanlar şəraitə və qayda-qanunlara daha çox bağlı olurlar. Daha az cazibədar insanlar isə azad həyat tərzini seçirlər. Buna görə də gözəl və cazibədar insanlar həyatdan daha az zövq alırlar. Çox gözəl qadın və kişilər başqalarına daha az vecinə alan, daha soyuq və eqoist olurlar".

Araşdırma nəticəsində bəlli olub ki, gözəl olmayan insanlar daha istiqanlı və mehriban olurlar.




QOÇ - Yalnız münasibətlər zəminində uğurlarınız olacaq. Fəaliyyət və ya şəxsi işlər üçünsə sərfəli vaxt deyil. İnsanlara qarşı unutqanlığınızı dəf edin. İstirahətə daha çox yer ayırın.

BUĞA - Böyük dəyişikliklər astanasındasınız. Qətiyyən tərəddüd etməyin. Nə qədər cəsarətli olsanız, işləriniz də bir o qədər uğurlu olacaq. Nahara qədər yeni təkliflərdən imtina etməyin.

ƏKİZLƏR - Yeni işgüzar əlaqələrə start vermək üçün Göy qübbəsi tərəfinizdə duracaq. Odur ki, bütün səylərinizi birləşdirməlisiniz. Günün ikinci yarısında şanslı məqamlar yaşayacaqsınız.

XƏRÇƏNG - Enerjinizin artdığı bir vaxtda özünüzü ələ almağa çalışın. Fikirlərinizi başa düşən adamlar arayın. Nahar ərəfəsində şəxsi büdcənizi artım gözləsə də, səhhətinizi də qorumalısınız.

ŞİR - Təxminən saat 15-dən sonra əsəblərinizi cilovlamağa çalışın. Boş dayanmaq olmaz. Mühüm adamlara baş çəkin ki, ulduzlar sizə sevinc bəxş etsin. Bu gün maddi gəlir də gözlənilir.

QIZ - Bu gün əsasən səhhətinizi qorumağa çalışın. İlk növbədə qlobal işlərin həllini, eləcə də səfərlə bağlı bütün planlarınızı təxirə salmağınız məsləhətdir. Cari sövdələşmələr səmərə verə bilər.

TƏRƏZİ - Səhər saatlarından başlayaraq qarşılıqlı münasibətlər zəminində, həmçinin işgüzar sövdələşmələrdə vəziyyət bir qədər gərgin olacaq. Odur ki, neytrallıq göstərin.

ƏQRƏB - Ulduzların düzümü maraqlı bir təqvim yaşayacağınızdan xəbər verir. Üzləşdiyiniz adamların əksəriyyəti öz zarafatları ilə ovqatınızı yüksəldəcək. Sövdələşmələr üçün də səmərəli vaxtdır.

OXATAN - Qarşınızda duran vəzifələrin çoxluğu sizi yoracaq. Lakin nəticənin uğurlu olacağını nəzərə alıb passivləşməməlisiniz. Nahardan sonra pulla bağlı istənilən riskdən uzaq olun.

OĞLAQ - Olduqca əhəmiyyətli gündür. Hansısa böyük bir işinizi həyata keçirməkdə şans qazanacaqsınız. Bununla yanaşı perspektivli görüşləriniz də mümkündür. Tanrını başınız üstündə hiss edin.

SUTÖKƏN - Saat 00:24-də mənfi enerjili Ay bürcünüzdə qərar tutduğu üçün əbəs yerə risk etməyin. Çalışın ki, ünsiyyətdə olduğunuz insanlarla münasibətləri qoruyasınız. İşgüzarlığınızı artırın.

BALIQLAR - Astroloji göstəricilər işlərinizin rəvan gedəcəyinə işarə edir. Hətta cəhd etdiyiniz təqdirdə maddi durumunuz da yaxşılaşa bilər. Axşama yaxın maraqlı görüş və sövdələşmələriniz mümkündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Turistlər yeni il tətilini Tailandda keçirəcək



Rusiyalı turistlərin böyük əksəriyyəti Yeni il bayramlarını Tailandda keçirirlər. Bu barədə lenta.ru saytı turistik servis Momondoya istinadla xəbər verib. İkinci yeri Praqa (Çexiya), üçüncü yeri Pxuket (Tailand), dördüncü yeri Kolombo (Şri-Lanka), beşinci yeri Münhen (Almaniya), altıncı yeri Barselona (İspaniya), yeddinci yeri isə Roma (İtaliya) tutur. Ötənilki reytinqdən fərqli olaraq, bu il Paris, Milan və Nyu-York bu siyahıya daxil olmayıb. Mütəxəssislər deyib ki, buna səbəb valyuta dəyişməsidir. Bununla yanaşı, ilk dəfədir ki, populyar səfərlərin siyahısına İstanbul da daxil edilib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.400